www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 aprel 2017-ci il Bazar ertəsi № 79 (6693) Qiymәti 60 qəpik

Xəbər

## Borca düşən biznesmen özünü asdı

yazısı səh.10-da

Gündəm

### Türkiyə tarixi seçimini etdi




Konstitusiya dəyişikliyi ilə bağlı ilkin məlumatlar Bakı vaxtilə saat 22-də açıqlanıb...

yazısı səh.3-də

### "Hacı Cavad" məscidinin icma sədri danışdı: "...Hər şey əladır"

yazısı səh.12-də

### Tanınmış şairənin oğlunun müəmmalı intiharı

yazısı səh.3-də

### Prezidentin tikintisini dayandırdığı ərazini Milli Məclisin mühafizə xidməti qoruyur

yazısı səh.12-də

### Azadlıq Radiosu rəhbərliyinin hakimiyyəti tənqidinə fərqli reaksiyalar

yazısı səh.6-da

### Meyvə-tərəvəz ixracı 73 faiz artıb: daxili bazarda isə qıtlıq və bahalıqdır

yazısı səh.5-də

### Azərbaycanın müdafiə naziri İrandadır

yazısı səh.9-da

### "Fitch"in Azərbaycanı krizisdən çıxara biləcək rəqəmi: 66 dollar...

yazısı səh.5-də

### Yalan detektorları haqda bilmədiyimiz həqiqətlər....

yazısı səh.15-də

### Güney Azərbaycanda sel fəlakəti-qurbanların sayı artır

yazısı səh.3-də

### Kremlin baş kahini obrazını mənimsəyən Duqin-Həmid Herisçi yazır

yazısı səh.13-də

## Düşmən və havadarına aprel ismarışı: ordumuz yeni silahlarla təlimə başladı

# KREMLİN "MÜHARİBƏ ETMƏ!" MESAJINA BAKIDAN KONTUR-CAVAB

Döyüş şəraitinə maksimum yaxınlaşdırılmış 5 günlük hərbi təlimlərə yüzlərlə zirehli texnika və artilleriya qurğusu, aviasiya və başqa döyüş sistemləri, işğalçının qorxulu röyası olan kamikadze dronlar cəlb olunub; Ermənistan sonsuzadək Rusiyanın arxasında gizlənə biləcəkmi? Lavrovun Abxaziya səfərində "Qarabağ izi"...




yazısı səh.8-də

## Siqaret oliqarxları müqavimətə başladı

Tütün istehsalçıları "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun qəbul edilməmişdən artıq öz ziyanlarını xalqın siqaret çəkən təbəqəsi üzərinə yükləməyə çalışırlar

yazısı səh.10-da



*Vahid Əhmədov:*

**"Gedib odun gətirirdik, satıb birtəhər dolanırdıq"**

yazısı səh.7-də



*Eyyub Hüseynov::*

**"Kənd Təsərrüfatı Nazirliyi qarşısında it əti satan mağaza açılsın"**

yazısı səh.4-də



*Pənah Hüseyn:*

**"Dəmirəl "ruslarla razılaşmaq lazımdır" deyərək bu plana qarşı çıxdı"**

yazısı səh.6-da

# ABŞ-dakı səfirimiz Trampı təriflədi

**Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov İsrailin "The Jerusalem Post" qəzetinə müsahibə verib və ərəb-İsrail sammiti ideyasından, Bakının Amerikanın əvvəlki və indiki administrasiyalarına münasibətindən, digər mövzulardan danışıb.**

Virtualaz.org xəbər verir ki, səfir müsahibədə ABŞ-ın rəhbərliyi ilə panərəb-İsrail sammitinin keçirilməsi ideyasını dəstəkləyib, Bakının bu sammitin baş tutması üçün əlindən gələn dəstəyi göstərməyə hazır olduğunu deyib.

Qəzet yazır ki, Fələstin administrasiyasının liderlərinin, İsrailin baş nazirinin, Fars körfəzi və Yaxın Şərq ölkələrinin dövlət başçılarının iştirakı ilə sammitin keçirilməsi ideyasını Tramp administrasiyası nəzərdən keçirir. Bu sammit İsrail-Fələstin münaqişəsinin həlli yollarının axtarılması məqsədini daşımalıdır. Hələlik bu təşəbbüsü İsrail və İordaniya dəstkləyib, bir şərtlə ki, İsrail işğal altındakı Fələstin ərazilərində yaşayış məskənlərinin tikintisini dayandırsın.




Elin Süleymanov deyib ki, Azərbaycan İsrailin müttəfiqi və müsəlman ölkələri ilə isti diplomatik münasibətlərə malik olan tərəf kimi özünü bu təşəbbüsün potensial dəstəkçisi kimi görür. Hərçənd Bakının İsrail-ərəb danışıqlarında vasitəçilik imkanları geniş deyil. "Lakin Tramp administrasiyasının irəli sürdüyü bu regional sammit ideyası əladır"-səfir deyib.

Süleymanov Tramp haqda müsbət fikirlər deyib və bildirib ki, o, əvvəlki administrasiyaların rəhbərlərindən fərqlənir. Səfirə görə, Tramp Barak Obamaya nisbətən daha praktik fiqurdur və deməli, o, sülh prosesi üçün daha münasib mühit yarada bilər.

"Əvvəlki administrasiya bir qədər ideoloji idi. Və son səkkiz ildə bizim münasibətlərimiz heç də ən yaxşı dövrlərini yaşamadı"-Süleymanov şikayətlənib. Bununla belə o, Amerika-Azərbaycan münasibətlərini "strateji tərəfdaşlıq" kimi xarakterizə edib. Səfir deyib ki, əvvəlki administrasiyanın öz ideyalarını başqalarına sırımaq cəhdləri işə yaramırdı. "Bu yanaşma işləmir, bu, reallıqdır. Və öz baxışlarını başqalarına sırımaq heç vaxt işləmir"-səfir deyib.

Səfir İsrailin Azərbaycanla münasibətlərini də strateji tərəfdaşlıq kimi xarakterizə edib və iki ölkənin bir çox sahələrdə uğurlu əməkdaşlıq etməsi haqda danışıb. Bildirib ki, İsrail Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Qarabağ məsələsində Bakının haqlı mövqeyini əsasən müdafiə edir. Və bu, yaxşı haldır.



## Prezident Yevlaxda yol açılışlarında iştirak edib

**Aprelin 16-da prezident İlham Əliyev Yevlax rayonuna səfərə gəlib. APA-nın məlumatına görə, Azərbaycan prezidenti Mingəçevir-Bəhramtəpə avtomobil yolunun Mingəçevir-Mingəçevir stansiyası hissəsinin açılışında iştirak edib.**

Dövlət başçısı yolun texniki göstəricilərini əks etdirən stendlərə baxıb. "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verib ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Mingəçevir-Bəhramtəpə avtomobil yolunun Mingəçevir şəhəri-Mingəçevir dəmir yolu stansiyası arasında yerləşən hissəsinin yenidən qurulması işləri yekunlaşıb. Bu hissənin uzunluğu 16,5 kilometrdir. Yol üçüncü texniki dərəcədən ikinci texniki dərəcəyə uyğun yenidən qurulub. Layihəyə əsasən, yol iki hərəkət zolağından ibarətdir.

Prezident Yevlax rayonunda Salahlı-Balçılı-Ağqıraqlı-Varvara-Cırdaxan avtomobil yolunun açılışında da iştirak edib.

## 9-cu sinif şagirdləri üçün imtahanlar keçirildi

**Aprelin 16-da Dövlət İmtahan Mərkəzi (DİM) ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbul olmaq istəyən əvvəlki illərin məzunları, o cümlədən, eksternat qaydasında yekun qiymətləndirmədə (attestasiyada) iştirak edən və ya üzrlü səbəbdən 9-cu sinif buraxılış imtahanının 1-ci mərhələsində iştirak edə bilməyən şəxslər üçün imtahanlar keçirib.**

DİM-dən APA-ya verilən xəbərə görə, imtahanlar Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz və Lənkəran şəhərlərində təşkil olunub.

İmtahanlar bütün binalarda eyni vaxtda saat 13:00-da başlanıb. İmtahanda 7177 (Bakı şəhərində 1927, Naxçıvan şəhərində 511, Gəncə şəhərində 980, Sumqayıt şəhərində 334, Şəki şəhərində 313, Bərdə şəhərində 810, Göyçay şəhərində 400, Şirvan şəhərində 641, Lənkəran şəhərində 864, Xaçmaz şəhərində 397) namizədin iştirakı nəzərdə tutulur. İmtahanların idarə olunması üçün 47 imtahan rəhbəri, 546 nəzarətçi-müəllim ayrılıb.

## Düzəliş

**"Yeni Müsavat" qəzetinin 15 aprel 2017-ci il tarixli sayında hüquq elmləri doktoru, professor İlham Rəhimovla ("Moskvadan xahiş etdim ki, nə olursa-olsun, bircə ÜAK ləğv olunmasın") müsahibə dərc olunmuşdur.**

**Həmin müsahibədə jurnalistin "Amma digər məsələlər də var. Şimal sərhədlərimizdə Azərbaycan məhsullarının idxalına qoyulan qadağa, yük maşınlarımızla bağlı yaradılan problemlər. Bəs, bunlar barədə nə deyə bilərsiniz? Ola bilməz ki, bütün məsələlərdə Rusiya haqlı olsun..." sualına İ.Rəhimovun cavabı təhrif olunmuş şəkildə verilmişdir. Əslində cavab aşağıdakı kimi oxunmalıdır:**

**"Bir neçə ay bundan əvvəl 800 yük maşını orda qalmışdı. Mən problemi həll etdim. İndi yenə deyirsiniz eyni vəziyyət yaranıb. Orada sərhəddən buraxılma, gömrük məsələsi deyil. Rusiya sürücüləri orada yolu bağlayıblar, o da pullu yoldur. Azərbaycandan gedən maşınlara deyirlər ki, siz də bizə qoşulun, birgə mübarizə aparaq, yola pul verməyək! Söhbət bundan gedir. Yoxsa burada siyasi çalar axtarmağa dəyməz".**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## 1636 namizəd...

**İranda prezidentliyə namizədlərin qeydiyyatı başa çatıb. APA-nın Tehran bürosunun məlumatına görə, 5 günlük müddət aprelin 15-də axşam başa çatıb.**

Bu müddət ərzində 1636 nəfər prezidentliyə namizədlik üçün qeydiyyatdan keçib ki, onlardan 137 nəfəri qadındır. Bu rəqəm öncəki prezident seçkiləri ilə müqayisədə rekord göstəricidir.

Qeyd edək ki, İran Konstitusiyasına Nəzarət Şurası namizədliyi qeydiyyata alınanlarla bağlı araşdırmaya başlayır. Şura aprel ayının 28-də səlahiyyəti təsdiq olunmuş şəxslərin adlarını elan edəcək. Adları təsdiq olunmuş namizədlər 20 gün müddətində təbliğat kampaniyası apara biləcək. Prezident seçkiləri mayın 19-da keçiriləcək.

## Bakıda 27 yaşlı qadın intihara cəhd etdi

**Paytaxtın Səbayel rayonunda intihara cəhd hadisəsi qeydə alınıb. "Report" xəbər verir k\i, hadisə Üzeyir Hacıbəyov küçəsində baş verib. Belə ki, Bakı şəhər sakini, 1990-cı il təvəllüdlü K.Şükürova naməlum səbəblərə görə ülgüclə qollarını kəsərək intihar etmək istəyib. O, xəstəxanaya yerləşdirilib.**

Faktla bağlı araşdırma aparılır.



## Bu gün hava necə olacaq?

**Aprelin 17-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, bəzi yerlərdə zəif duman olacaq, cənub küləyi gündüz arabir güclənəcək.**

Havanın temperaturunun gecə 7-10° isti, gündüz 17-22° isti, Bakıda gecə 8-10° isti, gündüz 19-21° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 764 mm civə sütunundan 760 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 75-85 %, gündüz 45-50 % təşkil edəcək.

## İran Təhlükəsizlik Şurasının katibi: "Ərazi bütövlüyünüzü dəstəkləyirik"

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov İran Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şəmxani ilə görüşüb. APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, tərəflər terrorizm və güc tətbiqinin bölgə, ümumiyyətlə, bütün dünya üçün böyük təhlükə yaratdığını bildirərək bu çağırışlara qarşı mübarizədə iki ölkənin səylərinin daha da artırılmasının vacibliyini vurğulayıblar.**

Ə.Şəmxani ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və sərhədlərin güc yolu ilə dəyişdirilməsinin əleyhinə olduğunu bildirib. Eyni zamanda regiondakı problemlərin danışıqlar vasitəsilə həll edilərək sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasının tərəfdarı olduğunu xüsusi qeyd edib.



## Şeyxülislam "Hacı Cavad" məscidindəki hadisələrdən danışdı

**"Bəzi şəxslər dinin adından istifadə edərək "Hacı Cavad" məscidi ətrafında gərginlik yaratmaq istəyirdilər".**

APA-nın xəbərinə görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMI) sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib. Onun sözlərinə görə, gərginlik yaratmaq istəyənlərin həmin məscid və məhəllə ilə heç bir əlaqəsi olmayıb: "Prezident məsələ ilə bağlı konkret mövqeyini bildirdi, dindarlarımız da dövlət başçısının bu addımını dəstəkləyir. Heydər Əliyevin, Zərifə xanımın ailəsində böyüyən İlham Əliyev həzrətləri dini abidələrimizin, milli-mənəvi dəyərlərimizin qorunması üçün çox mühüm işlər görür və inşallah hələ çox işlər də görəcək. Prezident biz dindarlara verdiyi sözə həmişə əməl edib".

## Azərbaycandakı xristianlar Pasxanı qeyd etdi

**Aprelin 16-da xristian dünyası Pasxa bayramını qeyd edib.**

APA-nın məlumatına görə, katoliklər, lüteranlar və pravoslavlar İsa peyğəmbərin dirilişinə həsr edilən Pasxa bayramını hər il müxtəlif tarixlərdə qeyd edirlər, çünki bayramların tarixinin hesablanması prinsipləri fərqlidir. Nadir hallarda bütün xristianların bu bayramı eyni gündə qeyd etməsinə rast gəlinir. Bu il də bütün xristian dünyası - katoliklər, lüteranlar və pravoslavlar eyni gündə, aprelin 16-da bu dini bayramı qeyd ediblər.

Virtualaz.org xatırladır ki, yeniliyin, əmin-amanlığın, həmrəylik və mərhəmət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda da təntənə ilə qeyd edilir.

Yeri gəlmişkən, Azərbaycan prezidenti İlham Əliyev ölkəmizdəki pravoslav xristian icmasını təbrik edib: "Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma vətəndir. Ümidvaram ki, xristian həmvətənlərimiz müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsi, cəmiyyətdə vətəndaş həmrəyliyinin, ictimai-siyasi sabitliyin bərqərar olunması yolunda bundan sonra da əllərindən gələni əsirgəməyəcək, xalqımızın xoşbəxt gələcəyi naminə öz səylərini daha da artıracaqlar.

...Bu əziz gündə sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!"

# Türkiyə tarixi seçimini etdi

## Konstitusiya dəyişikliyi ilə bağlı ilkin məlumatlar Bakı vaxtilə saat 22-də açıqlanıb...

**Aprelin 16-da Türkiyədə konstitusiya dəyişikliyi ilə əlaqədar referendum keçirilib.**

"Yeni Müsavat" milliyet.com-a istinadən verdiyi məlumatına görə, ölkənin əksər bölgələrində səsvermə yerli vaxtla 08.00 başlayıb, saat 17.00-da başa çatıb. Türkiyənin şərqində və Qara dəniz bölgələrində isə səsvermə yerli vaxtla saat 07.00-da başlayıb, 16.00-da bitib. Məlumdur ki, ölkə xaricində yaşayan türk vətəndaşları artıq səs veriblər. Həmin səslərin nəticəsi ölkədə ümumxalq səsverməsinin nəticələri ilə eyni vaxtda açıqlanıb. Türkiyə xaricində yaşayan 3 milyona yaxın seçici dünyanın 57 ölkəsində səs verib. Qeyd edək ki, ölkə xaricində səsvermə prosesi martın 27-dən aprelin 9-dək baş tutub.

Türkiyə Konstitusiyanın 18 maddəsinin dəyişdirilməsi nəzərdə tutulurdu. Bunlar Türkiyədə parlament idarəçilik sistemindən prezident üsul-idarəsinə keçid, baş nazir vəzifəsinin ləğvi, Böyük Millət Məclisi üzvlərinin sayının 550 nəfərdən 600 nəfərə çatdırılması, millət vəkili seçilmə yaşının 18-ə endirilməsi, Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinin dəyişdirilməsi və digər maddələrdir.(materialın hazırlanmasında APA, axar.az, lent.az, strateq.az saytlarının xəbərlərindən də istifadə olunub).

Referendumu izləmək üçün 500 xarici KİV təmsilçisi Türkiyəyə gəlib. Bundan başqa, Türkiyədə fəaliyyət göstərən xarici və yerli media nümayəndələri də referendumu işıqlandırmaq üçün qeydiyyatdan keçiblər.

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan** həyat yoldaşı Əminə Ərdoğanla birgə səs verib. Onun yanında kürəkəni Türkiyənin enerji və təbii qaynaqları naziri Berat Albayrak, oğlu Bilal və onun həyat yoldaşı da olub. Dövlət başçısı İstanbul şəhərində Üsküdar məhəlləsindəki Safet Cabi orta məktəbindəki seçki məntəqəsində seçimini etdikdən sonra açıqlama verib.

"Bu referendum sıradan bir səsvermə deyil. Respublika tarixində parlamentli sistemlə bağlı bir neçə səsverməmiz olub. Lakin bu səsvermə yeni idarəçilik sistemi ilə bağlı dəyişiklik seçimidir. Mən inanıram ki, xalqımız yeni sıçrayışın, daha güclü inkişafın yolunu açmağa qərar verəcək. Nəticələri şəxsən izləyəcəyəm. Hava şəraiti göstərir ki, seçkilərdə iştirak faizi çox yüksək olacaq" deyə, Ərdoğan bildirib. Türkiyə prezidenti səsini nəvəsi ilə birlikdə qutuya atıb.







**Türkiyə baş naziri Binəli Yıldırım İzmir şəhərində səs verib.** "Vətəndaşlıq borcumu yerinə yetirdim. İndi də işimizə-gücümüzə baxacağıq. Vətəndaşlar dinc şəkildə seçimlərini edirlər. Çıxan nəticə nə olursa-olsun, başımızın tacıdır. Millətimizin verdiyi qərar ən gözəl qərardır" deyə, baş nazir bildirib.

**CHP lideri Kamal Kılıçdaroğlu həyat yoldaşı Selvi Kılıçdaroğlu və oğlu Kərəm Kılıçdaroğlu ilə birlikdə Ankarada səs veriblər.** Səsvermədən sonra jurnalistlərə açıqlama verən CHP lideri "son dərəcə gözəl bir kampanya apardıq. Bütün vətəndaşlarımızı qucaqladıq, heç kimə özgə kimi baxmadıq. Bu gün Türkiyənin taleyini həll edirik. İnşallah, xeyirli sonunc çıxar"deyə, bildirib.

**MHP başqanı Dövlət Baxçalı Anıttəpədə səs verib.** O da vətəndaşlıq görəvinin yerini yetirdiyini, bu referendumun Türkiyə tarixində yeni bir səhifə açdığını söyləyib.

Türkiyənin tanınmış adamları da vətəndaşlıq mövqelərini bildirib. Məşhur türkiyəli müğənni Tarkan İstanbulun Sarıyer səmtindəki seçki məntəqəsində növbəsini gözlədikdən sonra kabinəyə daxil olaraq seçimini edib. Daha sonra bülleteni qutuya atan Tarkan "xeyirli olsun" deyib.

Tarkan jurnalistlərin də suallarını qısa cavablandırıb: "Vətəndaşlıq vəzifəmi yerinə yetirdim. Səsimi verdim, gedirəm". Tanınmış futbolçu Əmrə Belözoğlu da səsvermədə iştirak edib. O da "vətəndaşlıq vəzifəmi yerinə yetirdim" deməklə kifayətlənib.

Məşhur türkiyəli yumorist, stəndapçı Cem Yılmaz referendumla bağlı Tvitter hesabında paylaşım edib.

Aktyor paylaşımında "Yaşasın cümhuriyyət" ifadəsini işlədib. Bu isə məşhur simanın seçimini üzə çıxarıb.

İlk olaraq Adıyaman, Ağrı, Artvin, Bingöl, Bitlis, Diyərbəkir, Elazığ, Ərzincan, Ərzurum, Gaziantəp, Girəsun, Gümüşxanə, Hakkari, Qars, Malatya, Qəhramanmaraş, Mardin, Muş, Ordu, Rizə, Siirt, Sivas, Trabzon, Tuncəli, Şanlıurfa, Van, Bayburt, Batman, Şırnak, Ərdəhan, İqdır və Kilisdə seçki sandıqları qapanıb. Radiolara və bütün televiziyalara seçki saatı bitənədək-Bakı vaxtı ilə saat 19-dək seçkilərlərlə bağlı xəbər, proqnoz və şərh yasaq edilib. Yalnız saat 21-dən sonar Yüksək Seçim Kurulunun rəsmi məlumatları yayımlanacaq, bütün yayımlar yalnız axşam saat 22-dən sonar sərbəst yayıma keçə biliblər.

**Referendumda qanlı hadisələr də olub.** Türkiyənin Van vilayətində hakim Ədalət və İnkişaf partiyasının Muradiyyə rayonu üzrə rəhbəri İbrahim Vanlının avtomobili PKK terrorçuları tərəfindən atəşə tutulub. İ.Vanlıya zərər dəyməsə də, hadisə nəticəsində onun digər avtomobildə olan qardaşı oğlu Adnan Vanlı ölüb, daha bir nəfər yaralanıb.

Diyarbəkir vilayətində də silahlı insident baş verib. Yabanardı kənd məktəbində təşkil edilmiş seçki məntəqəsinin qarşısında qohum olduğu bildirilən iki ailə arasında dava-dalaş düşüb. Bu zaman hər iki tərəf silahdan istifadə edib və səbəbi hələlik məlum olmayan atışma zamanı 68 yaşlı Abdulrezzak Yıldız və 32 yaşlı Şeyhmus Yıldız qətlə yetirilib. İdris Yıldız isə xəstəxanaya yerləşdirilib.

❑ **"Yeni Müsavat"**

# Tanınmış şairənin oğlunun müəmmalı intiharı

**Aprelin 14-də tanınmış şairə Səadət Butanın oğlu, 47 yaşlı Məmməd Abdullayev müəmmalı şəkildə intihar edib. Əvvəl sosial şəbəkələrdə mərhumun qəfildən, öz əcəli ilə dünyası dəyişdiyi bildirilsə də, sonradan intihar etdiyi məlum oldu. İntiharın necə baş verdiyi haqda şairənin yaxın həmkarı Nazilə Səfərli publika.az saytına geniş açıqlama verib:**

"Mərhumun iki övladı var. Oğlu Almaniyada oxumağa hazırlaşır. Xanımı da çox mədəni qadındır. Hətta oğlunun xaricdə təhsil alması üçün bank hesabında pulu da var idi. Adam intihar edəndə adətən soruşurlar ki, borcu var idi görəsən. Anasının danışdıqlarına əsasən deyirəm. Səadət xanım Gürcüstana aşıq Telli Borçalının anasının yas mərasiminə getmək istəmirmiş. Oğlu Məmməd deyib ki, "ana Telli küsəyəndir, o küsər, get". Qızını da göndərib dərziyə, evdə heç kim qalmayıb. Sonra üzünü qırxıb, çay dəmləyib, şirniyyat süfrəsi açıb. Bir stəkan çay süzüb. Sonra mətbəxə keçib. Mətbəxdə boru var imiş. O borudan özünü asıb. Qızı evə gələndə elə bilib ki, atası ondan gizlənir. Deyib ki, gördüm səni, gizlənmə. Görüb ki, atasından səs çıxmır. Birdən gözü sataşıb ki, ayağının altında heç nə yoxdu, atası havada qalıb. Onda anlayıb ki, atası özünü asıb. Təkbaşına kəndiri kəsib və cəsədi yerə düşürüb. Tək olsa da, qoymayıb ki, atasının başı yerə dəysin. Məktub yazıb qoyub. Həmin məktub polisdədir. Məktubda yazıb ki, "bu çirkab həyatda yaşamaq istəmirəm. Bu həyat mənlik deyil". Sonda da "Allah" yazıb".

**Şairə Nazilə Səfərlinin sözlərinə görə, mərhum tez-tez depressiyaya düşürmüş:** "Anasının dediyinə görə bu cür hallar tez-tez baş verirdi. Sonuncu dəfə ötən il müalicə alıb. Bu il müalicəyə getməyib".

Nazilə Səfərli daha bir ilginc məlumat haqda danışıb. O qeyd edib ki, mərhumun ailəsində intihar ilk hal deyil: "Onun atası da 32 yaşında intihar edib. Atasının əmisi oğlu da intihar edərək dünyasını dəyişib".

**Şairə Səadət Butanın bacısı Səringül xanım isə "Yeni Müsavat"a açıqlama verərək, mətbuatda gedən bəzi yazıların həqiqəti əks etdirmədiyini bildirib:**

"Bəli, bu intihardır, amma bu hadisə nə birinci, nə də sonuncudur. Mənim bacımın oğlu ali savadlı idi. O, şair, riyaziyyatçı, kimyaçı, dil-ədəbiyyatçı, tarixçi olub. Onun 700 balla universitetə daxil olan balaları var. Onun hər şeyi olub. Bir hadisədir, baş verib... "

Səringül xanımın sözlərinə görə mərhumun hansı səbəbdən intihar etdiyi sirr olaraq qalır:

"Onun intihar səbəbi hələ də məlum deyil. Nə olduğunu özümüz də ayırd edə bilmirik.

O, bütün sirri öz ilə aparıb... Ailəsində heç bir narazılığı olmayıb. Çox gözəl ailəsi var. İşlədiyi yerdə də heç vaxt narazılıq olmayıb, hər kəs ona hörmətlə yanaşıb. Həyatdan bezmək söhbəti olmayıb. Sadəcə yazıb ki, çirkablı həyatda yaşamaq istəmirəm. Heç nə, qəfil olan bir işdir... "

❑ **Xalidə Gəray**

# Güney Azərbaycanda sel fəlakəti - qurbanların sayı artır

## 48 nəfərin meyiti tapılıb, itkinlərin siyahısı dəqiqləşdirilir; Azərbaycan hökuməti soydaşlarımıza yardım edəcəkmi...

**Şərqi Azərbaycan şəhərlərində (İran ərazisində) baş verən dəhşətli sel-daşqınlar nəticəsində həlak olanların və itkin düşənlərin axtarışları davam edir. Güney Azərbaycandakı mənbələrimizdən aldığımız son məlumata görə, həlak olanların sayı 48 nəfərə çatıb, itkinlərin isə siyahısı hələ ki, dəqiqləşdirilir.**

Cəsədi tapılan şəxslərin əksəriyyəti avtomobillə birlikdə sel altında qalanlardır.

Təbii fəlakət bölgəsində bir çox ev və yaşayış məntəqəsinə ziyan dəyib. Onun sözlərinə görə, bölgədə hələ də təhlükə var, daşqın suları sabahdan daha da arta bilər. Bundan başqa Təbriz və Urmiyə şəhərində də sel evlərə ziyan vurub. Urmiyədə bir neçə körpü dağılıb, bir neçə kəndin əhalisi isə evakuasiya olunub.

Kürdüstan Vilayətində də böyük bir məntəqəni sel basıb, təbii fəlakət nəticəsində ölənlər var.

Güney Azərbaycan Urmiyə şəhərinin İran parlamentindəki millət vəkili Hadi Bahaduri Azərbaycanda baş verən daşqınlarla bağlı məsulların fəaliyyətini tənqid edib. O, təbii fəlakətlə bağlı Azərbaycan əhalisinə başsağlığı verərək İran Milli Hidrometeorologiya Təşkilatı və Teleradio Şirkətinin fəaliyyətini tənqid edib.

Azərbaycanlı fəalların dediyinə görə, insan tələfatının çox olmasının əsas səbəbi kimi, mərkəzi yollardan birinin 10 ildir ki, "təmir" adı ilə bağlanması və körpüyə girişin yasaqlanmasıdır. Belə ki, avtomobillər körpünün üstü ilə deyil, altı ilə keçdiyi zaman güclü sel onları ağuşuna alıb aparıb. Xilasetmə işlərinə laqeydlik də insanları qəzəbləndirib, Təbrizdə etiraz aksiyaları da olub. Palçığın içərisində olan meyitlər sadə insanların şəxsi təşəbbüsü ilə çıxarılır.

**GAMOV-un mətbuat xidmətinin rəhbəri Ağrı Qaradağlı** "Yeni Müsavat"a dedi ki, durum çox ağırdır: "Məsul şəxslər azərbaycanlıların taleyi ilə heç maraqlanmır. Xalq özü axtarış və qurtarma işlərini görür. Tehranda Plasko binasında 27 nəfər öldü, İran və dünya çalxalanırdı. Amma Azərbaycanın müsibətinə reaksiya verən yoxdur".

A.Qaradağlı Güneyin Azərbaycan dövlətindən gözləntilərinin olduğunu da vurğuladı: "Azərbaycan dövləti zərər çəkmiş ailələrə və oradakı abadlıq işlərinə dəstək ola bilər. Təbii ki, əgər İran ehtiyac duyarsaE 5 il öncə Qaradağ zəlzələsində evləri dağılmış ailələr hələ də çadırda yaşayırlar. Bu, İran kimi dövlətə bir üz qarasıdır. Adını İslam ölkəsi adlandırıb millətlər arasında ayrıseçkilik salan bir diktator və rəhmsiz rejim var".

Güney matəm içindədir, təəssüf ki, İran hakimiyyəti də gərəkəni etmir. Azərbaycan güneyli qardaşlarımıza humanitar yardım edə bilərmi? Azərbaycan dövləti hər zaman humanitar aksiyalarda öndə gedir. Elə bu yaxınlarda Cibutiyə də yardım göndərdik. Bu mənada güneyli qardaşlarımıza maddi və mənəvi dayaq olmağımıza daha çox ehtiyac var.

**Deputat Fazil Mustafa** bildirdi ki, Güney Azərbaycandakı soydaşlarımıza dəstək vermək hər birimizin insani və milli borcumuzdur: "Ancaq qardaşlarımız başqa bir ölkənin hüdudları içində yaşadıqlarından bu dəstəyin mütləq dövlətlərarası münasibətlər əsasında tənzimlənməsinə ehtiyac var. Azərbaycan hökuməti rəsmi səviyyədə yəqin ki, zəruri addımlar atacaq. Ölənlərə rəhmət, qalanlara şəfa diləyirəm".

**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli** "Yeni Müsavat"a açıqlamasında dedi ki, bütün hallarda Güney Azərbaycanın yanında olmalıyıq: "Azərbaycan dövləti bütün vasitələrlə təbii fəlakətdən zərər çəkən qardaşlarımızın yanında olmalıdır, özü də ən yüksək səviyyədə. Bunu yasaq edən hər hansı qanun, yaxud beynəlxalq hüquqda başqa ikinci norma nəzərdə tutulmayıb".

**BAXCP sədrinin müavini Elçin Mirzəbəyli** bildirdi ki, belə hallarda yardım, ancaq qarşı tərəfin müraciəti, yaxud razılığı əsasında edilə bilər: "Azərbaycan bundan öncə də İranda baş verən təbii fəlakətlər zamanı öz dəstəyini ifadə edib və yardım göstərib. Ola bilsin ki, İran tərəfinə bununla bağlı yenə də müraciət edilib. Azərbaycan dövləti hər zaman olduğu kimi gərəkəni edəcək".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 79 (6693) 17 aprel 2017

# AİB sədrindən hadisə kimi müsahibə



# "Kənd Təsərrüfatı Nazirliyi qarşısında it əti satan mağaza açılsın"

## Eyyub Hüseynov: "Bu adam erməninin əlinə bayraq verir ki, desinlər ki, azərbaycanlılar it əti yeyirlər"

**Son vaxtlar murdar ət mafiyasının əməlləri haqda mediada ardıcıl yazılar, xəbərlər gedir. "Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alıb, "Azad İstehlakçılar Birliyi"nin (AİB) sədri Eyyub Hüseynovun fikirlərini öyrənib. AİB sədri deyib ki, problemi aradan qaldırmaq mümkündür:**

- Dəfələrlə demişəm, bazar təklif-tələb aksiomu ilə işləyir. Tələb varsa, təklif də olacaq. Dövlət orqanları tələbkarı tapmaqda aciz görünür. Məsələnin mahiyyəti budur.

***- Hansı dövlət orqanından söhbət gedir?***

- İqtisadiyyat Nazirliyi, Dövlət Baytarlıq Xidməti, Daxili İşlər Nazirliyi.

***- Yəni bu qurumların "leş mafiyası"nı, murdar ət tacirlərini durdurmaq səlahiyyətləri var?***

- Ən azı müəyyən edə bilərlər ki, tələbkar kimdir. 6-7 ton at-eşşək, murdar, ölmüş heyvanın ətini satandan soruşa bilərlər ki, ay bala, bu qədər at-eşşəyin ətini hara, kimə aparırsan? Bunu niyə soruşmurlar? Soruşurlarsa, niyə tələbkarların cəzalandırılması haqda 1 dənə olsun belə məlumat yoxdur? Olsaydı, yəqin ki, bur gün Azərbaycanda "leş mafiyası" fəaliyyətini bu qədər şəbəkələşdirib genişləndirə bilməzdi. Atın-eşşəyin cəmdəyi azı 100 kiloqram olur. Bazarda ətin kiloqramı 10-12 manatdır. "Leş mafiyası"ətin kiloqramını 5 manatdan satır. Hər 100 kiloqram ət üçün 500 manat qazanc var. Belə ətin satışına görə cərimə dəfələrlə azdır. 50-100 manat cərimə ödəyib, yenidən qayıdırlar öz işlərinə. Tələbkarlar böyük biznes sahibləridir.

***- Kim ola bilər tələbkarlar?***

- Uşaq bağçaları, şadlıq evləri.

***- Bəs kolbasa istehsalçıları ola bilərlər?***

- Əlbəttə ola bilərlər. Dövlət orqanlarının əlində tələbkarları - yəni bazarı stimullaşdıranları müəyyən etmək çətin iş deyil. Təsəvvür edin ki, Kənd Təsərrüfatı Nazirliyinin rəsmisi bu günlərdə çıxıb dedi ki, it, at, eşşək, ulaq əti də yeməlidir. Ancaq bunun üçün ətin adı deyilməlidir. Bu açıqlama ilə qətiyyən razı deyiləm. Belə açıqlama verilən nazirliyin qarşısında it əti mağazası açmaq lazımdır. Bu adam erməninin əlinə bayraq verir ki, desinlər ki, azərbaycanlılar it əti yeyirlər. Bu, biabırçılıqdır. Azərbaycanda at-eşşək ferması yaradıb guya ətini xaricə göndərən adamlar da ifşa olunmalıdır. Bu məsələ birdəfəlik Azərbaycan gündəmindən çıxmalıdır. Azərbaycan vətəndaşlarının bədəninə at-eşşək, it ətinin harmonları yaddır. Bu ətlər insan bədəninə düşəndən sonra azad radikallar yaradır, bağırsaqlarda yuva salıb vətəndaşların sağlamlıqlarına xətər yetirəcək.

***- Dövlət orqanları rəsmiləri "leş ət mafiyası"na qarşı mübarizədə hərəkətsiz görünürlər. Bunun səbəbi nə ola bilər? Səlahiyyətləri çatmır, yoxsa başqa səbəb var?***



- Qanunlarda boşluq var. İstehlakçı hüquqlarının qorunmasına dair qanun zəifdir. Qanun deyir ki, istehlakçıya 100 manat qədər aldatmaq olar. Yəni it ətini quzu əti adı altında alıcıya sat, bunun üçün məsuliyyət yoxdur. 101 manat oldusa, məsuliyyət var. 10 ton murdar əti 3-5 kiloqram olmaq şərti ilə sata bilərsən. Qanunla bu yaramaz əmələ görə satıcının məsuliyyəti yoxdur. Cərimə də elədir ki, onu asanlıqla ödəyə bilirlər.

***- Dövlət orqanları bu məsələdə hərəkətlilikdə sanki həvəssizdirlər. Səbəb nədir?***

- Şanlı İqtisadiyyat Nazirliyi guya məqsədyönlü siyasət aparır. Cənab prezident fərman imzalayıb ki, sahibkarlara toxunmaq olmaz. 2 il əvvəl həmin fərmanda nəzərdə tutulurdu ki, qiymətlər aşağı düşəcək, məmurlar rüşvət almayacaqlar. Qiymətlər göz qabağındadır, məmurlar da gizli yoxlamalar aparmaqda davam edirlər. Əksinə, məmurlar sahibkarları himayə etməli fərmandan öz şəxsi maraqlarını təmin etmək üçün həmin o sahibkara qarşı istifadə edirlər. Gizli yoxlamalar aparırlar. Digər tərəfdən də bazarda zir-zibil məhsulların, murdar ətlərin piştaxtalara çıxmasına şərait yaradırlar.

***- Azad İstehlakçılar Birliyi "leş mafiyası"na qarşı necə ildir ki, mübarizə aparır. Yalnız sizin fəaliyyətinizlə bu mafiyanı durdurmaq olarmı?***

- 20 ilə yaxındır "leş mafiyası" ilə mübarizə aparırıq, amma nəticə yoxdur. Dövlət qurumlarının əməli dəstəyi olmasa, vəziyyət belə də davam edəcək. Tələb varsa, təklif də olacaq. Azərbaycanlılar özləri də bilmədən it, at, ulaq, eşşək, ölmüş heyvanların ətini yeməkdə davam edəcəklər. Bunu uşaq baxçalarında uşaqlara, restoranlarda qonaqlara, kafelərdə müştərilərə yedizdirəcəklər. Bazar-dükanlardan vətəndaş belə ətləri ən müxtəlif şəkildə - farş, kolbasa, sosiska şəklində alacaq. Kənd Təsərrüfatı Nazirliyinin rəsmisi deyəndə ki, it ətini də satmaq olar, vəziyyət dəyişməyəcək. Əlbəttə ki, bu açıqlama belə ətlərin satışına "yaşıl işıq" yandırmaqdır.

***- Kənd Təsərrüfatı Nazirliyinin rəsminin belə bir açıqlama verməsinin arxasında hansı məqamlar gizlənir?***

- Bu sözləri deyəndə qanundakı boşluqdan istifadə edirlər. 1963-cü ildə SSRİ-nin 15 respublikasında istifadə edilən ətlərin preskurantı hazırlanıb. Həmin sənədə yalnız Azərbaycan Respublikasında eşşək ətinin yeyilən ət kimi salınıb. Digər respublikalarda isə eşşək əti yeyilməyən ət statusunda saxlanıb. Həmin sənəd bu günə qədər etibarsız hesab edilməyib. Azərbaycan müstəqillik qazanana qədər qıtlıq illərindən keçib. Heç həmin dövrlərdə azərbaycanlılar eşşək əti yeməyiblər. Müstəqillik dövründə isə dövlət orqanları deyir ki, eybi yoxdur, eşşək ətini də satmaq olar.

***- Eşşək, at, it əti mal-heyvan ətindən fərqlənir, dadı da həmin deyil. Bəs bu məqamlar necə ört-basdır olunur?***

- Ətlərə xüsusi dadlandırıcılar vurulur, belə ətləri emal edib piştaxtaya çıxarırlar. Sadə alıcı həmin ətin ümumi görünüşünü mal ətindən ayıra bilməz. Kolbasa və digər ət məhsullarının tərkibində isə ümumiyyətlə hiss etməz. Çünki o qədər dadlandırıcı, ədviyyat vurulur ki...

Beyləqandan bizə bu mövzuda bir misra şeir yollayıblar. Deyir:

- At əti, eşşək əti, bunların var ləzzəti
- Səhər, axşam satıram, dönərdə var ləzzəti

Təsəvvür edin, uşaq baxçalarında bu məsələdə tam nəzarətsizlikdir. Kim haradan istəsə ət alıb qazana tökə və uşaqlara yedizdirə bilər.

***- Hər hansı bir yoxlamadan da keçmir həmin ətlər?***

- Əlbəttə ki, yox!

***- Xəstəxanalarda da yemək verilir. Orada da eyni durumdur?***

- Bəs necə, hər yerdə eyni vəziyyətdir. Bir halda ki, Kənd Təsərrüfatı Nazirliyi rəsmisi deyir ki, qadağan deyil, əlbəttə ki, vəziyyət belə də davam edəcək. Ən yaxşı halda 1-2 kiloqram sənədi olan ət alıb qabırğasına 3-5 manatlıq əti vurub tökürlər qazana. Farşa çevirib satırlar.

***- Azərbaycanda it, at, eşşək, digər murdar ətləri dana, mal, qoyun-quzu ətindən ayıra bilər, fərqləndirən avadanlıq, ekspertiza varmı?***

- Standartlaşma Agentliyində, Dövlət Baytarlıq Xidmətində belə ekspertizaların keçirilməsi üçün avadanlıq var. Hətta murdar əti qaydalara uyğun kəsilmiş ətdən ayıra bilən avadanlıqlar var. Bu gün bizlər əlində bu qədər avadanlığı olan məmurların biganəliyinə şahidlik edirik.

***- Durumu dəyişmək üçün nə etmək lazımdır?***

- Bu ilin fevralında prezident Qida Təhlükəsizliyi Agentliyinin yaradılması üçün fərman imzalayıb. 2018-ci ildən agentlik fəaliyyətə başlayacaq. Bu agentliyə ümidlər böyük olsa da, digər dövlət qurumları kimi hərəkətsizlik edəcəklərsə, vəziyyət dəyişməyəcək. Mən sözügedən agentliyin yaradılması üçün çağırılan işçi qrupunun rəhbəri Əli Əhmədova rəsmi məktubla müraciət etmişəm. Azad İstehlakçılar Birliyi olaraq bu məsələlərin həlli, aradan qaldırılması üçün təkliflərimiz var. Bu gün Azərbaycan vətəndaşlarının təhlükəli qida ilə qidalanmasının doğurduğu nəticəni bizlər apteklərdə görə bilərik. Adamlar qidalardan tapdıqları ən müxtəlif xəstəliklərdən əziyyət çəkirlər. Özləri də bunun fərqində deyillər. Bunlar hamısı təhlükəli qidaların fəsadlarıdır. Böyük Hippokrat deyirdi ki, "biz nə yeyiriksə, oyuq".

***- Murdar ətlərin satıldığı ünvanlardan bir neçəsini sadalaya bilərsiz?***

- Murdar ətlərin daimi ünvanları "Təzə bazar"ın alt qapısı, 4-cü mikrorayonda ət bazarı, 3-cü mikrorayon bazarı, 8-ci kilometr bazarının həndəvəri. Belə ətlərin ticarəti əsasən gecələr baş tutur. Murdar ətləri nisbətən sağlam ətlərin arasına qatıb satırlar. Çünki nəzarətsizlikdir, baytarlara da inam yoxdur.

❑ **E.MƏMMƏDƏLİYEV**

**"1963-cü ildə SSRİ-nin 15 respublikasında istifadə edilən ətlərin preskurantı hazırlanıb. Həmin sənədə yalnız Azərbaycan Respublikasında eşşək ətinin yeyilən ət kimi salınıb. Digər respublikalarda isə eşşək əti yeyilməyən ət statusunda saxlanıb. Həmin sənəd bu günə qədər etibarsız hesab edilməyib"**

## Xaricə daha çox spirtli içki satırıq



**Bu ilin yanvar-mart aylarında Azərbaycandan xaricə 5.727 mln. ABŞ dolları dəyərində spirtli və spirtsiz içki ixrac edilib.**

Dövlət Gömrük Komitəsindən (DGK) "Report" a verilən məlumata görə, bu, 2016-cı ilin eyni dövrü ilə müqayisədə 3,215 mln. dollar və yaxud 2,3 dəfə çoxdur.

Hesabat dövründə spirtli və spirtsiz içkilərin ixracı ümumi ixracın 0,2%-ni təşkil edib.

3 ay ərzində Azərbaycana idxal edilmiş spirtli və spirtsiz içkilərin dəyəri isə 10,311 mln. dollar olub. Bu isə 1 il əvvələ nisbətən 4,18 mln. dollar və yaxud 68,2% çoxdur.

Bu məhsulların idxalı ölkənin ümumi idxalında 0,7%-lik paya malik olub.

YENİ MÜSAVAT
N 79 (6693) 17 aprel 2017




# "Fitch"in Azərbaycanı krizisdən çıxara biləcək rəqəmi: 66 dollar...

## İlham Şaban: "Bu il neftin qiyməti 66 dollar olsaydı, Azərbaycan iqtisadiyyatı özünü komfortlu hiss edə bilərdi, amma..."

**"Dünya bazarında neft 66 dollar olarsa, Azərbaycan büdcəsində defisit yaranmaz". Bu proqnozlar "Fitch" beynəlxalq reytinq agentliyinin hesabatında açıqlanıb. Açıqlamada neft hasil edən ölkələrin dövlət büdcələrinin balanslaşdırılması üçün neftin qiymətinin nə qədər olmasını müəyyənləşdirib.**

Agentlik hazırladığı siyahıda neftin orta qiymətini 52,5 dollardan götürüb. "Fitch"in müəyyənləşdirdiyi qiymət daha çox Küveytlə Qətərə sərf edib. Belə ki, neftin qiymətinin 51-52 dollar arasında dəyişməsi bu ölkələrə öz xərclərini qarşılamağa imkan verir. Hazırda ən pis situasiya Nigeriyadadır. Öz büdcəsini balanslaşdırmaqdan ötrü Nigeriya neftini 139 dollara satmalıdır.

**"Fitch"in dövlətlərin büdcəsində defisit yaranmaması ilə əlaqədar olaraq hər ölkə üçün müəyyənləşdirdiyi neft qiymətlər isə belədir:** "Nigeriya - 139 dollar, Anqola - 84 dollar, Oman - 82 dollar, Səudiyyə Ərəbistanı - 75 dollar, Rusiya - 74 dollar, Qazaxıstan - 72 dollar, Qabon - 71 dollar, Azərbaycan - 66 dollar, İraq - 66 dollar, Birləşmiş Ərəb Əmirlikləri - 61 dollar, Konqo - 60 dollar, Qətər - 52 dollar, Bəhreyn - 51 dollar, Küveyt - 45 dollar.

**"Yeni Müsavat"a açıqlamasında beynəlxalq agentliyin hesabatını dəyərləndirən Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, neftin bu qiymətini Azərbaycan ən tez 2019-cu ildə görə bilər:** "Bir sıra beynəlxalq agentliklər dünya bazarında neftin qiymətinin 2019-cu ildə 65 dollar olacağını proqnozlaşdırırlar. Azərbaycan iqtisadiyyatının neftin 66 dollar qiymətində özünü daha komfortlu hiss etməsinə gəlincə, bu cari il üçün nəzərdə tutulub. 2017-ci ildə Azərbaycan hökuməti 40 milyon ton hasil etməyi proqnozlaşdırır. Bu il neftin orta ixrac qiyməti 66 dollar olsaydı, Azərbaycan iqtisadiyyatı özünü komfortlu hiss edə bilərdi. Bu o deməkdir ki, əmək haqları 10 faiz artardı. Hökumət özünü 2014-cü ildə olduğu kimi apara bilərdi, sosial öhdəliklərini, maliyyə vəziyyətini düzəldə bilərdi, pul kütləsini artıra bilərdi və bunun nəticəsində əhalinin alıcılıq qabiliyyəti düzələrdi. Hazırda yaşanan pul qıtlığı, bankların pul-kredit siyasətində canlanma yaranardı. Böhranlı vəziyyəti aradan qaldırıb, əksər bankların cəmiyyətə açıqlanmayan ziyanlarını ödəmək olardı, maliyyə vəziyyəti düzələrdi. İpoteka kreditləri verilməyə başlayar, tikinti sektorunda canlanma yaranar, alıcılıq qabiliyyəti artardı. Bir -birinə bağlı sistemlərlə iqtisadiyyatda canlanma olar".

**İqtisadçının fikrincə, qiymətlər 66 dollar həddinə qalxanadək hasilat indikindən 2 milyon ton az olacaq və bu səbəbdən gəlirlərdə ciddi artım olmayacaq:** "Biz 2019-cu ildə neftin qiymətinin 65 dollar olacağını gözləsək, o zaman hasilat 2016-cı ilə müqayisədə 2 milyon ton azalacaq. Neftin qiyməti 10 dollar qalxsa da, hasilat 2 milyon ton azalacaq. Bu 15 min bareldən artıq neft deməkdir. Bu isə dövlət Neft Fonduna gələn vəsaitin azalması deməkdir. Əgər 2016-cı ildə Azəri-Çıraq-Günəşli-dən 5,1 milyard dollar, ümumilikdə isə 5,8 milyard dollar gəlir əldə edilmişdisə, 2019-cu ildə 6 milyard olar. Hər hansı böyük dəyişiklik baş vermir. Neft qiymətinin artması baş versə də, hasilatın azalması hesabına neftin gələn qazancın artmasına gətirib çıxartmır.

İ.Şabanın sözlərinə görə, neftin hazırki qiyməti ilə bu ilin büdcəsində defisit yaranmayacaq: " Çünki büdcədə neftin qiyməti 40 dollar götürülüb. Bu il üçün neftin orta ixrac qiyməti 50 dollardan yuxarı proqnoz edilir. 40 dollarla 50 dollar arasında 20 faiz fərq var və o yaranacaq defisiti örtməyə kifayət edir. Lakin pul kütləsinin azalmasını da nəzərə almaq lazımdır. Bu ilin birinci rübündə ötən ilin birinci rübü ilə müqayisədə pul kütləsi 7,5 faiz azalıb. Azərbaycanda pul kütləsinin maksimum həddi 2014-cü ilin iyul ayında olub, 11, 44 milyard manat. İndi isə 7 milyard manatdan bir qədər artıqdır. Fərq isə təxminən 4 milyarddır. Görün nə qədər pul kütləsi azalıb. Bu nə deməkdir? İnsanların ölkə daxilində alış-veriş imkanı azalıb. İstər hüquqi şəxsin, istərsə də fiziki şəxsin hesabında pul olmalıdır ki, o alış -veriş etsin. Bu mənada defisitin heç bir əhəmiyyəti yoxdur. Problem odur ki, getdikcə pul kütləsi azalır".

❑ **Nərgiz LİFTİYEVA**

# Meyvə-tərəvəz ixracı 73 faiz artıb: daxili bazarda isə qıtlıq və bahalıqdır

## Müxbirimiz paytaxt bazarlarında yerli məhsulların qıtlığının və baha olmasının səbəblərini araşdırıb









**Son zamanlarda bazarlarda meyvə-tərəvəzin bahalaşmasının əsas səbəbi bəlli olub. Dövlət Gömrük Komitəsinin son açıqlamasından məlum olub, Azərbaycanın xarici ölkələrə meyvə-tərəvəz ixracı 73 faiz artıb.**

Hesabatda deyilir ki, 2017-ci ilin birinci rübündə Azərbaycanın xarici ticarət əməliyyatları nəticəsində yaranan müsbət saldonun həcmi 1 milyard dolları ötüb. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, birinci rübdə xarici ticarət dövriyyəsi 4,119 milyard dollar, o cümlədən ixrac 2,606 milyard dollar, idxal 1,512 milyard dollar olub. Nəticədə birinci rübdə 1,093 milyard dollar müsbət saldo, yəni xarici ticarət gəliri yaranıb.

Diqqət çəkən məqamlardan biri də Azərbaycanın ixracında meyvə-tərəvəzin payı 2,13 faiz olub. Cari ilin əvvəlində 55,4 milyon dollar dəyərində 55,585 min ton meyvə-tərəvəz satılıb. 2016-cı ilin birinci rübü ilə müqayisə etdikdə meyvə-tərəvəz satışının miqdarının 72,9 faiz, dəyərinin 28 faiz artdığını görürük.

Bu isə o deməkdir ki, əvvəllər Azərbaycanın daxili bazarına daşınan meyvə-tərəvəz indi ixraca yönəldilib. Məhz bu səbəbdən bazarda yerli məhsullar gündən-günə qəhətə çıxır, qiymətləri bahalaşır.

**"Yeni Müsavat"ın müxbiri kənd təsərrüfatı məhsullarının hazırki qiymətini öyrənmək üçün paytaxt bazarlarına baş çəkib.** Məlum olub ki, qiymətlərdə heqiqətən də hiss olunacaq dərəcədə artım var. Satıcıların əksəriyyəti bunu mövsümi amillərlə, eləcə də ötən ildən qalan məhsulların tükənməsi ilə əlaqələndirsələr də, ixrac faktorunun rol oynadığını təsdiqləyənlər də olub.

Qiymətlərə gəlincə, ən çox xiyar-pomidor kimi tərəvəz məhsullarında bahalaşma hiss olunur. Belə ki, istixanalarda yetişdirilən yerli pomidorun 1 kiloqramı 3-4 manat arasında dəyişir. Xiyarın qiyməti isə 1.50-2 manat arasındadır. Qeyd edək ki, ixracın az olduğu vaxtlarda bu məhsulları bazarda 1.50 manat civarında almaq mümkün idi.

Azərbaycan xalqının gündəlik ərzaq səbətindən ən çox istifadə olunan kartofun qiyməti çox bahalaşıb. Gədəbəy kartofunun 1 kq-ı 1.20 manata qalxıb. Qiyməti baha olsa belə, bazarda yerli kartof tapmaq müşkül məsələyə çevrilib. Topdansatış bölməsində əsasən Gürcüstandan, Rusiyadan, Ukraynadan gətirilən kartof növləri üstünlük təşkil edir. Onların qiyməti isə bir müddət öncə 50-60 qəpiyə idisə, indi 80 qəpik təşkil edir.

Əvvəllər 4-5 kiloqramı 1 manata satılan soğan da bahalaşıb. Hazırda 40-50 qəpik arasında dəyişir. Tərəvəzlərdən kök bahalaşıb, 70-80 qəpiyə təklif olunan bu tərəvəz indi bazarlara 1.50 manatdır. Gül kələmi və balqabağın qiyməti 2.50 manatdır. Mövsümündə kiloqramı 20 qəpiyə təklif olunan balqabaq indi 1 manata qalxıb. Bir müddətdir 7-9 qəpiyə satılan fabrik yumurtası isə yenidən iki dəfə bahalaşaraq, 14 qəpiyə qalxıb. Meyvələrdə də qiymət artımı müşahidə olunur. Almanın kiloqramı 1 manatdan başlayır və 2.50 manata kimi qalxır. Bazarda kiloqramı 50-60 qəpiyə satılan almaya da rast gəlmək olar, lakin keyfiyyət baxımından həmin məhsullar geridə qalır. Azərbaycanın məşhur "qızıl əhməd" alması ananasın qiymətinə yaxınlaşıb. 1 kiloqramı 4 manata təklif olunur. Bananın bahalaşması da hər kəsə bəllidir, ən ucuz topdansatış mağazalarında 1 kiloqramı 3.50 manata, marketlərdə isə 4 manata təklif olunur.

Sitrus meyvələri çox bahalaşıb. Portağal və narıngi 2.50 manata qalxıb. Ötən ildən saxlanılan armudun və narın kiloqramı 4-5 manatdır. Qiymət artımı marketlərdə də müşahidə olunur.

**Bəs, görəsən daxili bazarın yerli məhsullarla tam təmin olunmadığı halda idxalın qısa müddətdə 73 faiz artırılması nə dərəcədə doğru addımdır?**

Kənd təsərrüfatı üzrə ekspert, iqtisad elmləri doktoru Müslüm İbrahimov bildirdi ki, məhsulun daxili bazara yönəldilməsini və ya ixrac edilməsini istehsalçı diktə edir: "Azərbaycan məhsullarına dünya bazarında böyük tələbat var, ona görə də ixrac artır. Bu müsbət hal olsa, da daxili bazarda qiymət artımına səbəb olur. Yaxınlıqda Rusiya kimi böyük bir bazar olan yerdə istehsalçı təbii ki, məhsulunu orada satmağa meylli olacaq. Çünki böyük bazarlarda tələbat çoxdur və qiymətlər də daha bahadır.

Böyük bazarlarda olan qiymət kiçik bazarları olan ixracatçı ölkələrin bazarlarında da qiymətlərə təsir edir. İndiki halda, Azərbaycan kiçik bazarı olan ixracatçı ölkədir. Azərbaycanlı fermerlər məhsullarını daha çox böyük bazarlara , məsələn, Rusiyaya aparır və qiymətlər orada formalaşır. Sonra fermer məhsulunu orada sata bilməyəndə və ya daxili bazara yönələndə, əvvəlki gəlirini itirməmək üçün qiyməti qaldırır. Ona görə daxili bazarda bu qiymət formalaşır. Bu qiymətləri süni qaydada tənzimləmək çox çətindir".

**İqtisadçı ekspert Ruslan Atakişiyev də "Yeni Müsavat"a danışarkən bildirdi ki, məhsulların xarici bazarlara çıxarılmasının əsas səbəbi hazırki dövrdə onların maya dəyərinin yüksək olması və daxili bazarda alıcılıq qabiliyyətinin zəif olmasıdır:** "Ötən ilin birinci rübü ilə bu ilin birinci rübünün iqtisadi nəticələrini müqayisə etsək, ölkədə kənd təsərrüfatı məhsullarının qıtlığı yaşanır. Fərdi təsərrüfatlarda, ailə təsərrüfatlarında məhsul istehsalı azalıb. Hazırda satışa çıxarılan məhsullar yayda dərilib anbarlarda saxlanılan və hazırda istixanalarda yetişdirilən məhsullardır. Həmin məhsulların maya dəyəri baha olduğuna görə təsərrüfat sahibləri onları daxili bazarda reallaşdırmağa maraqlı olmurlar. Bu məhsulların istehsalı və saxlanılması baha başa gəldiyinə görə baha satmağa məcbur olurlar. Bu mənada həmin məhsulları Rusiyaya və digər ölkələrə ixrac etməyə çalışırlar. Çünki baha məhsulu daxili bazarda geniş kütlə ala bilmir, alıcılıq zəif olduğundan fermer xaric ixrac etməkdə maraqlı olur. Ancaq havaların istiləşməsi ilə bağlı yayda tərəvəz məhsulları istixanalarda yox, təbii şəraitdə becərilir və bu mənada ucuz olur. Həm məhsulun maya dəyəri aşağı olur, həm də bazara ucuz çıxarılır. O zaman daxili bazarda da alıcılıq yüksəlir. Hazırda hava şəraiti ilə əlaqədar olaraq maya dəyəri yüksək olan məhsulların qiymətləri bahadır. Bu bahalı məhsullara daxili bazarda tələbat az olduğuna görə , fermerlər xarici bazarlara çıxartmağa çalışırlar".

❑ **Nərgiz LİFTİYEVA**
❑ **Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 79 (6693) 17 aprel 2017

**1990-cı illərin əvvəllərində ermənilər Qarabağda bir-birinin ardınca Azərbaycan kəndlərini və şəhərlərini işğal edəndə, dinc əhaliyə qarşı qətliamlar törədəndə Türkiyənin Bakıya hərbi yardım göstərməməsinin səbəbi prezident Turqut Özalla baş nazir Süleyman Dəmirəl arasında çəkişmələr olub.**

# Dəmirəllə bağlı Pənah Hüseynin açıqladığı sirlər...

## "Qarabağla bağlı plan Türkiyə baş naziri Dəmirəllə müzakirə edilib, lakin Dəmirəl "ruslarla razılaşmaq lazımdır" deyərək bu plana qarşı çıxıb"



Bu haqda Türkiyənin ahaber.com saytı (eyni adlı telekanalın saytı-red.) yazıb.

Sayt qeyd edib ki, 1992-ci ildə yenidən siyasət səhnəsinə qayıdan Süleyman Dəmirəl seçkilərdəki ən böyük rəqibi Turqut Özala qarşı intriqa aparırdı. Onların arasındakı çəkişmələr üzündən iqtisadiyyata dair kritik qərarlar verilməyib, təyinatlar gecikdirilib, ölkənin maliyyə sistemi çöküb.

Sayt sonra yazır ki, 8-ci prezident Turqut Özalla baş nazir Dəmirəl arasında çəkişmələr Azərbaycan və Ermənistan arasında müharibə zamanı da özünü göstərib. Özalın bütün səylərinə baxmayaraq, Dəmirəl Azərbaycana dəstək verilməsinə əngəl olub, nəticədə, minlərlə azərbaycanlı ermənilər tərəfindən qətl edilib. Ermənistan qətliamların ardınca Qarabağı işğal edib.

Qeyd edək ki, Turqut Özalın prezidentliyi ilə Süleyman Dəmirəlin baş nazir olduğu dövr Qarabağ müharibəsinin ən dəhşətli zamanı idi. Həmin dövrdə Azərbaycanda hakimiyyətdə AXC, prezident Əbülfəz Elçibəy idi. Elçibəyin Turqut Özalla daha yaxın dostluq münasibətlərinin olması heç kəsə sirr deyil. Süleyman Dəmirəllə münasibətlər isə heç də dostluq münasibətləri adlandırılacaq səviyyədə olmayıb...

Elçibəy hakimiyyətinin baş naziri olmuş Pənah Hüseynlə əlaqə saxlayıb "Turqut Özalla baş nazir Dəmirəl arasında çəkişmələr Azərbaycan və Ermənistan arasında müharibə zamanı da özünü göstərib. Özalın bütün səylərinə baxmayaraq, Dəmirəl Azərbaycana dəstək verilməsinə əngəl olub" iddialarının nə dərəcədə doğru olub-olmadığını soruşduq. Pənah Hüseyn bildirdi ki, əslində bu suala cavabı onun 4 iyul 2014-cü ildə "Yeni Müsavat" qəzetinə verdiyi müsahibədə tapmaq olar. O, indi əlavə hər hansı bir fikir bildirmək istəmədiyini dedi.

Biz də həmin arxivdən həmin müsahibəni tapdıq və bir daha diqqətlə tanış olduq. Müsahibədə P.Hüseynin dediklərindən belə bir qənaətə gəlmək olur ki, həqiqətən də Dağlıq Qarabağ müharibəsində Azərbaycanın xeyrinə işləyəcək çox ciddi bir plan olub. Lakin Türkiyəni bu planı həyata keçirməyə dəstək verməkdən yayındıran hadisələr, güclər olub. Turqut Özalın qəfil ölümü planın həyata keçirilməsinin qarşısını alıb.

Pənah Hüseyn bildirib ki, o dövrdə Qarabağ müharibəsi, Ermənistanın işğalının nəticələrinin aradan qaldırılması üçün istər hərbçilər, istərsə də siyasətçilər tərəfindən müxtəlif layihələr təklif edilib, onların müzakirələri aparılıb. Naxçıvan istiqaməti bu layihələrdə daim yer alıb: "Səbəbi də aydın idi. Bir tərəfdən Naxçıvan blokada vəziyyətində idi; ermənilərin əsas işğal hədəflərindən biri elan edilirdi və bu işğal təhdidi sadəcə bəyanatlarla müşayiət olunmurdu. 1990-cı ildən başlayaraq Naxçıvan şiddətli döyüşlərin getdiyi real müharibə cəbhələrindən biri idi. Naxçıvan blokada vəziyyətində idi və bu blokadanın aradan qaldırılmasının təbii yolu bir çoxlarına Zəngəzurun, Mehri dəhlizinin hərbi yolla azad olunması kimi görünürdü. İndiki terminologiyadan istifadə etsək, hesab edilirdi ki, bu bir növ humanitar əməliyyat kimi dünya tərəfindən başa düşülə bilər. Geosiyasi amillər, daha dəqiqi, Türkiyə amili bu variantı çox cəlbedici edirdi. Hesab edilirdi ki, bir halda ki, Rusiya açıq-aydın Ermənistana kömək edir; bu halda Türkiyənin Azərbaycan tərəfindən probleme müdaxiləsi Naxçıvandan başlaya bilər. Çünki SSRİ və Türkiyə arasındakı Qars müqaviləsinə görə Türkiyə Naxçıvanın təhlükəsizliyi üçün təminatçı idi. Türkiyənin müdaxilə məsələsi elə də xəyal deyildi. Bir sıra hərbçilər əsaslandırırdılar ki, sırf hərbi baxımdan yalnız cəbhə xəttinin genişləndirilməsi və əməliyyatların Ermənistan ərazisində keçirilməsi təcavüzkarın qüvvələrinin parçalanmasına, Qarabağdan bəzi qüvvələrin Ermənistana aparılmasına səbəb ola və nəticə etibarı ilə onları sülhə məcbur edə bilər".



P.Hüseynin sözlərinə görə, Mehri dəhlizinin azad edilməsi məqsədilə Naxçıvan və Zəngilan istiqamətindən eyni zamanda hücum edilməsi məsələsi aktual olaraq gündəmə Kəlbəcərin işğalı zamanı gətirilib: "Fəlakətli vəziyyət yaranmışdı və Kəlbəcərin işğalından başqa, Gəncə təhlükəyə düşmüşdü. Hətta Ermənilərin rus qoşunlarının köməyi ilə Bakı-Tiflis xəttinə çıxması təhlükəsi vardı. Martın ortalarında Bakı - Ceyhan neft kəməri haqqında İstanbulda dövlətlərarası saziş imzalanmışdı və belə halda bu layihə, bütövlükdə yekunlaşmaqda olan neft müqavilələri təhlükəyə düşürdü. Odur ki, problem ətrafında o vaxta qədər olmayan dərəcədə geosiyasi canlanma və gərginlik yaranmışdı. Vəziyyətdən çıxış yolu kimi biz yuxarıda adıçəkilən planı gündəmə gətirdik. Plan barədə o vaxt Azərbaycanda olmaları gizli olmayan türk hərbi məsləhətçilərinin də məlumatı vardı. Aprelin 7- si və 8- də o vaxt Orta Asiyada səfərdə olan Türkiyə prezidenti Turqut Özalın məşhur bəyanatı səsləndi. Bu, belə idi: "Əgər türk diviziyaları Ermənistan sərhədində təlimlərə başlasalar və bu zaman mərmilər Ermənistana düşsə nə olar?!" Aprelin 7- 8 də mən Ankarada oldum. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Doğan Güreş və Qərargah heyəti , Türkiyə baş naziri və digər hökumət nümayəndələri ilə bu məsələlərin konkret müzakirəsi aparıldı. Habelə Turqut Özalın Orta Asiya səfərini yekunlaşdırıb Bakıya gəlməsi zamanı bu məsələlər prezidentlər arasında müzakirə edildi. Bizim əsas arqumentlərimizdən biri ondan ibarət idi ki, Türkiyənin məsələyə birbaşa müdaxiləsi və bu zaman Rusiya ilə gözlənilən qarşıdurma problemin masştabını daha da genişləndirir və böyük ehtimalla, ciddi regional sarsıntı, genişmiqyaslı müharibə olmadan da məsələnin nizamlanmasına səbəb olardı. Aprelin 12- də mən yenə bu məsələlərlə bağlı Tehranda oldum və prezidentin müraciətlərini İran rəhbərliyinə çatdırdım. O vaxt Naxçıvan əməliyyatı planı hərbi baxımdan reallaşma mərhələsinə keçmədi. Bir çox səbəbləri var... Turqut Özal vəfat etdi, prezident Süleyman Dəmirəl oldu, Azərbaycanda isə çevriliş həyata keçirildi".

Xatırladaq ki, Pənah Hüseynin yazılarında və müsahibələrində bir neçə dəfə qeyd edilib ki, yuxarıda haqqında söhbət açılan plan onun iştirakı ilə 1993-cü il aprelin 7-8 də Türkiyə Silahlı Qüvvələri Genəl Qurmayında və o vaxt Türkiyə Baş Naziri Süleyman Dəmirəllə müzakirə edilib. Lakin Süleyman Dəmirəl "Ruslarla razılaşmaq lazımdır" deyərək bu plana qarşı çıxıb.

**❑ Etibar SEYİDAĞA**

# Azadlıq Radiosunun rəhbərliyi hakimiyyəti tənqid etdi-fərqli reaksiyalar

**Azərbaycanın aparıcı internet-provayderi ölkənin əsas müstəqil informasiya mənbələrindən birinin - "Azadlıq Radiosu"nun ("Azadlıq Radiosu"nun Azərbaycan Xidməti) saytına girişi əngəlləyir. Bu barədə "Azad Avropa / Azadlıq Radiosu" korporasiyasının bəyanatında deyilir. Contact.az məlumatı yayıb.**

"Hesab etmək lazımdır ki, provayder - "Delta Telecom" şirkəti martın 27-dən saytı bağlamağa başlayıb. "Freedom House" təşkilatının məlumatına görə, Azərbaycan hökumətindən lisenziyası olan "Delta Telecom" şirkəti ölkənin iki əsas internet tədarükçüsündən biridir", deyə bəyanatda bildirilir.

Sənəddə həmçinin qeyd edilib ki, digər müstəqil KİV-lər - "Meydan TV" və "Azadlıq" qəzeti də eyni problemlə qarşılaşır.



**Mehman Əliyev:** "Həqiqətləri xalqın bilməsindən daha çox qorxurlar, nəinki Amerikadan"



**Fərəc Quliyev:** "Hesab etmirəm ki, bir saytın fəaliyyətinə bu qədər önəm verilsin"

"Azad Avropa / Azadlıq Radiosu" korporasiyasının prezidenti Tomas Kent bunu pisləyərək, onları alternativ informasiyanın yerli auditoriyaya çatdırılmasını əngəlləmək məqsədilə Azərbaycan hökumətinin açıq-aşkar sui-istifadəsi kimi qiymətləndirib.

Bəyanatda həmçinin qeyd edilir ki, "Freedom House"un söz azadlığı sahəsində vəziyyət haqqında hesabatına əsasən, Azərbaycan jurnalistlərin daim dövlət məmurları tərəfindən təqiblərə məruz qaldığı qeyri-azad ölkələr kateqoriyasına daxil edilib.

"Azadlıq Radiosu" Praqadakı veb-saytından məlumatları yaymağa, rəsmi mətbuatın mühüm alternativi olaraq qalmağa davam edir.

Bir müddət əvvəl Azərbaycan hakimiyyəti sözügedən internet-resurslardan istifadədə hər hansı problemlərin yaranmasını inkar edib.

Bəyanatın ardından Azadlıq Radiosunun ABŞ Konqresi tərəfindən maliyyələşdirildiyini önə çəkərək, Azərbaycan-Amerika münasibətlərinin pisləşə biləcəyi ilə bağlı fikirlər səslənməyə başlayıb. Azərbaycan hökumətinin bir saytın fonunda Amerika ilə münasibətlərin soyuqlaşma ehtimallarından ehtiyat etməməsi ciddi şəkildə müzakirə edilir. İqtidarın nə üçün belə etdiyi suallar doğurur. Sanki Azərbaycan tərəfi dirəniş göstərməklə hər şeyi gözə almış durumda görünür.

"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev bildirdi ki, Azərbaycan hakimiyyəti Amerikadan deyil, həqiqətdən qorxur: "Ölkəmizdə medianın vəziyyətinə baxsaq, görərik ki, media tam nəzarət altındadır. Azərbaycan hakimiyyəti müstəqil medianın mövcudluğunda maraqlı deyil. Həqiqətlər ört-basdır edilir. Alternativ fikirlər ölkə daxilində kifayət qədər az qalıb. Azərbaycanda informasiyaların yayılmaması iqtidar üçün çox vacibdir, hətta Amerika ilə münasibətlərdən belə üstündür. Çünki həqiqətləri bilən insanların baxışları dəyişir. Düzgün informasiyanın getməsindən hökumət o qədər narahatdır ki, hətta münasibətlərə xələl gəlməsindən belə çəkinmirlər. Xalqın özündən daha çox qorxurlar, nəinki Amerikadan".

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev hesab edir ki, belə problemlər asanlıqla aradan qaldırıla bilər: "Amerika ilə Azərbaycan strateji tərəfdaşdır. Nüvə məsələləri, terrora qarşı birgə mübarizə, narkobiznesə qarşı mübarizə və digər amillər hər iki dövlətin strateji tərəfdaş olduğunu göstərir. Həm də hər iki dövlət Avropanın enerji ilə təminatında yaxından iştirak edir. Əlaqələrlə bağlı siyahını uzatmaq mümkündür. Düşünürəm ki, son zamanlarda bölgədə gedən proseslərdə Azərbaycanın önəmi dəyərləndirilirsə, ölkəmiz mühüm dövlət sayılırsa, baxışlar dəyişməlidir. Azərbaycana ünvanlanan təbliğat vasitələri, həmçinin Azadlıq Radiosu fəaliyyətini bu istiqamətdə qurmalıdır. Azərbaycan cəmiyyətini, dövlətimizin dostlarını ölkə ətrafında birləşdirmək, düşmənlərimizi ifşa etmək fəaliyyəti ortada olmalıdır. Açığı, hesab etmirəm ki, bir saytın fəaliyyətinə bu qədər önəm verilsin, onun qarşısı alınsın. İnciklik ola bilər. Dövlətlər bayaq qeyd etdiyim məsələlər ətrafında razılaşmalıdırlar. Azərbaycan və Amerikadakı bəzi məmurlar qəbul edilmiş strateji tərəfdaşlıqdan kənarda fəaliyyət göstərir, özbaşınalıq edirlər. Fərqli bəyanatlar verilir. Ümumi yanaşmaya xələl gətirən məsələlər olmamalıdır".

**❑ Cavanşir ABBASLI**

# "Gedib odun gətirirdik, satıb birtəhər dolanırdıq"

## Vahid Əhmədov: "Ana babam Qaçaq Mayıl Məhəmməd Əmin Rəsulzadə ilə çox yaxın dost olub..."

"Baxış bucağı"

**Bu ay istiqlalçı deputat Vahid Əhmədovun 70 yaşı tamam oldu. Elə həmin ərəfədə ölkə prezidenti onu Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif etdi. Parlamentdəki aktivliyi, ölkənin iqtisadi durumu ilə bağlı operativ reaksiyaları ilə daim diqqət çəkən, hətta məmur-vətəndaş münasibətlərində gərginlik yaşananda məsələlərə müdaxilə edib sakitliyin yaranmasına nail olan Vahid Əhmədovun olduqca maraqlı keçmişi var. Yubiley söhbətimizdə bəzi məqamları bizimlə bölüşdü:**

***-Vahid müəllim, ömrün 70-də bir anlıq dayanıb geriyə baxmaq, ötənləri xatırlamaq imkanınız oldu, yoxsa son zamanların iqtisadi gərginlikləri buna da imkan vermədi?***

-70 elə yaş həddidir ki, artıq insan keçmişi haqqında fikirləşir, necə yaşadığını göz önünə gətirir. Ümumiyyətlə, mən köhnə həyatıma baxanda...Həmişə əmək fəaliyyəti ilə məşğul olmuşam. Lap orta məktəb illərindən. Biz ailədə 9 nəfər olmuşuq, çətin həyat sürmüşük. Mən bacı-qardaşların dördüncüsüyəm. Atam mühasib işləyirdi. Özümüz də məcbur idik ki, məktəbli olarkən də hansısa işlə məşğul olaq. Gedib odun gətirirdik, satıb birtəhər dolanırdıq. Sonra mən gəlib instituta daxil oldum. Amma gündüz oxumaq imkanım yox idi, çünki işləməliydim. 1967-ci ildə Leytenant Şmidt Zavodunda fəhləliyə başladım. Daha sonra isə sex rəisi, usta, istehsalat rəisi işlədim. Sonra isə "Radiozavod"a getdim, orda istehsalat rəisi kimi, Dəzgahqayırma Birliyində baş mühəndis, Bakı Fəhləsində direktor, daha sonra isə Keşlə Maşınqayırma Zavodunda direktor işlədim. Belə...

***- Direktorluğa, daha sonra deputatlığa aparan yol fəhləlikdən başlayıb...***

-Məni ilk dəfə vəzifəyə rəhmətlik Heydər Əliyev təyin edib. 1982-ci ildə, Moskvaya gedənə yaxın idi. O vaxt Mərkəzi Komitənin katibi var idi, əslən Tovuzdan idi. Məni dəvət edib Heydər Əliyevin yanına apardı. Mənə üç zavod təklif etdilər: Sərdarov zavodu, hərbi zavod və Bakı Fəhləsi. Mən Bakı Fəhləsi Zavodunu seçdim. Heydər Əliyev çağırdı, söhbət etdi, təyin etdi ora. Sonra da qismət elə gətirdi ki, 1985-ci ildə Heydər Əliyev Moskvada olanda SSRİ Ali Sovetinə deputatlığa namizədliyini bizim zavoddan verdi. O zaman Lenin rayonu adlanırdı. Onda da gəldi, biz üç saata yaxın bir yerdə olduq.

***- Sonra da siz özünüz deputat seçildiniz...***

- Mən 1990-95-ci illərdə, çox ağır illərdə deputat olmuşam, bir də 2005-ci ildən indiyə qədər...Aralıqda mən Azərbaycan Sənayeçilər və Sahibkarlar İttifaqının sədri kimi fəaliyyət göstərdim.

***- 43 yaşında mandat qazanmısınız. Bu təşəbbüs kimdən gəldi?***

- Heç kimdən. Özüm istədim. Keşlə Maşınqayırma Zavodunun direktoru işləyirdim. Onda da Azərbaycanda demokratik qüvvələr fəaliyyət göstərirdi. Yadımdadır, rəqibim rəhmətlik Sirus Təbrizli idi. Münasibətimiz də yaxşı idi. Dedim kim seçilər, seçilər. Sonra elə oldu ki, mən seçildim.

***- Sizi təbrik elədi?***

- Hə, təbrik elədi. Görüşürdük. Allah rəhmət eləsin, yaxşı kişi idi. O da demokratik fikirli insan idi.

***- Siz həm də hökumətə rəhbərlik edən şəxslərdən biri olmusunuz...***

- Mən baş nazirin birinci müavini işləyəndə çox ağır illər idi. İndi deyirlər ki, işləyirik...İndi işləməyə nə var ki... Baş nazir işləmək də rahatdır, çünki vəsait problemi yoxdur.

***- O zaman Azərbaycanın ehtiyatı nə qədər idi?***

- Biz təyin olunanda ümumiyyətlə, pul yox idi. Hətta taxıl almağa pul tapa bilmirdik. Düzdür, rəhmətlik Əbülfəz Elçibəy və Pənah Hüseynlə o vaxt Türkiyəyə getdik, görüşlər keçirdik, müəyyən qədər kredit götürdük. Amma oradan taxıl gətirmək problem idi, çünki Batumidə müəyyən hissəsini Gürcüstan götürürdü. Gürcüstan da pis vəziyyətdə olduğu üçün bizim taxıldan onlar da istifadə edirdi. Həmçinin müəyyən hissəsini Naxçıvana verirdik, Heydər Əliyevlə mütəmadi danışıqlarımız olurdu. O vaxt Əbülfəz Elçibəy göstəriş verdi, mən Moskvaya getdim. Yeltsin, Rutskoy, Çernomırdinlə görüşlər keçirdim, 7 milyard kredit götürdüm. Adamın üstündə Allah var, ruslar bizə kömək etdilər. Yeltsin baş nazir Çernomırdinə tapşırdı, kömək olundu. Onun Elçibəylə də münasibəti var idi. Həmçinin bizim ordakı azərbaycanlılar da mənə kömək etdilər. Bundan sonra Qazaxıstandan taxıl gətirməyə başladıq.

***- Vahid müəllim, Qubaya çox bağlı insansınız...***

- Mən təkcə Qubaya yox, bölgəyə çox bağlıyam. Ana tərəfim çox məşhur Qaçaq Mayıl nəslidir. O vaxt daşnaklara qarşı vuruşublar, tarixi kitablarda da var. Qubada Təngə dərəsi var, orada ermənilərlə vuruşublar. Qaçaq Mayıl Məhəmməd Əmin Rəsulzadə ilə çox yaxın dost olub. Hətta Rəsulzadə müəyyən müddət onun evində, Qonaqkənddən yuxarı bir kənd var - Qaraulüstü orada yaşayıb. Həm də babam o vaxtlar kəndxuda olub. Dediyim kimi, tək Qubaya yox, bütün bu zonaya bağlıyam. Dəvəçi, Siyəzən, Qusarda, ümumiyyətlə, hər yerdə mənim dostlarım var. Özü də mən Qubada qəbul aparanda fərq qoymuram ki, kim hardan gəlir, hamını qəbul edirəm. Son on ildə mən hədədən artıq çox məktub almışam. Azərbaycanın o rayonu yoxdur ki, ordan məktub gəlməsin. İmkan daxilində bacardığım köməkliyi edirəm.

***- Siz həyat və fəaliyyətiniz boyu bütün düşərgələr, iqtidarlarla normal münasibət saxlamağı bacaran nadir şəxslərdənsiniz. Hətta tənqid etdikləriniz də sizə simpatiya ilə yanaşıblar. Bunun sirri nədir?***

- Bugünkü hökumət üzvləri ilə də münasibətim yaxşıdır. Elə olmayıb ki, hansısa hökumət üzvünə, nazirə, yaxud baş nazirə müraciət edim, məsələ həll olunmasın. Tənqid deyəndə ki, biz tənqid edirik, çıxış yolu üçün təklif də veririk. Məsələn, devalvasiya prosesi gedəndə mən də, Əli Məsimli də çox ciddi narahat idik. Hər ikimiz hökumətdə işləmiş adamıq, ona görə hökuməti də yaxşı başa düşürük. Dollar kreditləri ilə bağlı məsələnin açıq qalması bu gün də bizi narahat edir. Əgər ölkənin birinci şəxsi deyirsə ki, bank sektoru sağlamlaşdırılmalıdır, bu həll olunmalıdır. Bunun da həll yolları var. Ola bilər bunun yollarını məndən yaxşı bilən də var, pis bilən də. Elə isə yığışıb bunu həll etmək nə problemdir?

***- Vahid müəllim, zaman-zaman həmkarlarınızdan müxtəlif postlara təyinatlar olub. Kifayət qədər təcrübəyə maliksiniz, vaxtaşırı çıxış yollarını da təqdim edirsiniz. Sizə hökumətdə təmsilçiliklə bağlı təkliflər olubmu bu illərdə?***

- Açığını deyim, təkliflər olan vaxtlar da olub, bununla bağlı elə bir problem yoxdur. İkincisi də mən millət vəkiliyəm, istənilən vaxt təkliflərimi verirəm, sözümü deyirəm. Amma əlbəttə, icra orqanları məsuliyyətli orqanlardır. Təyinat məsələsini isə cənab prezident müəyyən edir, bunu ikinci bir adam müəyyən etmir. Hara, kimi təyin etmək onun səlahiyyətidir. Mən özüm də vəzifə həvəskarı olmamışam. Həyatım boyu ya vəzifə tutmuşam, ya deputat olmuşam. Məni narahat edən bir məsələ var. Baxıram ki, bu dəqiqə hökumətin tərkibində müasir insanlar çoxdur. Bəli, gənclərə yer vermək lazımdır, amma təsərrüfatı bilən insanlar da lazımdır. Sizə bir misal çəkim: Cavid Qurbanov təsərrüfatda irəli gedən adamdır, bizim dostumuzdur, millət vəkilidir. O dəmir yoluna gələndən sonra gedin, baxın, görün nə qədər işlər görülüb. Faktiki dəmir yolunu nəqliyyat dəhlizinin avanqardına çevirdi. İndi diaqnostika ilə məşğuldur, Bakı-Qarsın açılışı nəzərdə tutulur, İran-Azərbaycan dəmir yolunu açdı, o tərəfdən Naxçıvanla İran arasında dəmir yolu açıldı. Yəni çox böyük işlər görür, çünki təsərrüfatı bilir. Təsərrüfatı bilmədən dövləti idarə etmək çox çətindir. Bu mənada təsərrüfatı bilənlərdən istifadə etmək lazımdır.



### "Cənab prezidentin ən çox xoşuma gələn prinsipi bilirsən nədir: o, həmişə çıxışının əvvəlində də, axırında da bütün siyasi-iqtisadi məsələləri Azərbaycanın müstəqilliyi ilə əlaqələndirir"

### "Mən o insanların çoxunun yerinə utanıram"

***- Belə görünür ki, siz özünüz də istənilən sahəni inkişaf etdirmək əzmindəsiniz. Məsuliyyətdən çəkinmirsiniz ki?***

- Mən işləyən adamam da. Hələ baş nazirin 1-ci müavini işləyəndə saat 8-də zavodlarda olurdum, gəzirdim, baxırdım, saat 9-da Nazirlər Kabinetində işə başlayırdım. Yəni biz işləyən adamlar olmuşuq, o vaxt iri zavodlara rəhbərlik etmək də asan deyildi. Bu gün Sumqayıtda, Mingəçevirdə böyük sənaye parkı tikirlər. İdxalı azaltmaq üçün bu sahəni inkişaf etdirmək çox mühümdür. Ölkədə neft maşınqayırmasını da inkişaf etdirmək lazımdır. Biz neft-qaz ixrac edən ölkəyik, bu avadanlığı həm xaricə sata, həm də daxili tələbatımızı ödəyə bilərik. Qeyri-neft sektoru ilə bağlı bir faktı xatırladım. Prezident İlham Əliyev uzaqgörən siyasətçidir. 2004-cü ildə "Gülüstan" sarayında Regionların İqtisadi İnkişafı Proqramı ilə bağlı çıxışında hökumət qarşısında iki məsələ qoydu: ərzaq təhlükəsizliyinin təmin edilməsi və qeyri-neft sektorunun inkişafı. O vaxtdan indiyə qədər, özü də kifayət qədər vəsaitin olduğu vaxt hökumət bu məsələlərlə ciddi məşğul olsaydı, indi Azərbaycanda heç bir problem olmazdı, qeyri-neft məhsullarını xaricə ixrac etmək imkanına malik idi.

***- Vahid müəllim, 70 yaşınız münasibətilə dövlət başçısı sizi "Şöhrət" ordeni ilə təltif etdi. Bir daha təbrik edirəm. Nədənsə yubiley tədbiri, təntənəli təqdimat olmadı. Özünüz istəmədiniz?***

- Çox sağ olun təbrikə görə. Amma onu mən müəyyən eləmirəm, özləri müəyyən edir. İkincisi də mən heç buna ehtiyac da görmürəm. Çünki biz işləyən adamlarıq, təsərrüfat adamlarıyıq. Deputat həmkarlarımla ad gününü keçirtdik.

***- Deyəsən, ilk yüksək təltifiniz idi...***

- Bundan əvvəl "Əməkdar mühəndis" adını almışam, fəxri fərmanlar olub.

***- Amma istiqlalçı deputat kimi "İstiqlal" ordenini də haqq edibsiniz. Elə deyilmi?***

- (gülür) Qismət Allahdandır. Allah dövlətimizi, millətimizi qorusun! Bu dəqiqə mənim üçün əsas prinsip Azərbaycanın müstəqilliyidir. Bunun əbədi olması üçün hər bir əzab-əziyyətə dözmək olar. Mən şadam ki, bizim gənclər bunu çox yaxşı başa düşürlər. Düzdür, biz sovet sistemində böyümüş insanlarıq, bizə birtəhər gəlirdi. Amma mən o mübarizədə qabaqda da olmasam, dostlarımla birgə proseslərin içərisində olmuşam. Azərbaycan müstəqilliyini əldə edib, bu, bizim üçün böyük nemətdir, onu qoruyub-saxlamaq lazımdır. Mənim cənab prezidentin ən çox xoşuma gələn prinsipi bilirsən nədir: o həmişə çıxışının əvvəlində də, axırında da bütün siyasi-iqtisadi məsələləri Azərbaycanın müstəqilliyi ilə əlaqələndirir. Bu, çox mühüm, çox əhəmiyyətli məsələdir. Digər məsələyə gəldikdə, bizim istiqlalçı deputatlarımız var, ola bilər müəyyən səhvlər olub. Amma onlar istiqlalçıdır. 1991-ci ilin 17 martında SSRİ-nin saxlanması ilə əlaqədar referendumun əleyhinə 43 nəfər səs verdi, biri də rəhmətlik Heydər Əliyev idi. İndi təsəvvür edin ki, o vaxt SSRİ qalaydı. Deməli, 43 nəfərin nəslindən bir nəfər də sağ qalmayacaqdı, hamısını məhv edəcəkdilər. Amma biz o vaxt bunu fikirləşmirdik, deyirdik Azərbaycan müstəqil olsun. Amma o vaxt Ali Sovetdə insanlar var idi ki, müstəqilliyin əleyhinə idilər, deyirdilər Azərbaycan müstəqil olsa, yaşaya bilməz və s. O insanlar indi də sağdılar, vəzifədə olanları da var. Amma mən o insanların çoxunun yerinə utanıram. Çünki Azərbaycanın müstəqilliyinin əleyhinə olan bu insanlar indi müstəqil dövləti təmsil edirlər. Ona görə mən istərdim ki, istiqlalçı deputatlar da öz zəhmətlərinin, əziyyətlərinin bəhrəsini görsünlər. Bunu çox arzulayıram. Yəqin gec-tez cənab prezident bunları da nəzərə alacaq...

❑ Elşad PAŞASOY



# Neandertallar klounu necə yedilər

Zamin HACI
zaminhaci@gmail.com

**Təzə bir elmi araşdırma çıxıb, sən demə, ulu babalarımızdan neandertallar hannibalizmlə məşğul olubdur. El dilində yazsaq, bir-birini basıb yeyirmişlər. Hətta neandertalların mətbuatı vaxtaşırı olaraq adam ətindən kolbasa hazırlanması haqda xəbərlər yayırmış. Kromanyonlar isə deyirmişlər ki, bəsdirin bir-birinizi yediniz, yoxsa sizi Avropa Şurasından çıxardarıq. Necə ki, elə axırda çıxardıblar - kromanyonlar neandertalların nəslini kəsiblər. Bir versiya da var: neandertalların evini elə hannibalizmdən yaranan xəstəliklər yıxıb.**

Zarafat bir yana, məni neandertalların bir-birini yeməsini öyrənməyim təəccübləndirmədi. Bu, adi bəşər tarixidir. İnsanın insanı öldürməsində təəccüblü heç nə yoxdur. Ümumiyyətlə, insan tək canlıdır ki, öz həmcinsini, o cümlədən başqa canlıları kef üçün öldürə bilir. Yəni, başqa heyvanlar ova ehtiyac üçün çıxırlar, normaları qədər əti əldə edib çəkilirlər. İnsan isə öldürmək xatirinə öldürür.

Elə neandertallar haqda bu təzə araşdırma da həmin "məntiqi" ortaya çıxarıbdır. Alimlər hesablayıb ki, bir orta yaşlı insanın sümük, dəri və ətində - hamısında bir yerdə 144 min kalori var. 25 nəfərlik neandertal ailəsi həmin 1 nəfəri yeməklə yalnız yarım günlük ehtiyacını qarşılaya bilərmiş. Bir mamontda isə 3 milyon yarım kalori olurmuş, bununla qəbilə 1 ay kef içində yaşayarmış.

Deməli, neandertalların öz qardaşlarını yeməsinin səbəbi aclığa bağlı deyil. Burda nəsə ritual, dini səbəb olması ehtimal edilir. Sözgəlişi, hazırda Yeni Qvineya adasında yaşayan və adam yeyən qəbilələr də bunu aclıq yox, ritual üçün edirlər.

Oxucular fikirləşə bilər ki, bu temanın bizə nə dəxli var, hazırda dərd-sərimiz ayrıdır. Millətin çoxu sosial yardım və pensiyalarını almaq uğrunda çarpışır, bir hissəsi guya Türkiyədəki referendumla maraqlanır, yerdə qalanları da əmisinə qoşulub qaçan qızın əhvalatını izləməkdədir. Bu dövriyyənin arasında isə xırda-para fərqli əhvalatlar da sayrışır. Misal üçün, kimsə it balasının vurub gözünü çıxardır. (Bu zaman it balası kimdir, bunu müəyyən etməyi oxucunun ixtiyarına buraxaq). Başqası ağacları kəsir, dövlət rəhbərliyi işə qarışandan sonra ədalət zəfər çalır və adamı cərimə edirlər.

Referendum demişkən, deyəsən ona bənzər bir şey keçən payız bizdə də olmuşdu. Ancaq heç biz öz referendumumuzu Türkiyədəki qədər müzakirə eləmədik. Bu, laqeydlikdən, senzuradan irəli gəlirmi? Yox. Sadəcə, biz planetar xalqıq. Dünyanın başqa yerlərindəki əhvalatlardan daha çox narahat oluruq. Əvvəl evin çölü, sonra içərisi - məşhur məsəlimizin yazıya yanlış alındığını güman edirəm.

Üstəlik, Türkiyənin indi yaşadığı "əvət, hayır" dilemmasını biz hələ 90-cı illərdə "Xalq hə deyir" aksioması şəklində yaşamışıq. Bunun özü də qürur vericidir ki, başqa xalqlar bizim 20 il qabaq keçdiyimiz yolu təkrar edirlər. Cığır açmaq, pioner olmaq, avanqardlıq belənçik şeydir. Ramiz Rövşənin bir şeirində deyilən kimi: "Hamı mənə tərəf gəlir, Mən durmuşam yerimdə". Hərçənd, biz də yerimizdə durmamışıq, hər gün yeni zəfərlər çalırıq, baş həkim söz verib ki, özümüzü yaxşı aparsaq, hələ hovuza su da buraxacaqdır.

Doğrudan da adam yemək söhbətinin bizə nə dəxli var idi, mən indi heç özüm də bilmirəm. Əslində nəyəsə dəxli olan yazılar yazmaq öhdəliyi də götürməmişəm. Yenə mən yazıb yorulmuşam, guya başqası gəlib yazsa nə olacaq? 92-93-də başqa yazanlar gəlmişdi, gördük də nə oldu. Gecələr yazı oxumaq olmurdu. Hərə o birisinin yazısını cırırdı, dəfələrlə küçədə qələmlə öldürülən müəlliflər və oxucular görürdük. Bundan sonra uca millətimiz baş müəllifi çağırdı, gəlib hamının yazısını birbaşa alnına yazdı, çıxdı getdi. O vaxtdan bu yazıya pozu yoxdur.

Sonda mövzuya uyğun bir lətifə.

Adamyeyənlər klounu tutub yeyirlər. Biri o birisinə deyir:

- Hə, necə idi?

O biri cavab verir:

- Qətiyyən gülməli deyildi.

# Düşmən və havadarına aprel işmarışı: ordumuz yeni silahlarla təlimə başladı




# Kremlin "Müharibə etmə!" mesajına Bakıdan kontur-cavab

## Döyüş şəraitinə maksimum yaxınlaşdırılmış 5 günlük hərbi təlimlərə yüzlərlə zirehli texnika və artilleriya qurğusu, aviasiya və başqa döyüş sistemləri, işğalçının qorxulu röyası olan kamikadze dronlar cəlb olunub; Ermənistan sonsuzadək Rusiyanın arxasında gizlənə biləcəkmi? Lavrovun Abxaziya səfərində "Qarabağ izi"...

**Ərazisinin 20%-i ermәni işğalı altında olan Azərbaycan öz Silahlı Qüvvələrini modernləşdirməkdə, hərbi və döyüş qabiliyyətini artırmaqda davam edir. Bu məqsədlə də ölkəmiz dost-müttəfiq dövlətlərlə - qardaş Türkiyə və Pakistanla, habelə strateji tərəfdaşımız İsraillə hərbi və hərbi-texniki sahələrdə uğurlu əməkdaşlıq qura bilib və bu əməkdaşlıq ilbəil genişlənməkdədir.**

Doğrudur, Azərbaycan işğalçı Ermənistanın müttəfiqi Rusiyadan da böyük həcmdə silahlar alıb və alır. Lakin bu, sırf silah ticarətidir. Yəni Moskva ölkəmizlə hansısa silahın birgə istehsalı üzrə əməkdaşlıq içində deyil, Rusiyanı belə bir şey maraqlandırmır da. Pakistan, İsrail və Türkiyənin dəstəyi ilə isə əksinə, Azərbaycan həm də öz ərazisində bəzi döyüş silahları və sistemlərinin, o sırada kamikadze-dronların istehsalı yönündə mühüm uğurlar əldə edib və bu sahəyə prioritet verməkdədir.

Ordumuzun hərbi qüdrətinin artırılmasında şübhəsiz ki, vaxtaşırı keçirilən hərbi təlimlərin də mühüm önəmi var. Söhbət istər Azərbaycanın təkbaşına, istərsə də qardaş Türkiyə ilə keçirdiyi iri birgə təlimlərdən gedir. Az öncə isə xəbər verilib ki, Azərbaycan Türkiyə və Gürcüstanla da birgə hərbi manevrlər keçirməyi planlaşdırır.

Bundan əlavə, dost-müttəfiq ölkələr arasında yüksək çinli hərbçilər səviyyəsində təcrübə mübadiləsi də artıq adi praktikaya çevrilib. Son olaraq, Türkiyə Hərbi Dəniz Qüvvələrinin komandanı, donanma admiralı Bülənd Bostanoğlunun Azərbaycana ötən həftə reallaşan 3 günlük səfərini xüsusi qeyd eləmək lazım gəlir.

*****

Bu arada Azərbaycan prezidenti, Ali Baş Komandanı İlham Əliyevin təsdiqlədiyi plana əsasən, aprelin 16-dan qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə genişmiqyaslı təlimlərə başlanıb. Bu barədə Müdafiə Nazirliyi mətbuat xidmətinin yaydığı məlumatda təlimlərə 30 min nəfərədək şəxsi heyətin, 250-dən artıq tank və zirehli texnikanın, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusunun, reaktiv yaylım atəş sistemi və minaatanın, 25 ədəd müxtəlif təyinatlı döyüş aviasiyasının, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunduğu bildirilir.

Təlimlər zamanı çətin relyef şəraitində müasir ümumqoşun döyüşü və əməliyyatların keçirilməsinin müxtəlif üsulları məşq etdiriləcək. Qəbul edilmiş qərara uyğun surətdə qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, səfərbərlik ehtiyatlarının toplanılaraq təyinatı üzrə göndərilməsi, zərbə qruplaşmalarının yaradılması və müəyyən olunmuş istiqamətlərdə tətbiqi, döyüş aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması icra olunacaq. Təlimlər aprelin 21-dək, yəni 5 gün davam edəcək.

*****

Maraqlıdır ki, budəfəki təlimlər düşmənin işğal altındakı Ağdamda keçirdiyi təlimlərdən dərhal sonraya təsadüf edir. Əsasən müasir döyüş sistemlərinin cəlb olunduğu bu təlimlər əlbəttə ki, ilk növbədə elə işğalçı Ermənistana növbəti xəbərdarlıq mesajıdır. O Ermənistan ki, öz əsas havadarı Rusiyanın arxasında gizlənib və ipə-sapa yatmır: Qarabağ məsələsində təxribatçı mövqe tutur, hətta Rusiyadan aldığı bəzi silahlarla qürrələnərək, Azərbaycanı ara-sıra hədələyir də - ötən ilin aprelində Azərbaycandan aldığı hərbi zərbədən nəticə çıxarmaq əvəzinə.

Təbii ki, Kremlə arxayın olan işğalçı ölkə Azərbaycanın daha böyük zərbəsindən sığortalanacağına ümid edir. Bu xüsusda politoloq Elxan Şahinoğlunun Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin ötən həftəyə təsadüf eləmiş Bakı səfəri ilə bağlı maraqlı bir qeydi var. Sitat: "Prezident İlham Əliyevlə görüşdə Patruşev maraqlı bir fikir dedi ki, əlaqələrimizin inkişafında təhlükəsizlik məsələlərinin rolu böyükdür: "Təhlükəsizlik təmin olunarsa iqtisadi, mədəni və bütün digər sahələrdə əməkdaşlığın inkişafında hər hansı bir problem ola bilməz". Belə görünür, Moskva Azərbaycanla əməkdaşlıqda təhlükəsizlik məsələsini bütün digər proseslərin önündə qoyur. Bəlkə də bu, Rusiyanın rəsmi Bakıya "müharibəyə başlamayın" mesajıdır ki, bu fikri Patruşev də Azərbaycan paytaxtına səsləndirib".

*****

**Bakı söz yox ki, müharibə məsələsində Moskvanın mövqeyini, Kremldəki ab-havanı həmişə ciddiyə alıb, yenə alacaq. Almaq zorundadır da. Ancaq Rusiya yetkililəri də yəqin fərqindədirlər ki, Qarabağ ətrafında mövcud status-kvo, işğal rejimi sonsuzadək sürə bilməz.** Azərbaycan Rusiyada da daxil olmaqla, tərəfdaş ölkələrdən aldığı milyardlarla dollar silahları vitrində saxlamağa hazırlaşmır. İşğalçını Rusiyanın arxasında gizlənmək xilas etməyəcək.

Bu mənada aprelin 16-da Azərbaycanın başladığı irimiqyaslı təlimlərdən "Müharibə etmə" deyən Kremlin özünə də cavab düşür. Hərçənd, Moskva da ara-sıra öz mesajlarını bizdən əsirgəmir. Onlardan birini yuxarıda qeyd elədik. Növbəti mesaj isə belə görünür, hərbi təlimlər getdiyi günlərdə, daha doğrusu, sabah - aprelin 18-də Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Gürcüstanın qanuni ərazisi Abxaziyaya səfəri ilə bağlı olacaq. Rusiya XİN-in məlumatına görə, səfər iki gün çəkəcək.

Moskva bu səfəri şəksiz ki, Abxaziyanı dövlət olaraq tanıması ilə izah edəcək. Amma Abxaziyanı Rusiyadan savayı da heç bir ciddi dövlət tanımayıb. Ziyarətin Azərbaycana aid tərəfi isə odur ki, Moskva bununla bir növ, bizə də mesaj çatdırmaq istəyir ki, Gürcüstan kimi Azərbaycan da Rusiyadan icazəsiz işğaldakı əraziləri hərbi yolla azad eləmək istəsə, analoji sonluğa tuş gələcək. Bu yerdə Lavrovun məşhur "Qarabağda hərbi əməliyyatlar Azərbaycanın daxili işi deyil" provokasion açıqlaması da yada düşür.

Bakı əlbəttə ki, Gürcüstanın acı təcrübəsindən və Kremlin mesajlarından nəticə çıxarır. Amma bizim də Rusiyaya kontur-mesajlarımız var və Moskva onları ciddiyə almaya bilməz.

**Çünki:**

1. Gürcüstan və Ermənistandan fərqli olaraq, Azərbaycan Rusiyanın böyük silah alıcılarından biridir;

2. Azərbaycan qardaş Türkiyə ilə birgə Rusiya üçün mühüm, hətta vazkeçilməz iqtisadi-ticari tərəfdaşlardır.

Rusiya regionda bu iki vazkeçilməz tərəfdaşını günün birində itirmək istəmirsə, buyursun, satellit Ermənistana təzyiq eləsin, onu ağla gətirsin. Bunu o etməyəcəksə, Azərbaycan əsgəri edəcək. Gec-tez...

**❑ Analitik xidmət**

YENİ MÜSAVAT
N 79 (6693) 17 aprel 2017

# Azərbaycanın müdafiə naziri İrandadır

## Politoloqlar hesab edirlər ki, erməni generalın KTMT-yə baş katib təyinatı heç nəyi dəyişmir və müdafiə nazirinin səfəri ilə heç bir əlaqəsi yoxdur

**İranda rəsmi səfərdə olan müdafiə naziri Zakir Həsənov aprelin 16-da İranın Müdafiə və Silahlı Qüvvələrə dəstək naziri Hüseyn Dehqanla görüşüb.**



Sputnik Azərbaycan İran mediasına istinadla xəbər verir ki, görüşdə iki ölkə arasında münasibətlər, hərbi əməkdaşlıq və regional təhlükəsizliklə bağlı məsələlər müzakirə olunub. Zakir Həsənov İran Müdafiə Nazirliyinin binası qarşısında keçiriləcək rəsmi mərasimə qatılacaq. Azərbaycanın müdafiə naziri iranlı həmkarı Hüseyn Dehqanın dəvətilə aprelin 15-də İrana rəsmi səfərə gedib. Səfər çərçivəsində İranın siyasi və hərbi rəhbərliyi ilə keçiriləcək bir sıra görüşlərdə ikitərəfli hərbi əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin müzakirəsi planlaşdırılıb.

Xəbər verdiyimiz kimi, Ermənistan Milli Təhlükəsizlik Şurasının sədri, Ermənistanın silahlı qüvvələrinin sabiq baş qərargah rəisi Yuri Xaçaturov Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) yeni baş katibi təyin edilib.

Öncə "Azərbaycan müdafiə nazirinin İrana səfərinin KTMT-yə erməni generalın baş katib təyinatından dərhal sonra həyata keçirilməsinin bu hadisə ilə hansısa əlaqəsi ola bilərmi" sualına politoloq Elçin Mirzəbəylidən rəy aldıq. Politoloq hesab edir ki, Zakir Həsənovun İrana səfərin hər hansı bir şəkildə KTMT ilə bağlı deyil. Politoloq Elçin Mirzəbəyli bildirdi ki, KTMT-nin baş katibi vəzifəsi siyasi vəzifədir və müstəqil qərar qəbul etmək hüququna malik deyil. Bu qurumda əsas söz sahibi Təhlükəsizlik Şurasıdır. Birləşmiş hərbi qərargahlara isə rus generalı rəhbərlik edir. Bu baxımdan Xaçaturovun baş katib təyin edilməsinin heç bir hərbi önəmi yoxdur: "Baş katibi Təhlükəsizlik Şurası təyin etdiyi üçün Xaçaturovun təyinatına Belarus da, Qazaxıstan da səs verib. Şübhəsiz ki, onlar da Azərbaycanla bağlı məsələləri nəzərə alıblar. Qeyd edim ki, KTMT-nin nizamnaməsində və qurumun strukturu barədə əsasnamədə baş katibin səlahiyyət müddəti barədə müddəa yoxdur. Nikolay Bordyuja 2003-cü ildən bu vəzifədə idi. Xaçaturovun təyinatı isə çox güman ki, siyasi manevr xarakteri daşıyır. Prinsipcə bu Ermənistana hər hansı üstünlük vermir. Amma Ermənistan rəhbərliyinin ictimaiyyət üçün hazırladığı siyasi şoularda istifadə oluna bilər. Xatırlayırsınızsa, Sergey Lavrov Azərbaycanı KTMT və Avrasiya İqtisadi İttifaqında görmək istədiklərini bəyan etmişdi. Bu, Rusiyanın ilk açıq mesajı idi. Moskva Azərbaycanı özünün yaratdığı qurumlarda, həm də ölkənin ərazi bütövlüyünün təmin olunması üçün heç bir addım atmadan görmək istəyir. Ola bilsin ki, Xaçaturovun təyinatının daşıdığı mesaj da bununla bağlıdır".

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bildirdi ki, KTMT Azərbaycan üçün heç bir təhlükə kəsb etmir. Həmin təşkilatda Azərbaycanın tərəfdaşları da yer alıblar və həmin dövlətlər erməni baş katibin Azərbaycan əleyhinə fəaliyyətinə imkan verməzlər. Əks halda təşkilatın daxilində təlatüm yaşanar: "Bizim qarşımızda KTMT və ya onun erməni baş katibi deyil, Rusiya-Ermənistan hərbi ittifaqıdır. Bizim mübarizəmiz bu ittifaqladır. Çünki, müharibə yenidən alovlanacağı halda nə Belarus, nə də Qazaxıstan KTMT çərçivəsində Ermənistana dəstək verən deyil, yeganə dəstək Moskvadan veriləcək".

Politoloq vurğuladı ki, KTMT-nin yeni baş katibi olan erməni general daima Azərbaycan əleyhinə çalışacaq, bizə qarşı hansısa sənədlərin qəbulunu istəyəcək. Lakin bunun bizə zərrə qədər də təsiri yoxdur. Onsuz da hamıya bəllidir ki, KTMT Rusiya-Ermənistan hərbi ittifaqından ibarətdir. Qazaxıstan və Belarus təşkilatın Azərbaycan əleyhinə siyasətində yer almayacaq.

E.Şahinoğlu dedi ki, bu təyinatın necə həyata keçirilməsinin özü suallar doğurur: "Ermənistan hakimiyyəti az qala bir ildir dəridən - qabıqdan çıxırdı ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına erməni hərbçini baş katib seçdirsin. Çünki rotasiya prinsipi üzrə növbə Ermənistana çatmışdı. Rusiyanın təmsilçisi, baş katib Nikolya Bordyuja erməni ilə əvəz edilməli idi. Ancaq Qazaxıstan və Belarus bu təyinatı uzadırdı. Bu da İrəvanın qıcığına səbəb olurdu. Nəhayət İrəvan Ermənistan Silahlı Qüvvələrinin sabiq baş qərargah rəisi Yuri Xaçaturov Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının yeni baş katibi təyin etdirə bildi. Bu təyinatın necə həyata keçirildiyi sual doğurur. Çünki, bu təyinat üzv dövlətlərin liderlərinin görüşündə təsdiq olunmalıdır".

Bundan öncə keçmiş müdafiə naziri Seyran Ohanyanın KTMT rəhbəri təyin ediləcəyi iddia edilirdi. Xaçaturovun adı isə namizəd kimi hallandırılmırdı. Aprel döyüşlərində məğlubiyyətə düçar olan Xaçaturovun bu vəzifəyə hansı məqsədlə təyin edilməsi suallar doğurur.

Xaçaturovun KTMT-yə baş katib təyinatı Ermənistanı müharibəyə həvəsləndirə bilərmi? Xaçaturovun KTMT baş katibi vəzifəsi nə zaman bitməlidir? Hansısa həssas məqamda o bir erməni kimi özfəaliyyətə yol verə bilərmi? Bunu etsə, Qazaxıstanın və digər KTMT üzvlərinin reaksiyası necə olar?

❑ **Etìbar SEYİDAĞA**

# Ermənilərin növbəti oyunu-"soyqırım"ın tanınması üçün Gürcüstan hökumətinə müraciət edildi

**Gürcüstanın Axalkalaki bələdiyyəsi, erməni icması və ictimai təşkilatları Gürcüstan rəhbərliyinə müraciət edərək qondarma "erməni soyqırımı"nı tanımağı xahiş ediblər. "Report"un Gürcüstan bürosu xəbər verir ki, müraciətdə 1915-1923-cü illərdə Osmanlı tərəfindən ermənilərə qarşı "soyqırımı" həyata keçirildiyi iddia olunur və onun Gürcüstan hökuməti tərəfindən tanınmasının vacibliyi vurğulanır.**





**Zəlimxan Məmmədli:** "Gürcüstan erməni soyqırımı"nı tanımaq iqtidarında deyil"
**Elman Nəsirov:** "Niyyətlərinin reallaşması əmsalı sıfıra bərabərdir"

"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli hesab edir ki, ermənilər "Böyük Ermənistan" xülyalarına uyğun şəkildə fəaliyyətlərini davam etdirir: "Onların "Böyük Ermənistan" xülyalarının içərisinə Gürcüstanın əhəmiyyətli bir hissəsi də daxildir. Çox şükürlər olsun ki, Gürcüstanda bunu dərk edənlərin sayı günbəgün artmaqdadır. Xüsusilə, ziyalılar içərisində bu daha çoxdur. Artıq gürcü soyadları ilə problemlər yaratmaq kimi hallar aradan qalxıb. İndiyə qədər Gürcüstanda müxtəlif təbəqələrdən olan ermənilər gürcü soyadları ilə Azərbaycan-Gürcüstan arasındakı münasibətləri korlamaq üçün müxtəlif addımlar atırdılar. İndiki müraciət də bunların tərkib hissəsidir. Onlar öz maraqlarına uyğun şəkildə bunun doğru olduğunu düşünürlər. Biz nə etməliyik? Gürcüstan hər hansı bir formada "erməni soyqırımı"nı tanımaq iqtidarında deyil. Sadəcə, onların ortaya atdıqları məsələ ictimai rəyə hesablanıb. Hər zaman deyirəm ki, Azərbaycanın ən yaxın müttəfiqi Gürcüstan sayılır. Enerji təminatı ilə bağlı verilən dəstək ortadadır, eyni zamanda, hər iki ölkəni bir-biri ilə bağlayan tarixi ənənələr var. Düşünürəm ki, ölkəmiz milli maraqlarını müdafiə etməyi Gürcüstandan daha çox istəməyə haqqı var. Görünür, Gürcüstanın bölgədə milli maraqları olduğu üçün körpüləri yandırmaq istəmir. Amma istənilən halda Azərbaycanın ən yaxın müttəfiqi olaraq, Türkiyə və Gürcüstan hər zaman yanımızda olmalıdırlar. Təkcə azərbaycanlı millət vəkili deyil, bir gürcü millət vəkili Azərbaycanın milli maraqları ilə bağlı bir məsələni Gürcüstan parlamentində dilə gətirsə, bu siyasi divident olaraq, hər iki ölkə arasındakı münasibətləri daha da yaxşılaşdırar. Bu müraciət sadəcə xal toplamaq üçün ortaya atılmış bir şeydir və keçməsi mümkünsüzdür".

Deputat Elman Nəsirov bildirdi ki, ermənilərin sıx yaşadıqları hər yerdə "yerə basdırılmış minalar" var: "Bunu bütün dövlətlər tərk etməli, bundan irəli gələn qabaqlayıcı addımlar atmalıdırlar. İndiki hadisə isə onu göstərir ki, ermənilər bu addımı atmaqla əslində iki məsələyə nail olmaq istəyirlər. Birincisi, "qondarma erməni soyqırımı"nın növbəti bir dövlətdə tanınmasına nail olmaq, ikincisi isə, həmin dövlətlə Azərbaycan və Türkiyənin münasibətlərinə böyük zərbə vurmaqdır. Amma hesab edirəm ki, bu məsələdə Gürcüstan dövlətinin birmənalı mövqeyi olacaq. Gürcüstan hökuməti yaxşı dərk edir ki, ölkəmizlə münasibətləri strateji xarakter daşıyır, məhz Azərbaycan sayəsində Gürcüstan üzləşdiyi bir çox problemlərin altından çıxa bilib. Həm maliyyə, həm də qaz problemlərində Azərbaycan müstəsna rol oynayıb. Bundan savayı Gürcüstan yaxşı dərk edir ki, Bakı-Tiflis-Ceyhan neft kəmərinin ərazilərindən keçməsi onlara çox böyük xeyir gətirir. Bakı-Tiflis-Ərzurum qaz kəmərinin Gürcüstandan keçməsi çox maliyyə gəliri deməkdir. Bundan əlavə, bu il Bakı-Tiflis-Qars dəmir yolu kəməri də işə düşəcək. Bu da Gürcüstan üçün növbəti böyük gəlir mənbəyi deməkdir. Bütün bunlar Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq fonunda reallaşıb. Heç şübhəsiz ki, rəsmi Tbilisi bunun fərqindədir. İvanişvili Gürcüstanın baş naziri olarkən Gürcüstan-Azərbaycan münasibətlərinə yenidən baxılması, eyni zamanda, çox mühüm nəqliyyat dəhlizləri ilə bağlı məsələlərin yenidən araşdırılması kimi məqamları ortaya gətirdi. Bu da hər iki ölkə arasında müəyyən soyuqluq yaratdı. Lakin o bir müddətdən sonra Bakıya səfər etdikdən, baş nazirlik postunun bütün yükü çiyinlərinə düşdükdən sonra mövqeyini tamamilə dəyişdi. Dedi ki, Azərbaycan sürətlə inkişaf edən ölkədir, bu dövlətlə strateji tərəfdaşlıqdan ölkəsi məmnundur. Bu reallıqlar hər kəsə bəllidir. Ermənilərin niyyətləri bu münasibətlərə zərbə endirməkdir. Bu da bulanıq suda balıq tutmaqdan başqa bir şey deyil. Onların bu niyyətlərinin reallaşması əmsalı sıfıra bərabərdir. Gürcüstan yaxşı dərk edir ki, Azərbaycan və Türkiyə ilə yaxın münasibətlər onun təhlükəsizliyi ilə bağlı çox vacibdir. Eyni zamanda, ermənilərin niyyətlərini də yaxşı görürlər. Onu da bilirlər ki, ilk andaca ermənilər Gürcüstanın parçalanması ilə bağlı istənilən addımı atarlar. Bütün qeyd etdiklərimizdən sonra o nəticəyə gəlmək olar ki, ermənilərin növbəti hoqqabazlıqları heç bir nəticə verməyəcək".

❑ **Cavanşir ABBASLI**



# Kolbasanın ifşası, lüləkababın iflası

**Samir SARI**

**Yeriniz məlum, o gün bir toydaydıq. Bildiyiniz Azərbaycan toyu: qohum-əqrəbadan və qudaların kollektivlərindən, əsgərlik, universitet yoldaşlarından, həmkəndlilərdən və qonşulardan ibarət yüzlərlə qonaq, təpli-tıxılı masalar, musiqi nömrələrini yola verən sazəndə və müğənnilər. (Hesabınızı götürün ki, xanəndə Vaqifdən dediyi qoşmada "Pərişanlıq zülfün öz qaydasıdır" yerinə "Pərişanlıq QƏLBin öz qaydasıdır" deyirdi).**

Allah tərəfi, toy öz ritmiylə, adət-ənənəyə və ssenariyə uyğun şəkildə davam edirdi. Bu mənzərələr hamınıza tanışdır, bilirsiniz, əlavə təsvirlərə ehtiyac yoxdur.

Amma bir yeni detal vardı. Masaların üstündə N qədər ləziz təamla yanaşı bir neçə cür kolbasa məmulatları da görünürdü, ancaq onlara əl uzadan yox idi. Əvvəllər belə olmazdı. Saat 6-da toy salonuna girən qonaqlar isti xörəklər gələnə qədər kolbasaları aşırardılar. İndi isə kolbasalar qızara-qızara nimçələrdə qalmışdılar.

Əcəba, xalqımız vegetarian olmuşmu? Bunun sirri tez bir zamanda çözüldü. Dostlardan biri bir dilim kolbasanı çəngələ vurub öz boşqabına qoyanda üzbəüzündə oturan daha bir dostumuz dedi: "A kişi, neynəyirsən? O itən eşşəklərdən xəbərin yoxdur?"

Belə anlaşıldı ki, kolbasaya tamah salan tanışımız mediadan uzaq, sosial şəbəkələrdən kənar adamdır, yoxa çıxmış 5 min eşşəkdən, rayonlardan Bakıya daşınan at cəmdəklərindən, ölü heyvanların ətindən xəbəri yoxdur, heç Yolçu Xanvəlini də tanımır. (Aydıralım ki, şair Yolçu Xanvəli Kənd Təsərrüfatı Nazirliyinin yanında Baytarlıq Nəzarəti Xidmətinin mətbuat katibidir və mənşəyi məlum olmayan ət məhsullarının tutulması haqqında vaxtaşırı məlumatlar yayır).

Söhbət bu yerə dirənəndə adama zəruri və qısa izahat verildi, dostlardan biri "o itən eşşəklərin ətinin bu süfrədə olmadığına təminat yoxdur" dedi. Bir az öncəyə qədər kolbasanı delikates sayan adamın sifətinin ifadəsi dəyişdi, bıçağı ilə kolbasa dilimini çəngəlindən siyirib əsasən sür-sümük üçün nəzərdə tutulmuş külqabıya boşaltdı və günah iş üstündə yaxalanmış adamlar kimi dedi: "Vallah, bilmirdim. Belə şey də varmış? Görün, bizə nə yedirdirlər".

Bilmirəm, başqa masalarda da buna bənzər söhbətlər oldu ya yox, amma gözucu fikir verdim ki, o masalarda da kolbasa boşqablarda qızara-qızara qalıb.

Bu gedişlə toylarda masaya kolbasa məhsulları verilməsinin sonu gələcək. Bir şey ki, yeyən yoxdur, ta onu masaya düzməyə nə ehtiyac var. Həm də əlavə yer tutur. Hərçənd bizdə belə bir prinsip var ki, süfrədə boş yer qalmamalıdır. Qalarsa, bu, kasıblıq əlaməti sayıla bilər.

Başqa bir simsar and içir ki, axır vaxtlar camaat lüləkababa da şübhə ilə yanaşır. Nəyə, nəyə, lüləkababa. Milli mətbəximizin şedevr təamlarından birinə. Bu, o lüləkababdır ki, beş-altı il əvvəl ölkəmizə Avropadan qonaq gəlmiş əcnəbiləri aparıb mərifətli bir yerdə lüləkabab yedirdirdilər. İlk tikələr boğazdan keçəndə sonra onlar dərhal bloknot, qələm çıxarıb lüləni necə bişirməyin reseptini yazırdılar, ölkələrinə qayıdandan sonra "skayp"la dəqiqləşdirmələr aparırdılar, nəyi necə edəcəklərini soruşur, Avropada lüləkabab bişirməyə cəhd edir, alınmayanda, sırf lüləkabab yemək üçün şəhərlərindəki türk lokantalarının daimi müştərisinə çevrilirdilər. İndi o lüləkabab masalarda qalır.

Nədən, nəyə görə? Hamısı həmin o "mənşəyi bilinməyən ət məhsulları"na görə. Restoran müdirləri daha çox qazanmaq üçün ucuz başa gələn və mənşəyini yaxşı bildikləri əti alır, başqa ətlərə qatır, camaata yedirdirlər. Bunun üstü açılanda isə camaatın gücü öz çəngəlinə çatır, dalı üstə qoyur boşqabının böyrünə, məhzun-məhzun baxır.

Bəzi vasvası adamlar da var ki, toyda yemək xoşuna gəlməyəndə xanımına zəng edir, deyir, toydayam, kasıbın olanından bir şey bişir, bir azdan evə gələcəm.

Bu gedişlə bilirsiniz, nə olacaq? Heç nə. Oxumuş adamlar, Yolçu Xanvəlinin gündəlik məlumatlarından xəbərdar olanlar gedib toyda nəmərlərini yazdırıb, qayıdacaqlar evlərinə, məlumatsız adamlar isə, süfrədə nə var, basıb yeyəcəklər. Axırı da nə olar, olar.

# Siqaret oliqarxları müqavimətə başladı

## Tütün istehsalçıları "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun qəbul edilməmişdən artıq öz ziyanlarını xalqın siqaret çəkən təbəqəsi üzərinə yükləməyə çalışırlar

**Bir neçə ildir ki, Milli Məclisdə siqaret qadağası ilə bağlı qanun layihəsini əngəlləyən oliqarxlar, nəhayət mövqelərindən geri çəkilməli oldular. Belə görünür ki, hökumət özü siqaretlə bağlı qadağaya beynəlxalq səviyyədə qoşulduqları konvensiyalara və üzv olduğu Ümumdünya Səhiyyə Təşkilatinin tələblərinə artıq əməl etmək məcburiyyətindədir. Yoxsa bu qanun bir neçə deputatın görə biləcəyi və parlamentdə təsdiqləyəcəyi iş olsaydı, bunu bir neçə il əvvəl edərdilər.**

Məlumata görə, qanunun gündəmə gəlməsinin zəruri edən daha bir səbəb ölkə turizminin inkişafına dəstəkdir. Çünki Azərbaycanda "siqaret mafiyası"nın ciddi cəhdlə qarşı çıxdığı bu tip qanunlar Avropada hələ ötən əsrdən qəbul edilib. Xüsusən, paytaxt Bakıda ictimai-iaşə yerlərində siqaret çəkilməsi Avropa və digər inkişaf etmiş ölkədən gələn turistləri üçün çəkindirici faktordur. Bu səbəbdən də hökumət hətta yerli siqaret istehsalçılarının etirazlarını baxmayaraq, qanun layihəsini parlamentin gündəliyinə gətirə bilib.

Qeyd edək ki, BMT-nin "Tütünə qarşı mübarizə haqqında" çərçivə konvensiyasına dünyanın 168 ölkəsi ilə yanaşı Azərbaycan da qoşulub və sənəd 1 noyabr 2005-ci ildə Milli Məclisdə ratifikasiya olunub. Bunun ardınca isə təbii ki, siqaretlə bağlı digər yasaqlar da qəbul edilməli idi, amma hər dəfə bu qanun layihələri müəmmalı şəkildə elə komitələrdə "tüstündən boğulurdu".

Məlumdur ki, ötən həftə Milli Məclisdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edilib. Məlum olub ki, deputatlar bir neçə ölkədə təcrübə mübadiləsində olub. Rusiyanın, Türkiyənin və digər dövlətlərin qanun yaradıcılığı praktikasından faydalanıb. Layihəyə əsasən, səhiyyə, elm və təhsil müəssisələrində, muzeylərdə, kitabxanalarda, kinoteatr, teatr, sirk binalarında, sərgi və nümayiş salonlarında, idman yarışları, konsert və digər kütləvi tədbir keçirilən zallarda, ticarət və məişət obyektlərin, restoranlar, kafelər, barlar daxil olmaqla ictimai iaşə obyektlərində (açıq məkanlar istisna olmaqla), ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə, inzibati binalarda, iş yerlərində tütün çəkilməsinə icazə verilmir.

Qadağalar həmçinin vağzal, avtovağzal və avtobus dayanacağı, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələrində və taksi minik avtomobillərində, liftlərdə, uşaq meydançalarında, çimərlik ərazilərі hüdudlarında, yanacaqdoldurma stansiyalarında, yüksək təhlükə mənbəyi hesab olunan digər obyektlərə də aid olacaq.

Həmçinin yetkinlik yaşına çatmayanlara siqaret satışı qadağan olunur və ya yaş həddinin müəyyənləşdirilməsi üçün şəxsiyyəti təsdiq edən sənəd tələb olunacaq.



Qanunun daha bir tələbi isə odur ki, Azərbaycanda televiziya və radio efirlərində hər ay 90 dəqiqədən az olmayaraq tütün (siqaret) əleyhinə verilişlər hazırlanmalı, verilişlərin 45 dəqiqəsi saat 17:30-23:00 arasında olmaqla, saat 08:00-23:00 arasında yayımlanmalı, verilişlərin surəti hər ay Milli Televiziya və Radio Yayımı Şurasına təhvil verilməlidir.

Bu qanunun tələblərini pozan şəxslər Mülki, İnzibati Xətalar, Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

Qanun layihəsinin "siqaret oliqarxları"na ciddi zərbə olduğu ortadadır. Hər şey onların milyonlar qazandığı bazarın əleyhinə yönəlib. Hətta televiziyalara belə siqaret əleyhinə məcburi(Türkiyədə bu cür antireklam çarxlar "zorunlu yayım") yayımlar etməlidir.

Parlamentdəki müzakirələrdə deputat, ölkədə yeganə siqaret istehsalçısı olan "European Tobacco-Baku" ASC-nin rəhbəri Rüfət Quliyevin söz alıb və qanun layihəsinin əleyhinə çıxıb. O deyib ki, layihənin hazırlanmasında Rusiya modelindən istifadə edilib. Siqaret oliqarxı "burada çox sərt qadağalar var. Axı siqaret çəkənin də hüquqları nəzərə alınmalıdır" deyib. Deputat əlavə edib ki, "iaşə obyektlərində, müəssisələrdə siqaret çəkmək üçün yer ayrılmalıdır". Daha maraqlı təklif isə sonra səslənib. R.Quliyev "tütünə qarşı mübarizə vasitəsi" kimi siqaretin satış qiymətinin qaldırılmasını təklif edib.

Yada salaq ki, R. Quliyev hələ bir neçə ay öncə xaricdə istehsal olunan siqaretlərin qiymətində bahalaşmanın əsas səbəbini dollarla izah etmişdi. Amma 1 dollar maliyyə bazarında 1 manat 70 qəpiyə düşsə də, siqaretlərin qiymətinə ciddi təsir etməyib.

Bakı Tütün Kombinatının nəzdində yaradılan və 2000-ci ildən siqaret istehsalına başlayan "European Tobacco-Baku" ASC daxili bazarın təxminən 50 faizinə nəzarət edir. Statistika onu da göstərir ki, qiymətlərin kəskin bahalaşması Azərbaycanda siqaret istehsalını azaltmayıb.

Prezident İlham Əliyev ötən il tütün istehsalçılarının dövlət tərəfindən dəstəklənməsi üçün quru tütünün hər 1 (bir) kiloqramına, yaş tütünün isə hər 10 (on) kiloqramına görə 0,05 manat məbləğində subsidiya verilməsi barədə sərəncam imzalayıb. Artıq Kənd Təsərrüfatı Nazirliyi 7 rayon üzrə 197 istehsalçıya təhvil verdikləri 927,6 ton quru və 9981,1 ton yaş tütünə görə 96,3 min manat məbləğində subsidiyanın verilməsi barədə qərar qəbul edib. Bunlar isə o deməkdir ki, ölkədə siqaretin qiymətin artırılmasından deyil, ucuzlaşmasından danışmaq olar. Siqaret oliqarxları isə qanun qəbul edilməmişdən artıq öz ziyanlarını xalqın siqaret çəkən təbəqəsi üzərinə yükləməyə çalışırlar...

Qeyd edək ki, qanun layihəsi hələ birinci oxunuşda qəbul olunub və müzakirəsi davam edəcək. Eləcə də "siqaret mafiyası"nın müqaviməti də...

❑ **"YM"**



# Borca düşən biznesmen özünü asdı

**Abşeron rayonunda intihar hadisəsi baş verib. Lent.az xəbər verir ki, aprelin 15-də Xırdalan şəhəri, İslam Səfərli küçəsində yaşayan 1971-ci il təvəllüdlü Abdullayev Fərman Rəhman oğlu yaşadığı evdə özünü asıb. Onun meyitini ailə üzvləri tapıb.**

Bildirilir ki, F.Abdullayev tikinti materiallarının alqı-satqısı ilə məşğul olurmuş və "Eurohome" tikinti materialları bazarında işləyirmiş. İş adamının son vaxtlarda xeyli borcu yaranıb və problemdən çıxmağa çalışırmış. O, intihardan əvvəl məktub yazıb.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 79 (6693) 17 aprel 2017



**Ermənistandakı 2 aprel seçkilərindən sonra işğalçı ölkənin danışıqlar masası arxasına qayıtmaması üçün bəhanəsi, faktiki qalmayıb. Bundan sonra da onun dinc nizamlama prosesindən boyun qaçırması və Azərbaycana qarşı qeyri-real şərtlərlə çıxış etməsi müharibə variantının masa üzərinə daşınması demək olacaq. Bunu isə yəqin ki, vasitəçi güclər, ələlxüsus da ATƏT-in Minsk Qrupunun həmsədrləri arzulamır. Belədirsə, məntiqlə həmsədr dövlətlər, xüsusən də Rusiya nəhayət, Ermənistana təzyiq etməli, onu yola gətirməlidir.**



# Böyük sülhün əsas şərti- işğalçıya güc göstərmək...

## Müharibə variantı yenidən gündəmə qayıdır; KTMT baş katibliyinin erməniyə həvalə olunması İrəvanı daha barışmaz mövqeyə kökləyə bilərmi? **Rusiyalı ekspert:** "Beynəlxalq hərbi cinayətlər törətmiş Ermənistan regional təhlükəsizlik sistemini təhlükə altına qoyub..."

Bu arada Ermənistan təmsilçisinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) baş katib gətirilməsi də yəqin ki, İrəvanı radikal mövqeyə daha da ruhlandırmış olacaq. Söhbət ondan gedir ki, İrəvan bununla özünü Azərbaycan qarşısında daha sığortalanmış hiss edə bilər. Belədir, ya yox, hər halda bunu yaxın zamanlarda görəcəyik. İndilikdə isə ən təhlükəlisi - sülh danışıqlarının 9 aydır dalana qalmasıdır.

Bu vəziyyət dəyişəcəkmi, nizamlama prosesini qarşıdakı aylarda - hərbi əməliyyatlar üçün ən əlverişli saylan dönəmdə nə gözləyir? Siyasi şərhçilərin bu xüsusda maraqlı rəyləri var.

*****

"Minsk Qrupu danışıqlar prosesinin növbəti raundunu təşkil etməkdə maraqlı görünür". Bu sözləri axar.az-a açıqlamasında politoloq Fikrət Sadıqov deyib. Politoloq hesab edir ki, əsas aparıcı ölkələrdən olan ABŞ xarici siyasət kursunda Yaxın Şərq, Şimali Koreya ilə bağlı sərgilədiyi sərt mövqeni eynilə Dağlıq Qarabağ məsələsində də ortaya qoymalıdır.

"Trampın siyasi prioritetləri içərisində Ermənistana qarşı təzyiq də yer alarsa, bu, ABŞ-ın prinsiplərinə sadiqlik demək olardı. Əgər Tramp geosiyasi məsələlərlə bağlı sərt addımlar atırsa, onda ABŞ əraziləri işğal altında olan dövlətlərin ərazi bütövlüyü ilə bağlı da hərəkətə keçməlidir və işğalçı Ermənistana qarşı sanksiyalar tətbiq edilməlidir. Bu, Bakının qarşısında duran ən əsas prioritetlərdəndir. Hesab edirəm ki, Azərbaycan diplomatiyası məhz bu istiqamətə yönəlməlidir. Vaşinqtonun bu məsələdə Bakının yanında yer alması çox önəmlidir. Düşünürəm ki, danışıqlar gec-tez bərpa olunacaq. Ermənistanın başqa çıxış yolu yoxdur. Əgər Minsk Qrupu hələ də fəaliyyət göstərirsə, deməli, danışıqlar prosesi mütləq davam etdirilməlidir. Hazırkı durum İrəvanı hərb və sülh yolundan biri ilə bağlı seçim etməyə məcbur edir. Başqa bir variant ola bilməz. Zənnimcə, həmsədr dövlətlər yaxın vaxtlarda danışıqlar prosesinin növbəti raundunu təşkil edəcəklər", - deyə politoloq qeyd edib.

Məsələ də ondadır ki, əgər həmsədr dövlətlər, ilk növbədə də ABŞ Güney Qafqazda sülhdə maraqlıdırsa, ikili standart siyasətini kənara qoyub, işğalçı Ermənistana münasibətdə işğalçı Rusiyaya Krıma görə sərgilədyi yanaşmanı sərgiləməlidir. Bunu ən əvvəl beynəlxalq hüququn hərfi, BMT Nizamnaməsi tələb edir. Yəni işğalçı varsa, sanksiyalar da olmalıdır, labüddür. Yoxdursa, demək işğalçı gizli şəkildə himayə edilir.

"Proseslər göstərir ki, Ermənistanda seçkiləri "müharibə partiyası" qazandıqdan sonra proseslər üzü müharibəyə doğru gedir. Belə vəziyyətdə lokal müharibə və toqquşmalar qaçılmazıdır. Əlbəttə ki, regional oyunçular, xüsusilə də Rusiya bu məsələyə diqqətsiz yanaşa bilməz. Hazırda ümid yenə də məsələnin danışıqlar prosesi çərçivəsində həllinədir. Düşünmürəm ki, son hadisələr bu və ya digər şəkildə Qarabağ prosesinin indiki durumuna təsir edəcək. Əgər hansısa ciddi addımlar atılmazsa, bu, çox çətindir. Hər halda burada təşəbbüs elə məhz Rusiyadan gəlməlidir". Bunu isə politoloq İlqar Vəlizadə deyib.

Ermənistanın təxribatçı mövqeyini davam etdirməsini həm də ondan bilmək olar ki, düşmən tərəf seçkilərdən sonra Azərbaycanın işğal edilmiş Ağdam rayonunda hərbi təlimlər keçirib. Bu da onsuz da kövrək olan vəziyyəti, atəşkəs rejimini topa tutmaq anlamına gəlir.

Doğrudur, dünəndən etibarən Azərbaycan Ordusu daha geniş miqyaslı təlimlərə başlayıb. Bu təlimlərə 30 minlik canlı qüvvə, yüzlərlə zirehli texnika, artilleriya qurğuları, aviasiya və digər döyüş sistemləri, pilotsuz uçan aparatlar cəlb olunub. Maksimum döyüş şəraitinə uyğunlaşdırılmış bu təlimlər sözsüz ki, ən əvvəl işğalçıya sanballı cavabdır.

*****

"Son vaxtlar Ermənistan prezidenti Serj Sərkisyanın Azərbaycanla bağlı kəskin ifadələri permanent xarakter alıb. Bu cür vəziyyət ondan xəbər verir ki, əgər Ermənistana operativ şəkildə beynəlxalq təzyiqlər göstərilməsə, Ermənistanın özü tərəfindən yaradılmış Dağlıq Qarabağ konflikti 4 günlük aprel müharibəsindən sonra daha da kəskinləşəcək". Musavat.com-un minval.az-a istinadən verdiyi xəbərə görə, rusiyalı politoloq Denis Korkodinov bu fikirdədir.

Politoloqun sözlərinə görə, münaqişəni de-eskalasiya etməklə bağlı çoxsaylı tələblərə baxmayaraq, erməni rəhbərliyi ərazi mübahisəsinin dinc həll planından yayınır. "Bu harasıdır, əksinə, Azərbaycanın ünvanına səslənən təhdidlər daha təxribatçı xarakter almağa başlayıb, təmas xəttindəki toqquşmalar isə praktik şəkildə müntəzəm şəkil alıb. Belə hərəkətlər faktiki şəkildə beynəlxalq hərbi cinayətlər törədən Ermənistanın tarixində tamamilə qəbuledilməz səhifə açır", - deyə ekspert qeyd edib.

**Politoloq daha sonra deyib:** "Beynəlxalq birliyin bir ağızdan Dağıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi sayığı vaxtda və 4 günlük müharibədən demək olar, bir il sonra erməni rəhbərliyinin azğın aqressiyası artmaqda davam edir. Ermənistan hakimiyyəti Dağlıq Qarabağ mövzusunu PR aləti kimi istifadə edir. Hal-hazırda regional mübahisənin dinc həllinə Ermənistanın bir qarış belə yaxınlaşmasını sübut edən heç bir dəlil yoxdur. Bu da öz növbəsində Cənubi Qafqazda regional təhlükəsizlik sistemini təhlükə altına qoyub".

**Rusiyalı ekspertə görə, erməni təcavüzü Cənubi Qafqaz ərazisində dinc təşəbbüslərin həyata keçməsi yolunda əsas əngəl olaraq qalır:** "Onu da qeyd eləmək lazımdır ki, Ermənistan rəhbərliyi beynəlxalq səhnədə öz absurd yalanlarını zaman keçdikcə daha da təkmilləşdirir və düşünür ki əsas geosiyasi oyunçular Serj Sərkisyanın söylədiyi istənilən axmaqlıqla razılaşacaq. Rəsmi İrəvan "Qarabağda referendum" və ya milli parlamentə seçkilər də daxil, heç bir önəm daşımayan dəyişikliklər haqda sistemli şəkildə hesabat verir. Bu kimi hərəkətlər fonunda da o, diqqəti əsas problemdən - Azərbaycan torpaqlarının işğalından yayındırmağa çalışır".

Politoloqun qənaətincə, Serj Sərkisyan rejiminə beynəlxalq təzyiq səthi xarakter daşıyır və onu sülhə məcburetmə ilə bağlı hər hansı zəmanəti istisna edir: "Halbuki konfliktlə bağlı ədalətli və obyektiv təhqiqatın hüquqi aspekti mövcud problemlərin həllinə kompleks yanaşma tələb edir, o sırada ərazi mübahisəsinin bütün nüanslarının hərtərəfli araşdırılmasını diktə edir. Və əgər müstəqil araşdırma nəticəsində üzə çıxsa ki, Sərkisyan klanı Dağlıq Qarabağda hərbi cinayətlərin günahkardır, o zaman o qaçılmaz cəza almalıdır".

**Ekspert haqlı olaraq, hesab edir ki, ABŞ, Rusiya və Qərb ölkələri İrəvana münasibətdə sərt mövqe sərgiləmir.** "Onlar Ermənistan rəhbərliyinin işğalçı siyasətini və bu kimi başqa cinayətkar fəaliyyətini susqunluqla qarşılayır. Halbuki Ermənistana münasibətdə belə "kor məhəbbət" siyasəti qısa zamana hesablanıb və yalnız Dağlıq Qarabağ ixtilafının kəskinləşməsinə xidmət edir. Reallıqda isə beynəlxalq birlik tərəfindən yol verilən başdansovluluq ona gətirir ki, Ermənistan müharibə epidemiyasına tutulmuş olur. Və Ermənistanın təcavüzü cəzasız qalarsa, o zaman bu epidemiya geosiyasi sistemin bütün iştirakçılarına yayıla bilər", - deyə analitik sonda xəbərdarlıq edib.

Rusiyalı analitikin söylədiklərindən də bir daha qənaət hasil olur ki, işğalçı Ermənistana beynəlxalq təzyiqlər olmayınca, bölgədə böyük sülh əlçatmaz olaraq qalacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 79 (6693) 17 aprel 2017



# Toylarda yeni dəb - dəhşətin o biri üzü

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Bir neçə il bundan öncə Parisdə bir dostumuzun toyunda iştirak etmişdim. Toy olduqca şıq, amma bir o qədər də sadə bir gəmidə, təxminən 100 nəfərin iştirakı ilə baş tutmuşdu. Bir neçə çeşid yemək, İsveç masası, xəfif musiqi, ardınca Azərbaycan rəqs havaları, diskoteka. Ömrüm boyu heç bir toyda o qədər əylənməmişdim... desəm, mübaliğə etmərəm. İnanın, yemək desən, yemək, əyləncə desən əyləncə... Amma dozasında. Tədbirdə azərbaycanlılar da vardı, əcnəbilər də. Hamısı da şən, əyləncəli, pozitiv...**

Şair demiş, bir dön bizim Bakıya bax. Az qala hər həftə sonumuz toyda keçir. Qohumların, dostların şən günündə iştirak etməyə o qədər həvəsli oluruq ki. Onun yanında bulunaq, sevincinə şərik olaq, əylənək. Amma di gəl ki, yemək masaları... Hamımızın qorxulu röyası olub. Masaya baxırsan, padşah saraylarındakı ziyafət süfrələrini xatırladır. Bir quş südü əskikdi deyə düşünürsən. Amma necə qorxa-qorxa əl uzadırıq. Ofisiant başımızın üstündə dayanıb, yeməkləri təklif etdikcə necə qorxunc ifadələr yaranır üzümüzdə... "Yox, sən Allah...", "Sən canın, uzaq elə" deyib həşirə düşürük, beynimizdən min cür ssenari, qorxulu səhnələr keçir. Bu salat neçə günündür? Bu kolbasalar nə ətindən hazırlanıb? Lüləyə yaxın durmayaq, nə bilirik içində nədir? Toyuq soyutmasımı? Aman, aman, Allah qorusun. Kim bilir, neçə gün saxlanıb soyuducuda.

Sanki toya gəlməmişik. Bir qarın yemək yeməyəcəyik sanki. Atom parçalayırmış kimi üz ifadəsi olur hamımızda. Təhlillər, müzakirələr, "yeyək, yeməyək" dilemması. Bunları yeyəndən sonra mədəmiz bizə necə cavab verəcək, başımızın ağrısı qalxacaqmı deyə neçə sualın əlində əsir-yesir oluruq. Halbuki binəva ev sahibi 40-50 manatlıq masa sifariş edərək, toyxana sahibinə nə qədər borclanır. Qonaqlarım razı getsin deyə necə dəridən-qabıqdan çıxır. Nəticədə qonaq da narazı, ev sahibi də ziyanlı. Əsas restoran sahibi qazanır.

Axı bu işin çox sadə bir çözümü var. Bu, heç kimə sirr deyil. Birincisi, kompleksləri bir kənara atıb, bu dəbdəbəli şadlıq sarayı azarından qurtulmaq lazımdır. Gözəl banket zallarında, daha kiçik heyətlərlə toy-büsat təşkil etmək ən gözəlidir. İki-üç cür yemək, İsveç masası, gözəl şirniyyatlar və bitdi.... Qulaqbatıran musiqiyə yox, kəmiyyəti keyfiyyətini üstələyən, insanları qorxudan, mədəsini sıradan çıxaran, zəhərləyən yeməklərə yox... Sadəliyə, keyfiyyətə, qənaətə hə. Axı bu, o qədər də çətin deyil. İctimai sektordan tanıdığım bir neçə dostumuz o cür məclis təşkil edib, hələ də dadı damaqlardan getməyib, hamı da o haqda danışır. Yeyilməyəcək yeməklərə görə borca düşmək, insanları bezdirən səs-küylü auraya görə hər iki dəqiqədən bir foyeyə qaçmağın adı nə vaxtdan əyləncə olub? İnanın ki, hər şeyi dəbə salmaq bizim əlimizdədir. Necə olur ki, 5 il əvvələ qədər evlərdə, yaxın qohumlarla keçirilən xına mərasimlərini indi 5-6 min manatlıq restoran mərasimlərinə çeviririk? Dəbdisə, ucuz mərasimi də dəbə çevirək də.

Dostumuz, iqtisadçı ekspert Qadir İbrahimlinin həmin mövzuda bu gün yazdığı bir status isə insanı daha dərin düşüncələrə qərq edir. Dostumuz yazır: "Toyda dostumla siqaret çəkmək üçün foyeyə çıxdıq. Qayıdanda bizim stolda oturanların hamısı rəqs edirdi və rəqsə meylli olmadığımdan keçib yerimdə oturdum. Tanımadığım bir gənc (25-30 yaş arası) bizim stolda, mənimlə yanaşı oturub yemək yeyirdi. Dedim yəqin toy iştirakçılarındandır, yer tapa bilməyib oturub. Davranışlarından mədəni gəncə oxşayırdı, ancaq aclıqdan çıxanlar kimi yeyirdi, hiss olunurdu ki, uzun müddət doyunca qidalanmayıb. Rəqs bitəndən sonra uşaqlar qayıtdılar. O da durub, yerini yerin sahibinə vermək istədi. Ancaq yerin sahibi razı olmadı, keçib başqa yerdə oturdu. Nə isə gənc doyub qurtarandan sonra toyu tərk etdi. Uşaqlardan biri izləyirmiş gənci, çıxanda ardınca çıxdı və qayıdanda dedi ki, gənc nəmər yazdırmadan çıxıb getdi. Yəni toy iştirakçısı deyilmiş, sadəcə qidalanmaq üçün gəlibmiş. Dostlar bir az narazılıq etdilər. Onları sakitləşdirdim ki, faciə baş verməyib, adam acından ölməli deyildi ki? 200 nəfərlik toyun yeməkləri ilə ən azı 600 nəfəri doydurmaq olar. Onsuz da qalan yeməklər restoran sahibinə qalır və o da növbəti müştəriyə satıb 2 qat qazanır. Ondansa belə adamların gəlib yeməsi məsləhətdir, vacibdir və savabdır..."

Bax belə. Əslində bəlkə də çözüm yolu budur. İsraf əvəzinə, ehtiyacı olanların doyması. O gəncin hərəkətini kimsə müftəxorluq adlandıra bilər. Amma bu, bir tələb-təklif mexanizmidir. Bəli, toyxana sahibinin haqsız qazancındansa, imkansız birinin haqsız qidalanması daha ədalətlidir. Bu, azərbaycansayağı ədalətdir və mən onu alqışlayıram.

# "Hacı Cavad" məscidinin icma sədri danışdı

## Kənan Əzizov: "Prezidentin tapşırığından sonra hər şey əladır"

**Aprelin 12-də Bakının "Sovetski" kimi tanınan ərazisində yerləşən "Hacı Cavad" məscidinin sökülməsinə cəhd edilməsi orada ibadət edən bir qrup dindarların kəskin etirazına səbəb oldu.**

Rəsmi şəxslərin sözlərinə görə, məscidin binasının yerləşdiyi ərazi genişmiqyaslı yenidənqurma və yolların tikintisi üçün nəzərdə tutulan hissəyə daxildir. Bu baxımdan ilk olaraq qərara alınıb ki, memarlıq əhəmiyyəti olmayan bu bina da ərazidə olan digər tikililər kimi sökülməlidir. Buna etiraz edən şəxslər eyni zamanda vurğulayırdılar ki, məscid tarixi abidədir. Dindarların etirazlarını ölkə mətbuatının işıqlandırması nəticəsində məsələ ictimailəşdi.




Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirdi ki, prezident İlham Əliyev məscidin sökülməsi ilə bağlı yaranmış vəziyyətdən narahat olub: "Dövlət başçısı narazılıq edən inanclı insanların reaksiyasını nəzərə alaraq məscidin söküntüsünün dayandırılması, məsələnin hərtərəfli araşdırılması, binanın texniki vəziyyətinin tam obyektiv qiymətləndirilməsi və müvafiq təkliflərin təqdim olunması məqsədilə xüsusi komissiyanın yaradılması barədə tapşırıq verib".



Nəticədə məscidin söküntüsü dayandırıldı.

Prezidentdən 4 gün sonra isə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, biz dövlətimizi, onun qəbul etdiyi qərarı dəstəkləyirik: "Prezident İlham Əliyev məscidin sökülməsinin dayandırılması və vəziyyətin araşdırılması ilə bağlı xüsusi komissiyanın yaradılmasına dair tapşırıq verib. Dindarlarımız dövlətimizin başçısının bu qərarını minnətdarlıqla qarşıladılar.

Təəssüflər olsun ki, bu gün bəzi qüvvələr dindən istifadə edərək dövlətçiliyimizə zərər vurmaq istəyirlər. Həmin üzdəniraq qüvvələr İslam dininin adına da xələl gətirirlər. Əsl dindarlarımız prezident İlham Əliyev tərəfindən atılan addımları dəstəkləyir və onun siyasətini bəyənirlər. Onlar bu cür şəxslərin öz sıralarına daxil olmasına imkan verməməlidirlər".

Hazırda vəziyyətin necə olduğunu öyrənmək üçün "Hacı Cavad" məscidinə yollandıq. Müşahidə etdik ki, məscidin yaxın ətrafında yerləşən bütün tikililər demək olar ki, sökülüb. Məscidin binası kənardan qəzalı görünsə də, içəridə hər şey qaydasındadır. Bildirdilər ki, məscidin çöl divarına bitişik evlər olub. Evlər hazırda söküldüyü üçün bina kənardan bu cür görünür. Bəzi saytlarda məscidin binasının tarixi abidə kimi Mədəniyyət və Turizm Nazirliyində qeydə alınmadığı yazılsa da, lakin binanın üzərində olan xüsusi lövhədə bunun əksi yazılıb. Lövhədə qeyd olunub ki, abidə dövlət tərəfindən qorunur.

Ərazidə artıq qazma işləri aparılır və fəhlələrin sözlərinə görə, burada kanalizasiya, su xətləri tamamilə dəyişdirilir. Lakin məscidin söküntüsü istiqamətində heç bir fəaliyyət müşahidə etmədik. Biz orada olduğumuz zaman dindarlar məscidə rahatlıqla daxil olub, ibadətlərini edirdilər. Onlarla söhbətimiz zamanı bildirdilər ki, söküntü ilə bağlı artıq problem həll olunub. Heç bir rəsmi qurum onları bununla bağlı narahat etmir. Dindarlar, prezidentin işə qarışmasından məmnun olduqlarını bildirdilər.

Məscidin icma sədri Kənan Əzizov orada olmasa da, onunla telefon danışdığımız baş tutdu. İcma sədri "Yeni Müsavat"a bildirdi ki, onlar prezidentin tapşırığı əsasında yaradılan komissiyanın verəcəyi qərarı gözləyirlər: "Heç bir söküntü, heç bir narahatçılıq yoxdur. Prezidentin tapşırığından sonra hər şey əladır. Biz də həmişəki qaydada fəaliyyətimizə davam edirik. İnsanlara müraciət edərək, onları səbirli olmağa çağırıram. Kimliyindən asılı olmayaraq, hər kəs gərək səbirli olsun. Dövlətimiz ədalətli qərar çıxarıb. Ümid edirik ki, hər şey yaxşı olacaq".

"Hacı Cavad" məscidi 1912-ci ildə inşa edilib. Bir neçə ildən sonra isə Azərbaycanda sovet işğalı başlayıb və məscid fəaliyyətini dayandırıb. Uzun illər - Sovet illəri ərzində bu məscid təyinatı üzrə istifadə edilməyib.

Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra isə məscidin fəaliyyəti bərpa edilib və bir müddətdir dindarların ixtiyarındadır. Burada eyni anda 350-400 nəfərin namaz qıla bilməsinə şəraitin olduğu qeyd olunur. Məscidin minarəsi mövcud deyil.

Onu da qeyd edək ki, "Sovetski"də aparılan bərpa işləri, hələ köçürülməyən əhalinin kommunal problemlərlə üzləşməsinə səbəb olub. Ərazidə reportaj hazırlayan zaman sakinlər söylədilər ki, bir neçə gündür su problemi yaşayırlar. Su xətləri köhnə olduğu üçün qazma işləri zamanı sıradan çıxır. Sakinlər söylədilər ki, artıq "Azərsu" ASC tərəfindən mənzillərə gedən su xətləri dəyişdirilir və yeni plastik borular çəkilir. Elə orada olduğumuz zaman biz də bunun şahidi olduq.

❑ Əli Rais
❑ Fotolar müəllifindir

# Prezidentin tikintisini dayandırdığı ərazini Milli Məclisin mühafizə xidməti qoruyur

**Xəbər verdiyimiz kimi, Bakının Mətbuat prospektində, "Ovçular evi" kimi tanınan məşhur binanın ətrafında 54 çoxillik şam ağacı kütləvi şəkildə məhv edilərək yerində yaşayış-biznes kompleksinin tikintisinə başlanılmışdı. Lakin aprelin 15-də prezident İlham Əliyevin müdaxiləsindən sonra tikinti dayandırıldı və tikinti işlərini həyata keçirən şirkət barəsində cinayət işi açılıb. Habelə şirkət ağacların kəsilməsinə görə 130 min manat cərimələndi.**




Virtualaz.org əməkdaşları dünən həmin ünvanda olublar. Mühafizəçiləri çəkiliş aparmağa icazə verməyiblər və ərazini hazırda Milli Məclisin mühafizə xidmətinin qoruduğu məlum olub. Özünü Milli Məclisin mühafizə xidmətinin əməkdaşı kimi təqdim edən şəxs deyib ki, prezidentin göstərişi ilə ötən gündən etibarən bu ünvanda tikinti dayandırılıb. Ərazidə tikintini aparan şirkətin lövhəsi isə sökülüb.

Yaxınlıqda yaşayan sakinlərin sözlərinə görə, onlar hələ bir neçə il əvvəldən "Ovçular evi"nin ərazisində çoxmərtəbəli yaşayış binasının tikiləcəyini eşidiblər. Lakin bir neçə il ərazi baxımsız qalıb. Yalnız 3 gün öncə, gecə saatlarında buldozerlər əraziyə daxil olaraq "Ovçular evi"nin həyətini xarabalığa çevirib.

Sakinlərin sözlərinə görə, bu ünvanda deputatlar üçün "Böyük Plaza" yaşayış kompleksinin tikintisi planlaşdırılıb və tikintidə birliyin rəhbəri Füzuli Əşrəfovun da adı hallandırılır. Həmçinin tikiləcək binada yaşayış evlərindən əlavə, alış-veriş və əyləncə mərkəzi də olacağı bildirilir.

Tikintini işlərini həyata keçirən şirkətin tikintiyə başlamaq və "Ovçular evi"ni sökmək üçün hansı sənədlərə malik olduğu da məlum deyil. Həmçinin sökülən binada yerləşən dükan sahiblərinin də aqibətini heç kim bilmir.

Qeyd edək ki, bu paytaxtda yaşıllıqların məhvi ilə bağlı ilk belə hadisə deyil. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında ağacların qanunsuz olaraq kəsilməsinin yolverilməz olduğunu və belə hallara yol verən şəxslərin məsuliyyətə cəlb ediləcəyini bildirib. Lakin buna baxmayaraq bəzi oliqarxlar və məmurlar hələ də Bakının müxtəlif ərazilərində onsuz da az qalan yaşıllıqları, çoxillik ağacları qəddarcasına məhv edir, yerində yaşayış binası və digər obyektlər tikirlər.

YENİ MÜSAVAT
N 79 (6693) 17 aprel 2017

# Dəlixanaya düşən general oğlu Putinin yanına necə yerləşdirildi

## Kremlin baş kahini obrazını mənimsəyən Duqin vaxtilə oğurluq üstə Heydər Camalla birlikdə türməyə düşüb, sonra isə Kremlin divarlarını aşaraq prezidentin ən yaxınında özünə mövqe qazanıb

**İspan kralı 2-ci Filipp, İngiltərə üzərinə məşhur "Böyük armadası"nı, yəni öz nəhəng gəmi donanmasını göndərdiyi vaxt, Kraliça Yelizaveta cavab olaraq bilirsizmi kimə müraciət edir? Deyim də kimə. Məşhur saray münəccimi, kimyagər Con Diyə.**

***

Deyilənə görə mistik seanslar vaxtı o, öz tələbəsi Edvard Kelliylə birgə eyni yuxular, eyni möcüzələr görürmüş guya. Eyni tam məxfi məlumatlar alırmış qeyb aləmindən. Xəbərlər, insan dilində deyil, mələk dilində səslənirmiş guya bu mistik cütlüyün qulaqlarında.

Həmin bax bu Con Di, növbəti mistik seans zamanı ispan donanmasının dəqiq yerini, dənizdəki dəqiq coğrafi koordinatlarını öyrənməyi bacarır. Nəticədə Britaniya admiralları düşmənə dənizdə pusqu qurur, həmin yerdə ispanları darmadağın edirlər. Qeyd edim ki, ilk Agent-007 ləqəbi məhz Con Diyə məxsus imiş vaxtilə. Con Di, kraliça Yelizavetaya göndərdiyi məxfi bilgilər altına, məhz bu imzasını qoyarmış, sən demə. Britaniya kəşfiyyatı Mi-6 bəlkə elə indi də həmin "eyni yuxu", "agent 007" ənənəsini yaşadır.

Şərqdə isə "eyni yuxu" mövzusu, yadda saxlayın, Şəms Təbrizi ilə Cəlaləddin Rumi arasında mövcud imiş. Qeyb aləminə onlar da oxşar mistik üsul vasitəsilə daxil olub, ordan "dürlü-dürlü" xəbərlər gətirərmişlər guya.

***

Rusiyada da oxşar nadir ənənənin çox əsrlik ömrü var. Müasir vaxtlar bu cür "mələk dilinin" (rusca ona "yenoxianskiy yazık" deyilir) Rusiyadakı son yeganə bilicisi, tərcüməçisi bilirsizmi kimdir?

Tanınmış filosof, siyasətçi, uluslararası "Avrasya" hərəkətinin yaradıcısı Aleksandr Qelyeviç Duqin!

Duqin poliqlotdu. Ancaq ingiliscə, fransızca, almanca, ispan, italyan, yunan dillərində sərbəst danışması ilə kifayətlənmir heç vaxt o. Hərdən bax bu "mələk dilində" də danışmağa üstünlük verir. Xüsusən bilirsizmi hansı vaxtlar?

Həyatı tükdən asılı qalıb, taleyin sərt imtahanlarına məruz qalarkən.

Deyilənə görə, məlum 16 iyul hadisələri zamanı Türkiyədə ikən həyatının ən dramatik, gərgin günlərini yaşayan həmin bax bu Aleksandr Duqin, qəfildən, birdən-birə göz qapaqlarını qapayıb. Başlayıb öz daxilindəki, üzərindəki mələklərlə həmin bax bu sirli dildə danışmağa. Müsahibələrinin birində o, bütün bunları belə xatırlayır: "Çox gərgin ekzistensial dəqiqələr yaşadım o vaxt Ankara hava limanında. Alnımı tər basmışdı. Dodaqlarım, özümdən ixtiyarsız dualar pıçıldamağa başladı bu vaxt. Taleyin hökmü, zamanın sonrakı axarı mənim bax bu dualarımdan asılıydı elə bil".

Con Di, kraliça Yelezavetanın əmri ilə hərəkət etdiyi kimi, Duqin də Putinin əmri ilə hərəkət edib bəlkə o zaman. Con Di, ispan armadasının dəqiq coğrafi koordianatlarını öyrənir öz mələyinin köməyi ilə, Duqin də eynən bu cür FETÖ-nun bütün sirlərinə agah olur. Con Di, özünün məxfi "agent 007" kod adını o vaxt bax bu cür doğruldur, Duqin bir başqa cür.

Nəhayət, Duqinin göz qapaqları tədricən aralanır. Dodaqları daha titrəmir. Bu vaxt silahdaşları Duqini elə hava limanındaca qucaqlayıb öz bağırlarına basır, qulağına şad xəbərləri pıçıldayırlar: "FETÖ-nun qiyam cəhdi iflas edib! Ərdoğan sağ-salamatdı! Qiyamçılar silahlarını yerə atıb, dörd tərəfə səpələniblər! Ordu, qışlalara qayıdır! Qələbə bizimdi!!!"

Başı dualardan ayılmış Duqin deyilənə görə bir an tərəddüd anları yaşayır. Əvvəl inanmır eşitdiklərinə. Sonra sağ əli ilə özünə xaç vurmağa başlayır. Qulaqlarında Aya Sofyadan qalxan ilahi səsləri eşidir sanki.

Yaxşı, kimdi bu Aleksandr Duqin? Kremlin bir nömrəli ideoloqu, uluslararası Avrasiya hərəkətinin banisi, mərhum Heydər Camalın ən yaxın silahdaşı? Kimdi?

Gəlin bu düyünlü sualı indi özümüz üçün aydınlaşdıraq.

***







### Dosye: Aleksandr Qekyeviç Duqin

1962-ci ilin 7 yanvar tarixində, pravoslav xristianların yeni il bayramı günü Rusiyanın paytaxtı Moskvada dünyaya göz açan Aleksandr Qelyeviç Duqin, bioqrafiyasının bu faktına həmişə müstəsna əhəmiyyət verib. Şıltaq, ərköyün uşaq kimi böyüyüb. Xüsusi nəvaziş, qayğı, dəyərli hədiyyələr tələb edib həmişə özünə. Öz kosmik təyinatına da o, məhz körpə yaşında ikən inanıb. Kimyagər Con Di kimi, daxilindəki mələklə ilk dəfə məhz bu zaman pıçıldaşıb - "Pravoslavların yeni ili mənə hədiyyələr vəd edir, rəsmi yeni il isə heç nə...Qoy belə də olsun... Mənim öz xüsusi təyinatım var pravoslav dünyasında. Ən gözəl milad hədiyyələri həmişə mənimki olacaq".

Pıçıldamağı, lazım gələndə gizlənməyi, susmağı, konspiroloji təfəkkürə malik olmağı da Duqin, yenə də elə həmin uşaqlıq vaxtlarında öz doğmaca atasından - məşhur sovet kəşfiyyatçısı, QRU general-leytenantı Qeliy Aleksandroviçdən öyrənib yəqin ki. Ancaq bu xoşbəxtlik çox da uzun sürməyib - Duqin hələ 3 yaşında ikən kəşfiyyatçı atası ailəsini tərk edib. Gedib başqa ailə qurub özünə.

Duqinin həyatında ilk sınma nöqtəsi, bəxtindəki qara zolaq xətti məhz bu zamandan başlayır. Hədiyyələr azalır. Ad günü məclisləri xeyli kasıblayır. Duqin, əfi ilan kimi, öz daxilinə ilk dəfə məhz bu zaman çəkilir. Pəncərəsindən görünən Kreml mənzərələrinə müştəri gözü ilə ilk dəfə məhz bu zaman zillənib baxır. Üstündəki mələyinə pıçıldayır sakitcə: "Mən, mütləq bir gün bu qırmızı divarları aşıb, Kreml sahibindən öz halal hədiyyəmi istəyəcəm"

***

1979-cu ildə Moskva Aviasiya İnstitutuna daxil olan Duqin öz həmsinifləri arasında çox sərt antisovet şerləri ilə tanınır. Duqinə ilk məşhurluq dəqiqələri gətirən bu faktın ömrü sözsüz, çox sürə bilməzdi. Üçüncü kursda ikən Duqini rektorun rəsmi əmri ilə institutdan xaric edirlər. Guya Duqin yaxın dostu Heydər Camalla birgə özü kimi qoluzorlulardan ibarət cinayətkar dəstə yaradıb. Girişib vəzifəli şəxslərin Moskva ətrafındakı bahalı bağlarına. KQB, QRU generallarının bağlarını qarət edib guya. Növbəti qarət zamanı hadisə yerindəcə yaxalanan dəstə üzvlərinin hər birinə 4 il iş kəsib basırlar qazamata. Atası Qeliy Aleksandroviçin müdaxiləsi nəticəsində Heydərlə Duqinin cəzası nisbətən yüngülləşdirilir. Həbsxana dəlixanayla əvəzlənir. İki il sonra nümunəvi davranışa görə dəlixanadan azadlığa buraxılan dostlar əvvəlcə bilmirlər nə etsinlər. Duqin, bir müddət zibilçi işləyir doğma Moskva küçələrində. Heydər Camal isə...

Heydər isə SSRİ alpinist yığması tərkibində uzaq Pamir zirvələrinə göndərilir.

***

Sonralar Moskvaya qayıdan Duqin, silahdaşı Heydər Camalla birgə əvvəlcə yazıçı Yuriy Mamleyevin "Metafizik yazarlar" cəmiyyətinə üzv olur. Sonra batini, məxfi biliklər alimi Yevgeniy Qolovinin "Qara SS" qapalı ordeninə qatılır. Elə bu vaxt da hansısa naməlum əl, kənardan Duqini idarə edərək onu Heydər Camalla birgə ən məxfi, qapalı arxivlərə yönləndirir. 1988-1992-ci illərdə faşist Almaniyasından qənimət olaraq gətirilmiş SS arxivlərində işləyən dostlar orda Hitlerin ən məxfi layihəsi sayılan "Ananerbe" sənədləriylə tanış olmaq xoşbəxtliyinə nail olurlar. Nəticələr, sonralar TV güzgülərinə çıxarılır. Bir qismi isə göndərilir "lazımı qapalı ünvanlara".

***

Əvvəlcə qatı antisovet mövqelərdə duran, oğlunu Lenin movzeleyi üzərinə tüpürməyə vadar edən Duqin, qəribədir, SSRİ-nin süqutundan sonra dönür əsl "milli bolşevikə". Eduard Limonovla birgə "Milli bolşevik" partiyasını yaradır. 1993-cü ildə Yeltsin Rusiya parlamentini topa tutduğu zaman Duqin dərin mənəvi sarsıntılara məruz qalıb silaha əl atmaq istəyir. Silahdaşları çox çətinliklə Duqini bu səhv qərardan daşındırıb, onu birtəhər Moskva ətrafı bağlarda gizlədirlər. O vaxt Duqin "qılınc və qələm" arasında öz qəti seçimini edir sanki. Dərk edir ki, əsl silah ideoloji silahdı. Bu ideoloji silahı yaradıb, onu rus xalqının istifadəsinə vermək lazımdı.

Tezliklə Duqin bu ideoloji silahı uluslararası "Avrasiya" hərəkatında tapıb girişir onun ideoloji sütunlarını ucaltmağa. Dünyadakı ifrat sağ konservativ qüvvələrlə məxfi əlaqələr qurub onları Kremlin təsir dairəsinə qatır. Duqinin bu taktikasına indi beziləri bax bu cür şərh verirlər: "SSRİ vaxtilə Kommintern vasitəsilə Avropadakı passionar qüvvələri öz təsir dairəsinə aldı. Beynəlxalq kommunist hərəkatını yaradıb onu Kremlin oyuncağına çevirdi. Duqin, təzədən velosiped ixtira etmədi. Sadəcə oxşar prosesi təkrarladı. Ancaq bircə mühüm fərqlə - bu dəfə Kreml şəbəkəsinə düşənlər ac-yalavaclar deyil, Avropanın konservativ elita üzvləri idi".

Duqinin bu ideoloji silahı, qurduğu uluslararası şəbəkə tezliklə Kremlin, şəxsən Putinin marağını özünə cəlb edir. Nəticədə Duqinin ictimai statusu qəfil xeyli dəyişir. O, dönür bir nömrəli Kreml ideoloquna. Moskva Dövlət Universitetinin "Sosiologiya" fakültəsində dekan vəzifəsinə gətirilir.

***

Moskva dövrü mətbuatında nəşr edilmiş Duqinin bəzi gizli yazışmalarıyla tanış olsanız görərsiz ki, onun qurduğu bu beynəlxalq şəbəkədə baş dirijor çubuğu pravoslav oliqarxı Konstantin Malofeyevdədi. Dövrü mətbuat bu müəmmalı şəxsi Donbas, Krım hadisələrinin əsl pərdəarxası qəhrəmanı bilər həm də. Duqinin zənciri indi məhz bu şəxsin ixtiyarındadır. Malofeyevlə Duqinin qurduğu "Çarqrad" saytını xahiş edirəm oyuncaq bilməyəsiz. Məhz bu siyasi meydançadan çıxış edən Duqin indi bütün diqqətini məhz Türkiyəyə yönləndirib. "Çarqrad" kəlməsinin əslində "İstanbul" demək olduğunu anlasaz, sizə bu layihənin bütün gizlinləri anında aydın olacaq.

Bosfor sahilləri, Aya Sofya, Konstantinopol, Bizans...Duqinin müasir fəaliyyəti indi məhz bu rəmzi işarələr ətrafındadır. O, politik deyil, geopolitikdi. Hesab edir ki, geopolitikayla Putin kimi fövqəlinsanlar məşğul olur, politika ilə isə adi sadə siyasət fiqurları. Duqin, Rusiya gündəminə bax bu geopolitika, konspirologiya habelə onlarla digər diskursları, nəzəriyyələri gətirmiş alim...yox...dühadır.

Müasir Rusiya ilə əlaqələrimizi bu şəxsdən kənarda görmək cəhdi məncə indi çox gülüncdü. Bu böyük zəka sahibini, əksinə, Azərbaycana gətirmək, bizimlə əlaqələrini təmin etmək lazımdır.

Yoxsa sabah artıq gec olar.

❑ **Həmid HERİSÇİ**

# Bakıda dələduzluq edən "MTN-çi" qadın zərərçəkmişləri "vor"larla qorxudub

## "Pul içəri çatıb, "vor" aləmindədir"; heyrətamiz dələduzluq əməllərinin detalları



**Bakıda qadın bir neçə nəfərə qarşı dələduzluq edib. Zərərçəkmişlərin dediyinə görə özünü MTN (ləğv edilib) polkovniki kimi təqdim edən qadının hətta kriminal aləmlə də yaxınlığı olub. Hazırda həbsdə olan Aygün Akimovanın pul aldığı şəxslərə bu yolla hədə-qorxu gəldiyi iddia edilir.**

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim qarşısına çıxarılan Aygün Akimova ilə birlikdə İlham Baxışov da həbs edilib.

Hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən məhkəmə prosesində ilk olaraq ittiham aktı elan edilib.

İttihama görə, Aygün Akimovanın dələduzluq əməllərinin qurbanı olan 6 nəfər var. Onlardan ən çox zərərçəkmişi isə Afət Hüseynovadır. İttiham aktında yazılır ki, Aygün Akimova mağaza sahibi olan Afət Hüseynova ilə yaxın münasibət qurduqdan sonra ona qarşı dələduzluq edib.

"Akimova yaxın münasibətləri yarandıqdan sonra özünü MTN polkovniki kimi təqdim edərək Afət Hüseynovaya təzyiqlər göstərərək mağazasını satdırıb. Mağaza 2015-ci ildə 1 milyon 750 min manata satılıb. Həmin pulun bir hissəsi Afət Hüseynovanın həyat yoldaşına qalıb. Qalan pulun 386 minini Akimova yeni iş qurmaq üçün Hüseynovadan alıb. Ancaq şərikli iş alınmayıb. Akimova bundan əlavə Hüseynovadan 170 min manat alaraq ona MTN əməkdaşlarının yaşadığı binadan ev verəcəyini vəd edib. Bu vədinə də əməl etməyib. Bundan başqa isə 55 min manat dəyərində avtomobilini ələ keçirib. Son olaraq isə Akimova Hüseynovanın satılan mağazasından qalan 180 min manatlıq geyim əşyalarını ələ keçirib"- deyə ittiham aktında yazılır.

Digər zərərçəkmiş Sona Əliyeva isə Aygün Akimovaya 5 min manat verib. Bunun qarşılığında isə Akimova Sona Əliyevanı Azərbaycan Beynəlxalq Universitetinə qəbul etdirəcəkmiş.

Başqa bir zərərçəkmiş isə Kamil Abbasovdur. O, anadangəlmə xəstə olan qardaşına təqaüd düzəltməsi üçün Akimovaya 2400 manat verib. Akimovadan digər zərərçəkmiş Natəvan Şahverdiyevadır. Şahverdiyeva Binəqədidə qaçqınlar üçün tikilən binadan ucuz ev almaq üçün Akimovaya 35 min manat verib.

Aygün Akimovanın dələduzluq əməllərinin qurbanları sırasında qulluqçusu işləmiş Rita Həsənzadə də var. O, Akimovaya borc olaraq 28 min 500 dollar verib, geri ala bilməyib.

Akimovanın əməllərinin qurbanı olan sonuncu şəxs isə Elçin Axundzadədir. Elçin Axundzadə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Masallı rayon şöbəsinin müdiri vəzifəsinə işə düzəlmək üçün 39 min dollardan keçib. Digər işlərdə olduğu kimi Akimova bu vədinə də əməl etməyib.

Akimova ilə birlikdə həbs edilən İlham Baxışovun adı yalnız bu epizodda keçib. Belə ki, Akimova Axundzadədən aldığı pulu geri qaytara bilməyəndə yeni tikilən yaşayış binalarından birində olan mənzilini banka girov qoymaq istəyib. Amma evin çıxarışı olmadığından əvvəlcə sənəd işlərinin həll edilməsi üçün İlham Baxışova müraciət edilib. İlham Baxışov evə çıxarış almaq üçün 3500 manat istəyib. Bu məbləği də Elçin Axundzadə ödəyib. Amma çıxarış məsələsi də alınmadığından Axundzadə ikinci dəfə ziyana düşüb. İlham Baxışov aldığı pulun 3000 min manatını geri qaytarıb, amma sahibinə yox Akimovaya. Pulunu geri ala bilməyən Axundzadə İlham Baxışovdan da şikayətçi olub. Məhkəmədə məlum olub ki, İlham Baxışov Elçin Axundzadəyə dəymiş zərəri ödəyib.

Qeyd edək ki, Aygün Akimova Cinayət məcəlləsinin 178.3.2 (dələduzluq, külli miqdarda olduqda) və 178.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddələri ilə təqsirli bilinir.

Məhkəmə prosesində A.Akimova isə heç bir epizod üzrə özünü təqsirli bilmədiyini və bir-birlərini tanıyan şəxslər tərəfindən şərləndiyini iddia edib.

İlham Baxışov isə özünü qismən təqsirli bilib və əməlindən peşman olduğunu söyləyib.

Məhkəmə prosesinin davamında təqsirləndirilən Aygün Akimova dinlənilib. Özünü günahkar bilməyən Akimova deyib ki, hazırda ondan şikayətçi olan Afət Hüseynova yalan danışır.

"Bunların hamısı ağ yalandır. Mən Afətgilin mağazasına getməmişəm. Oradan ilk dəfə 800-900 manatlıq alver elədim. Satıcılar başımıza dolanırdı. Onlar bizi yaxşı müştəri kimi qeyd edib, mobil nömrəmi götürdülər. Zəng edib yeni mallarının gəldiyini deyirdilər. Mağazaya gedib-gəldikcə Afətlə münasibətimiz yarandı. Bəzən söhbət edəndə o mənə ailə problemlərindən danışırdı, ərindən şikayət edirdi. Mən bilirdim ki, mağaza onun ərinindir. İndi deyir ki, mağaza bunun olub və mənim təzyiqimlə satıb. Mağazanın satılmasından mənim xəbərim olmayıb. Özləri satıblar, deyəsən əri buna da pay verib. Əskinə mən ona çox yaxşılıq etmişəm. Ərindən ayrılandan sonra ona evimdə qalmağı təklif etmişəm. Borcları var idi, banklara kredit ödəyirdilər. Afətin içki içdiyini, əxlaqsızlıq etdiyini bilirdim. Ona tapşırdım ki, evimdə qalsın, amma özünü yaxşı aparsın. Mən onun maşınını əlindən almamışam. Banklara olan borclarını ödəmək üçün məndən pul almışdı. Sonra həmin borcu qaytarmaq üçün maşını notariusla mənim adıma keçirdi. Digər zərərçəkmişləri də Afət bir yerə yığıb. İşi planlaşdırıblar. Guya mən bunları MTN adı ilə hədələmişəm. Şikayətlərində deyirlər ki, guya mən özümü MTN polkovniki kimi təqdim eləmişəm, "vorzakon"larla oturub-durmuşam. Bunlar özləri "ölmüş" pulları məndə "diriltmək" istəyirlər".

Prokurorun suallarını cavablandıran Akimova onu da deyib ki, heç bir yerdə işləməyib və maddi ehtiyaclarını uşaqlarının atası qarşılayıb.

Təqsirləndirilən Akimova ondan şikayətçi olan şəxslərdən yalnız birinə-qulluqçusu olmuş Rita Həsənzadəyə borcunun olduğunu deyir. Amma qeyd edilən məbləğlə razılaşmır: "Ancaq Ritadan 10-11 min manat arası pul almışam. Onu da uşağımın müalicəsi üçün istəmişdim. Guya ərimin tikinti işi üçün almağım, fəhlələrə maaş vermək istəməyimiz yalandır".

Zərərçəkmiş Elçin Axundzadə də məhkəmədə ifadə verib. O deyib ki, sosial şəbəkə vasitəsi ilə tanıdığı Sabrina Varidaşvili adlı qadına 51 min manat borc verib. Lakin Sabrina söz verdiyi kimi pulu 2 aya qaytarmayıb. Əvəzində isə Sabrina Elçin Axundzadəyə söz verib ki, tanışı Aygün Akimova onu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Masallı rayon şöbəsinin müdiri vəzifəsinə düzəldəcək. Elçin Axundzadə bu təkliflə razılaşıb. Amma uzun müddət keçsə də nə vəzifəyə qoyulur, nə də pul qaytarılır.

E.Axundzadənin dediyinə görə, sonra onu krimanal aləmə yaxın olan şəxslər görüşə dəvət edib: "Aygünün oğru aləmi ilə əlaqələri var idi. Mənə deyirdi ki, "pul içəri çatıb, "vor" aləmindədir". Hətta mənim üstümə adam da göndərmişdi. Onlarla görüşəndə mənə dedilər ki, "Sən Aygündən pul istəyirsən?". Mən onlara vəziyyəti izah elədim. "Sağ ol" deyib məni yola saldılar".

İfadəsinin davamında Axundzadə deyib ki, Aygün Akimova pulun 10 min manatını Ceyran adlı qadının vasitəsi ilə qaytarıb. 41 min manatı isə istintaq dövründə Sabrina Vardiaşvilinin yaxınları tərəfindən ödənilib.

Amma Elçin Axundzadə Aygün Akimovaya qarşı mülki iddia qaldıraraq qeyd edib ki, Sabrinaya vermək üçün bankdan pulu dollarla götürüb. Dolların indiki kursu ilə banka borcunun olduğunu deyən E.Axundzadə dəymiş zərərin ödənilməsini istəyir.

E.Axundzadə digər təqsirləndirilən İlham Baxışovdan heç bir şikayətinin olmadığını və onun azadlığa buraxılmasını istədiyini söyləyib.

Məhkəmə prosesi digər zərərçəkmişlərin dindirilməsi ilə davam edəcək.

❑ **İ.MURADOV**

**İZRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

**Elan**

**Mərkəzdə, "Gənclik" metrosunun çıxışında kupçalı tam 3 otaqlı daş ev, 5/4 orta blok. Su, qaz, işıq daimi. Nərimanov prokurorluğunun həyətində öz evimdir, orta təmirli. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**
**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

YENİ MÜSAVAT
N 79 (6693) 17 aprel 2017

**Daha çox filmlərdə bu səhnələrlə qarşılaşmaq mümkündür. Xüsusi xidmət orqanlarında çalışan birinin yalan danışıb-danışmadığını öyrənmək üçün onu yalan detektoru ilə sınayırlar. Necə deyərlər, sıravi insanların arasında Qurana əl basmaq, uşağının canına and içmək məsələsi nə qədər aktualdırsa, daha yüksək instansiyalarda bu yoxlamanı yalan detektoru əvəzləyir. İnsanların bir-birinə yalanı az qala su içər kimi adi şəkildə dediyi bu günlərdə yalan detektoru mövzusu da aktualdır. Məlum, bu cihaz insanın yalan danışıb-danışmadığını müəyyənləşdirir. Bundan kimlər, necə istifadə edir? Sözügedən aparatı aldatmaq olarmı?**

# Yalan detektorları haqda bilmədiyimiz həqiqətlər...

## Almaniya detektordan keçməyə 1954-cü ildə qadağa qoyub, ən aktiv istifadəçi isə ABŞ-dır



### Yumurtanı bir-birinə asta ötürən şəxs.... yalançı deyilmiş

Yalan detektorunun tarixinə nəzər salmaq lazımdır. Kimin ağlına gəlib bu aləti yaratmaq? Zərurətin yaranma tarixçəsi necə olub? Tarixə ekskurs edək...

Tarixə nəzər etsək, yalanı tanıma, üzə çıxarma və ifşa olunma üçün müxtəlif vasitələrdən istifadəni görərik. Bilirik ki, yalan danışan zaman insanın simasında və daxili orqanlarında müxtəlif, dəyişik funksiyalar baş verir. Qədimdə Yunanıstan kəndlərində yalan düyü ilə yoxlanılardı. Şübhəlinin ağzını quru düyü ilə doldurub, cinayəti edib etməməsini soruşardılar. Əgər sual-cavabdan sonra şəxsin ağzındakı düyü quru qalardısa, demək yalan danışır. Hind kəndliləri təqsirləndirilən şəxsə cinayətlə bağlı sual verərdi. Sual zamanı o, astaca qonq çalmalı və "hə" və "yox"u başı ilə təsdiqləməli idi. Qonqun səsi yüksək çıxardısa, demək həyəcanlanıb bərkdən vurub və yalan danışır. Maraqlı adətlərdən biri də Afrikada olub. Belə ki, şübhəliləri düzüb onların əlinə xüsusi zərif quş yumurtası verilirmiş. Onlar bu yumurtaları bir-birinə astaca amma tez-tez ötürməliymiş. Kim həyəcanlandısa, əlindəkini qırardı və günahı üzə çıxardı...

### Aləti 1877-ci ildə İtaliyada kəşf etdilər

Elm və texnikanın inkişafı sürətləndikcə, yalanı aşkar etmə cihazları dövrəyə girdi. Ən tanınmışı "yalan detektoru" adlanan cihazdır. Hansı ki başlanğıcını 1877-ci ildə italyan fizioloqu Andjelo Mosso özünün "pletizmoqrafa" (qan damarlarının təchizatı və nəbzi ölçmək) aparatı ilə qoydu. Bu aparatdan yalanı üzə çıxarmaq üçün ilk istifadəni italyan kriminalisti Çezare Lombrozo etdi. Artıq 1881-95-ci illər arasında Çezare özünün "Qatil insan" kitabında da qeyd etdiyi kimi oğurluq və cinayət işlərində bu aparatdan istifadəni ön plana çəkdi. Çezarenin bu aparatla ən böyük uğuru 1902-ci ildə gənc bir qızın təcavüz və qətlinin səbəbkarını tapmağı oldu.

1921-ci ildə aparat daha da təkmilləşdi və insanın dəri rənginin dəyişikliyini, nəfəs borularının tezliyini də müəyyən etməyə başladı. Bunun başlangıc istifadəsini isə Kaliforniya ştat polisi Con Lorson etdi.

### Hansı xalqlar bu adətə inanır, hansı yox?

Son 45-50 il ərzində aparatın bütün funksiyaları birləşib müasir kompüter kimi formalaşıb. Detektor aparatının ən aktiv istifadəçisi ABŞ-dı. Artıq orada fərdlər düz danışdığını sübut etmək üçün pul xərcləyib detektora oturururlar. Lakin ABŞ-dan fərqli olaraq, Kanada da məhkəmə salonlarında detektor istifadə olunmur. Koreya və 4-cü yerdə Yaponiya durur ki, bu aparatın ən aktiv istifadəçi ölkəsidir. Amma yaponlar qocalara, narkotik-içki-psixi problemi olanlara, xəstələrə, detektor cihazından keçməyə qəti qadağa qoyub. Almaniya isə ümumilikdə detektordan keçməyi 1954-cü ildə qadağa qoyub. 1984-cü ildə Türkiyədə bu cihazdan aktiv istifadəyə başladı. Lakin Türkiyədəki mütəxəssislər Amerikada yetişdirilir. Ölkəmizdə tam ixtisaslı mütəxəssis olmadığından hələ ki, bizdə cihaz tam istifadəsini tapmayıb.

### Bu detektor isə bir başqa - yalanı gözlərlə müəyyənləşdirirlər

Baffalo Universitetinin amerikalı alimləri həqiqəti gözlər vasitəsilə bilən yalan detektorlarının yeni növünü yaradıblar. Yaradılmış xüsusi proqram veb-kamera vasitəsilə sınağa çəkilən insanın göz almalarının hərəkətini qeyd edir, onları təhlil edir və fikirlərin yalançılığını 80%-dən yuxarı dəqiqliklə müəyyən edir. Yeni üsul 40 könüllü üzərində sınaqdan keçirilib.

Onları əvvəlcə təcrübəli müstəntiq bu və ya digər fikirlərin doğruluğunu təyin etmək üçün "sorğu-sual edib", sonra isə yalan detektoru sınaqdan keçirilib. Təcrübənin sonuna yaxın məlum oldu ki, müstəntiq 60%, lakin yalan detektoru 82,5% halda yalanları müəyyən edib.

Qurğunun yaradıcıları hesab edirlər ki, onu hələ çoxlu könüllülər üzərində sınaqdan keçirmək lazımdır, lakin qurğunun dəqiqliyi artıq indidən heyrətləndiricidir.

### Bizdə vəziyyət fərqlidir - ermənilərə qarşı tətbiq olunacaq

Azərbaycanlıların və regionun digər xalqlarının mədəni irs nümunələrinə ermənilərin əsassız iddiaları olduğu elmi üsulla sübut edilərək bunun qarşısını almağa imkan verən yeni texnologiyanın yaradılmasına başlanılıb. Bu barədə bir neçə il öncə keçirdiyi mətbuat konfransında Prezident Administrasiyasının sektor müdiri Fuad Axundov məlumat verib. Azərbaycan alimləri erməni saxtakarlıqlarını aşkar etmək məqsədilə "yalan detektoru" icad ediblər. Bu barədə məlumat verən Fuad Axundova görə, 18 qədim erməni lüğəti, o cümlədən digər xalqların lüğətləri araşdırılıb. Bütün nəticələr ermənilərin Azərbaycanın mədəni irs nümunələrinə olan iddialarının əsassız olduğunu göstərib. Prezident Administrasiyası rəsmisi layihə ilə bağlı yaxın vaxtlarda veb-saytın fəaliyyət göstərəcəyini və sənədli film çəkiləcəyini də deyib. Fuad Axundov onu da vurğulayıb ki, əslində bu yaxınlarda Ermənistanın lavaşı erməni çörəyi, balabanı isə erməni xalq musiqi aləti kimi UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etmək cəhdi Azərbaycan alimlərini qədim erməni lüğətlərinə müraciət etməyə sövq edib. Həmin lüğətlərdə hər iki anlayış ümumiyyətlə yoxdur. Azərbaycan alimlərinin mədəni irsə aid olan növbəti araşdırmaları haqqında da bu yaxınlarda məlumat veriləcək. Əldə olunan nəticələrin YUNESKO-da müzakirəyə çıxarılacağı ilə də bağlı iş aparılır. Fuad Axunov bundan əvvəl reallaşan və böyük əks-səda doğuran "İrəvan Qala" layihəsinə də toxunub. O Ermənistan hökumətinin İrəvanın mərkəzindəki ərazini şəhərin tarixi hissəsi kimi təqdim etmək üçün keçən əsrin əvvəllərində aid 20-yə yaxın binanın tikintisindən ibarət "Köhnə şəhər" layihəsinin həyata keçirilməsinə dair planlarını gülünc adlandırıb. Çünki Qafqaz 20-ci əsrdən əvvəl də həyatın mövcud olduğu qədim regiondur. Bu layihənin məqsədi tarixi dəyişdirmək, saxtalaşdırmaqdan ibarətdir. Alimlər də sübut edir ki, Azərbaycan və Gürcüstan paytaxtlarının öz tarixi yerləri var, lakin İrəvanda köhnə tarixi mərkəzdən əsər-əlamət qalmayıb, bu isə Azərbaycan mənşəli tarixi abidələrin ermənilər tərəfindən məqsədyönlü şəkildə məhv edilməsini göstərir. Qafqaz Tarixi Mərkəzinin direktoru Rizvan Hüseynov və əməkdaşı Elşad Əlili bu istiqamətdə xarici alimlərlə də əməkdaşlıq etmək niyyətində olduqlarını deyiblər.

Digər detallara da unutmayaq. Kadr məsələlərini həll edərək insanın müəyyən mənəvi keyfiyyətlərini öyrənmək üçün bir çox ölkələrdə korrupsiyaya qarşı mübarizədə poliqrafın imkanlarından profilaktik element kimi istifadə olunur. İşə qəbul zamanı "yalan detektoru"nun imkanlarından dünyanın 103 ölkəsində istifadə olunur həmçinin postsovet məkanında - Rusiya, Belarus, Moldova, Latviya kimi ölkələrdə tətbiq olunur. Bu cür test üsulu ABŞ-ın 26 xüsusi xidmətin əməkdaşları üçün məcburidir.

### Sığorta şirkətlərinin "sağ əli" - müştəri yalan danışırmı?

Maraqlıdır ki, sığorta şirkətləri sığorta dələduzları ilə mübarizə aparmaq üçün sərt üsullara əl atmağa məcbur olublar. Bunlardan biri müştərilərin yalan detektoru vasitəsilə yoxlanmasıdır.

"Allianz" şirkətinin Çexiya filialının nümayəndələri bu ildən başlayaraq, sığorta hadisələrinin müəyyənləşdirilməsi zamanı qeyd olunan səs analizatorundan istifadə edəcəklər. Şirkət bu üsulla sığorta dələduzlarına qarşı mübarizə aparmaq fikrindədir. Yalan detektoru kimi işləyən cihazdan yalnız müştərinin dələduzluğa əl atması barədə şübhə edildikdə istifadə olunacaq.

Şirkətin sığorta dələduzluqlarının aşkarlanması xidmətinin (!) direktoru Lüdvik Boxman bildirib ki, "İsraildə istehsal olunan bu cihaz ilk əvvəl hərbi məqsədlər üçün, insanların yalan danışdığı zaman səs strukturunun dəyişməsinin müəyyən edilməsi üçün nəzərdə tutulmuşdu. Cihaz səs dalğalarını rəqəmsal formaya çevirərək müştərinin yalan və ya doğru danışdığını müəyyən edir".

Qeyd edək ki, sığorta şirkətləri sığorta ödənişindən boyun qaçırmaq məqsədilə bir qayda olaraq, müştəriləri dələduzluqda və qərəzdə ittiham etməyə çalışırlar. Buna avtomobil oğurluğu hadisələri zamanı və ya mənzil, mağaza, biznes obyektləri ilə bağlı sığorta hadisələri, əsas etibarilə oğurluq halları zamanı əl atırlar.

Adı çəkilən cihaz isə yalnız müştərinin razılığı əsasında istifadə edilə bilər. Hərçənd ekspertlər hesab edir ki, bu tip detektorlar yüz faizli nəticələrə gətirib çıxarmır və sığortaçının eşitmək istədiyi cavab heç də həmişə həqiqətə uyğun gəlmir. Ona görə də ekspertlərin fikrincə, hətta sığortaçı tələb etsə də, sığortalının detektor yoxlanışından keçməkdən imtina etmək hüququ var. Hüquq elmi nöqteyi-nəzərindən də yalan detektoru yetərli dəlil hesab oluna bilməz.

### Yalan detektorunu... 3 cür aldatmaq olar...

Bir məqamı isə unutmaq olmaz. Belə ki, yalan detektorunun müsbət cəhətləri olsa da, nəticəsinə 100 faiz əmin olmaq düzgün deyil. Yalan detektorunu müxtəlif üsullarla aldatmaq olar. Sualların hamısına qeyri-ciddi, zarafatyana, mənasız cavablar verməklə poliqrafın işini dolaşdırmaq olar. Düzgün cavab verdikdə isə poliqraf sizin reaksiyanızı müəyyənləşdirir və bütün cavablarınızı həmin reaksiya ilə müqayisə edir. Lakin poliqrafa qarşı mənasız və zarafatyana cavablar verən şəxs digərlərində şübhə doğurur.

Yalan detektorunu aldatmaq üçün üç əsas üsul var. Üsullardan biri sensor analizatorların həssaslığını aşağı salmaqdır. Bunun üçün yalan detektorundan keçməzdən bir gün əvvəl spirtli içki içmək lazımdır. Spirtli içki qəbul etdikdən sonra ertəsi gün insanın həssaslığı azalır, reaksiyaları tormozlanır. İnsanın bu cür reaksiya verməsi yalan detektoruna onun cavablarının həqiqiliyini düzgün müəyyənləşdirməyə imkan verməyəcək.

Müxtəlif dərman və tibbi vasitələr var ki, onların vasitəsilə də yalan detektorunu aldatmaq olar. Bu, hipertoniya xəstəliyi üçün nəzərdə tutulan, arterial təzyiqi aşağı endirən və adrenalinin yaranmasının qarşısını alan dərman preparatları ola bilər. Bu cür dərmanları istifadə edərkən ehtiyatlı olmaq və bədənin həmin dərmanlara hansı reaksiyanı verəcəyini bilmək lazımdır. Arterial təzyiqi aşağı olan şəxslərə belə dərmanları qəbul etmək təhlükəlidir. Bu dərmanları içərkən həm də dərmanların təsir müddətini də nəzərə almaq lazımdır. Belə ki, yalan detektoru ilə yoxlamadan keçəndə suallara cavab verməyə başlayandan 40-50 dəqiqə sonra dərman qanda maksimuma çatmalıdır.

Üsullardan biri isə bir neçə gün yuxusuz qalmaqdır. Bu cür vəziyyətdə olan insanın bütün suallara cavabları eyni və zəif reaksiya ilə müşayiət olunacaq. Fiziki məşğələlərdən sonra hədsiz yorğunluq, uzun müddət aclıqdan üzülmə də suallara qarşı yaranan fizioloji reaksiyaları zəiflədir. Digər bir üsul isə bütün emosiyaları boğmaqdır. Əgər buna müvəffəq olsanız, yalan detektoru yalan cavabları qeyd edə bilməyəcək. Emosiyaları idarə etmək çox çətindir və hər kəsdə bu alınmır. Diqqəti başqa obyektə yönəldərək, suallara əhəmiyyət verməyərək, yalan detektoruna fikir verməyərək buna nail olmaq olar.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
Son səhifə
N 79 (6693) 17 aprel 2017




## Eni 100, hündürlüyü 48 metr olan plakata "help" sözü yazdı

**Fransalı fermer tarlasının ortasında, üzərində iri hərflərlə "HELP" (kömək) sözü yazılmış plakat yerləşdirib. O, bununla Fransada kənd təsərrüfatı sahəsindəki kasıb duruma diqqət çəkmək istəyib. Bu barədə "The Local" nəşri məlumat verib. 63 yaşlı Jak Forten Tur şəhərindən uzaq olmayan yerdə, öz fermasında eni 100, hündürlüyü 48 metr olan bir plakatın üzərində bu sözü yazıb. Hərflər hətta təyyarədən belə aydın görünür.**

Forten deyib ki, bu yazı əslidə kollektiv kasıblığı ifadə edən bir siqnaldır və bütün fermerlərin adından nəzərdə tutulub. Onun sözlərinə görə, hər gün işlədiyin halda ayda cəmi 350 avroya yaşamaq anormallıqdır. Fermer həmçinin vurğulayıb ki, hər fermerdən ikincisi bu məbləğdən az alır və bəziləri isə yaşaya bilmir, ya da intihar edirlər. Forten istəyir ki, problemə prezident seçkilərində iştirak edəcək siyasətçilər diqqət versinlər: "Mən ümid edirəm ki, onlar kor deyillər və bu xəbəri oxuyub reaksiya verəcəklər".

Fransada prezident seçkiləri 23 apreldə keçiriləcək. İkinci tura ehtiyac qalsa, o da 7 mayda baş tutacaq. Əsas namizədlər Emmanuel Makron, Fransua Fiyyon və Marin Le Pen sayılırdı.

Fevral ayında Fiyyon öz ştabında fermerlərin təmsilçilərini qəbul edib və onlarla kənd təsərrüfatı sahəsində müzakirələr aparıb.

# 45 kiloluq pasxa yumurtası hazırlanıb

**Amerikanın Minnesota ştatındakı Leyk Elmo şəhərində dünyanın ən böyük şokoladlı yumurtası hazırlanıb. Bu barədə lenta.ru saytı UPI-yə istinadən xəbər verir. "Lake Elmo İnn" restoranının sahibi aşpaza Pasxa bayramı münasibətilə 45 kiloluq yumurta hazırlamağı tapşırıb. İş tam 3 gün davam edib. Yumurtanı 8 qat ağ şokoladdan hazırlayıblar. Yumurtanın üstünü isə 240 güllə bəzəyiblər, həmin güllər də eyni tərkibdən hazırlanıb. Restoran bu yumurtanı ziyarətçilərinə 23 aprelə qədər nümayiş etdirməyi planlaşdırır. Restoranın aşpazı Elmo İnn Coni Marti deyib ki, insanlar onu xoşlayırlar, çünki eyni ölçüdə və böyüklükdə başqa yumurta yoxdur. Aşpaz keçən il çəkisi 13 kilo olan yumurta hazırlamışdı. Bu il katolik və pravoslav kilsələri Pasxa bayramını eyni tarixdə, 16 apreldə keçirirlər. 14 apreldə isə məlum oldu ki, Teksas ştatında vertolyotdan 5 min ədəd Pasxa yumurtasını atıblar.**



# Nəvəsini qorxutduğu üçün həbs olundu

**Oklaxoma Sitidə yaşayan qadın 7 yaşlı nəvəsini cadugər geyimində qorxutduğu üçün 3 il müddətinə azadlıqdan məhrum olunub. "Associated Press" xəbərinə görə, 51 yaşlı Jeneva Robinson fevral ayında uşağa qarşı qəddar münasibətdə, beş epizod üzrə özünü təqsirli bilib. O, boynuna alıb ki, cadugər geyimini geyinərək yuxuda olan nəvəsinin boynunu cırmaqlayıb, onu əllərindən və üzündən vurub. Prokuror bildirib ki, qadının bu hərəkəti ömür boyu uşağın xatirələrində travma olaraq yer alacaq. Məhkəmədə qadının hərəkətlərinə dair 3 dəqiqəlik videomaterial da nümayiş etdirilib. Bu çəkilişi qadın özü mobil telefonuna çəkib. Müdafiə tərəfi deyib ki, ittiham olunan şəxsi bu hərəkətlərə uşağın nadincliyi vadar edib: "Uşağı nəzarətdə saxlamaqda çətinlik çəkirdim. Amma etiraf edirəm ki, bir az uzağa getmişəm".**

Qadın eyni zamanda bildirib ki, şizofreniyadan və əsəb pozğunluğundan müalicə alır. İttiham olunan şəxsin sevgilisi olan Coşua Qreyndcer də özünü bu qəddarlıq epizodlarından biri üzrə təqsirli bilib. Onu da 30 il müddətinə azadlıqdan məhrum etmə cəzası gözləyir.






## Robotlar işçiləri əvəzləyəcək, insanlar ac qalacaq

**"World Economic" Forumun analizinə görə, 2020-ci ildə robotlar dünyada 5 milyon işçinin yerini alacaq. Bu tarixə qədər isə Avropa ölkələrində həyəcan siqnalları çalınmağa başlayıb. İsveçrə tarixi bir referenduma gedəcək. Hər vətəndaşa ayda 2500 İsveçrə frankı məbləğində gəlir ödənməsi nəzərdə tutulub, bununla bağlı səsvermə keçiriləcək. Təklif qəbul edilsə, sosial yardımlar kəsiləcək. Aylıq 2500 frank xaricində işsizlik yardımı da veriləcək. Finlandiyanın 3 şəhərində də hər kəsə aylıq 850 avro maaşa bağlı qanun qüvvəyə minmişdi. Fransada da bu mövzu müzakirə olunur.**

Avropada robotların işçilərin yerini alması ilə işsizliyin artması və istehsalın zəifləyəcəyi ilə bağlı narahatlıq gündəmdədir. Bu səbəbdən də Avropa Birliyində işsiz qalacaq insanlara gəlir yaratmaq üçün müxtəlif formullar üzərində işlənilir.




**QOÇ** - Həddindən ziyadə uğurlu gündür. Ürəyinizə yaxın adamlarla rastlaşmağınız, həmçinin sevindirici təkliflər almağınız uzun müddət yadınızda qalacaq. Uzaq yola çıxsanız, ehtiyatlı olun.

**BUĞA** - Sağlıq durumunuzda və fəaliyyət istiqamətində problemləriniz gözlənilsə də, qalan işləriniz uğurlu olmalıdır. Hətta günün ikinci yarısında qazanmaq ehtimalınız da var.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə qənaətbəxş təqvimdir. Xüsusən də saat 14-16 aralığında hansısa xoş bir hadisəylə rastlaşacaqsınız. Ailə üzvlərinizlə, həmkarlarınızla mehriban davranın.

**XƏRÇƏNG** - Ulduzların düzümü rahatlığı daha çox səfər və qonaqlıqlarda tapa biləcəyinizdən xəbər verir. Çünki bu gün sizə çoxlu adamlarla təmasda olmaq vacibdir. Tənhalığa qurşanmayın.

**ŞİR** - Bəxtinizdə ilahi bir təqvim durub. Bu səbəbdən də hansısa müqəddəs yeri ziyarət etməklə, kimsəsizləri sevindirməklə böyük savab qazanmış olarsınız. Axşam maraqlı insanlarla görüşünüz mümkündür.

**QIZ** - Səhhətlə bağlı nasazlığınız olsa da, bu, ovqatınızı pozmayacaq. Əksinə, gün ərzində iştirakçısı olduğunuz proseslər sizi xeyli fərəhləndirəcək. Ətrafınıza yaxşı insanlar toplaşacaq.

**TƏRƏZİ** - Maliyyə vəziyyətiniz imkan versə, özünüzə təzə geyim alın. Çünki xeyli müddət belə fürsət ələ düşməyəcək. Göy qübbəsi kənar təsirlərə aludə olmamağı, riskdən qorxmamağı tövsiyə edir.

**ƏQRƏB** - Ulduzlar bu təqvimi daha çox istirahətə ayırmağı tövsiyə edir. Ağır fiziki və zehni işlərə girişməyin. Saat 16-dan sonra qonaq getməyə, ikili gəzintilərə aludə olmağa dəyər.

**OXATAN** - Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə ətrafınızda olanların naxələfliyi ovqatınızı poza bilər. Odur ki, müəyyən qədər təcrid olunub öz aləminizə qapılın.

**OĞLAQ** - Yalnız maliyyə məsələlərində uğurlarınız gözlənilir. Odur ki, əsas gücünüzü bu istiqamətə yönəldin. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Axşam başqa ünvana getməyin.

**SUTÖKƏN** - Saat 15-ə qədər qarşılıqlı münasibətlərdə gərginlik gözlənildiyindən tədbirli olun. Bunu bacarsanız, ulduzlar sonrakı müddətdə sizə xüsusi zövq verəcək. Təzə xəbər də eşidəcəksiniz.

**BALIQLAR** - Çox düşərli gündür. Boş durmaqdansa ən xırda şansdan belə istifadə edin. Tərəfdaşlıq zəminində, perspektivli sövdələşmələrdə uğurlarınız artacaq. Sağlıq durumunuzu diqqətdə saxlayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən yaşlı qadını öldü



**İtaliyalı Emma Morano Yer kürəsinin ən yaşlı sakini sayılırdı. 15 aprel tarixində yaşlı qadın 117 yaşında dünyasını dəyişib. Bu barədə "La Republica" qəzeti xəbər verib. Yaşlı qadının uzunömürlülük sirri gündə 3 yumurta, döyülmüş ət yeməsi və tək yaşaması idi. Morano 2016-cı ilin may ayında Suzanna Muşatt Consun dünyasını dəyişməsindən sonra planetin ən yaşlı sakini elan edilmişdi. İtaliyalı qadın 1900-cü ildə dünyaya gələn yeganə insan idi.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100